بسم الله الرحمن الرحيم

**Tbilisi – 2023**

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაცით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

**Kitabın adı:**

Hədislərlə namaz

**Müəllif:**

Dr. Rüfət ŞİRİNOV

**Nəşrə hazırlayanlar:**

Dr. Abbas QURBANOV

Hacı BƏKİROĞLU

**Redaktor:**

Dr. Anar QURBANOV

**Dizayn:**

Azər İBRAHİMOV

**Qapaq dizaynı:**

Nicat QƏRİBOV

Elsevər ƏHMƏDOV

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Tbilisi Georgia, Botanikuri, #32
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0105
E-mail: info.amag77@gmail.com

ლოცვა ჰადისების მიხედვით

# HƏDİSLƏRLƏ NAMAZ

Dr. Rüfət ŞİRİNOV

დოქტორი რუფათ შირინოვი

*Bu kitabımı ana və atama ithaf edirəm.*

Rüfət Şirinov, 1980-ci ildə Şəki rayonu Şorsu kəndində doğulmuşdur. Bakalavr təhsilini 1997-2002-ci illər arasında Türkiyə Cumhuriyyəti Ondokuz Mayıs Universiteti İlahiyyat fakültəsində aldı.

Magistratura təhsilinə Marmara Universiteti (İstanbul) Sosial Elmlər institutunun Hədis elmi sahəsində başladı və 2005-ci ildə ***"Azərbaycanlı mühəddis əl-Bərdicinin həyat və yaradıcılığı"*** elmi işini müdafiə edərək magistr dərəcəsini aldı.

2008-ci ildə Necmeddin Erbakan Universiteti (Konya) Sosial Elmlər institutunun Hədis elmi sahəsində doktorantura təhsilinə başladı. Həmin təhsili 2018-ci ildə ***"Əli əl-Qari və hədisləri şərh etmə üslubları"*** elmi işini müdafiə edərək başa vurdu və doktor ünvanını aldı.

Yayınlanmış əsərləri:

1. **Hədis Elmi,** *İlahiyat fakültələri üçün dərs vəsaiti*-
   Birinci nəşr, Bakı 2007
   Əlavəli ikinci nəşr, Bakı 2011
2. **Gülüstandan Gül Dəstəsi** *-250 seçmə hədis-* Bakı 2008
3. **40 hədisdə Ailə**, Bakı 2014
4. **Hədislərdə Dua**, Bakı 2015
5. **40 Qüdsi Hədis**, Bakı 2016
6. **Hədis Elmi** – *İslam kollecləri üçün dərs vəsaiti* – Bakı 2016
7. **Dini Bütövlük Kontekstində SÜNNƏ**, Bakı 2018
8. **İmam Qəzzalidən Ədəb Qaydaları**, Bakı 2019
9. **Hədis Elmi,** Bakı 2021

Ayrıca 10-a yaxın elmi-akademik və 150-dən çox bədii-publisistik məqaləsi müxtəlfi elmi və bədii jurnallarda nəşr olunmuşdur.

# TƏQDİMAT

İslam dini ictimai həyatla birbaşa münasibəti olan ümumbəşəri bir dindir. Odur ki, dəyişən zaman və dövrlərdə islam alimləri zamanın tələbatına uyğun müəyyən dəyərləndirmələr etmiş, fitvalar vermişdir. Onların (Quran və Sünnəyə sadiq qalaraq) fərqli fitvalar verməsi təbiidir və qəbuledilləndir. Çünki hələ Hz. Peyğəmbər (s.ə.s) dövründə belə, səhabələr arasında fərqli anlayışlar olmuşdur.

Bir mövzu barəsindəki fərqli dəyərləndirmələrə fikir zənginliyi və tərəqqinin açarı kimi baxmaq lazımdır. Müctəhidlərin fərqli analizləri və tolerant yanaşmaları elmi məcburiyyətdir. "Ümmətin ixtilafı rəhmətdir" ifadəsinə də bu pəncərədən baxılmalıdır. Qeyd edim ki, bir məsələdə fərqli izahların olması, hər dəfə fərqli görüşü mənimsəməyə əsas vermir. Digər məzhəblərin də görüşünü bilməli, ancaq imkan nisbətində bir məzhəbin görüşünü mənimsəməlidir. Ələl-xüsus fiqh sahəsində dərin bilgisi olmayan insanlar üçün bu labüddür. Fərqli fitvalar bəzən fikir qarışıqlığı törədə bilər.

Vəhyi oxumaq, onu başa düşmək və tətbiq etmək bütün müsəlmanların vəzifəsidir. Bununla yanaşı Quran və sünnədə qəti hökmlər olmaqla yanaşı, hökmü mövcud olmayan bəzi məsələlər də vardır. Həmçinin Quran və

sünnədə elə məsələlər də var ki, onlar ancaq bir alimin (müctəhidin) rəyi ilə həll yolunu tapır. Belə olan hallarda məsələlərin hökmləri müctəhidlərin mövqeyinə görə fərqli ola bilər. İstər ictihadla bağlı, istərsə də fitva nöqteyi-nəzərdən hökmlər müxtəlif ola bilər.

Məsələlər qarşısında müctəhid dərəcəsindəki hər alimin öz ictihadı ilə əldə etdiyi nəticə onu tətbiq edən hər bir insan üçün dindir və onunla əməl edilə bilər. Həzrət Peyğəmbər (s.ə.s) ictihad edən alimin doğru qərarı üçün iki, səhv qərarı üçün bir savab, əcr olduğunu xəbər vermişdir.

Bu işi (ictihad işini) təkbaşına bacaran (bilavasitə Quran və sünnədən oxuyub anlayan və hökm çıxaranlar) müctəhid hesab olunur. Bu sahədə kifayət qədər elmi olmayanlar isə onu bilənlərdən soruşub tətbiq etməlidirlər ki, bunlara da müctəhidin yoluna (məzhəbə) tabe olan müqəllid deyilir. Bu baxımdan, İslamda məzhəb ictihad etmə səlahiyyətinə sahib alimlərin həm istifadə etdikləri metod, həm də bu metodlarla əldə etdikləri hökmlərin hamısına deyilir. Elə buna görədir ki, “məzhəb” kəlməsi İslam dinində cəfərilik, hənəfilik, şafiilik, hənbəlilik, malikilik kimi fiqhi cəhətdən fərqli ictihadları və həmin ictihadları özünə rəhbər götürən qrupları müəyyənləşdirmək üçün istifadə edilmişdir. Əlinizdəki bu kitab da namaz ibadəti hökmlərinin hansı hədislərə istinad etdiyini göstərən, bir alimin prizmasından namaz əhkamını öyrədən, möminin ibadət həyatı haqqında biliklərini dərinləşdirən və asanlaşdıran faydalı bir kitabdır.

Bu kitab həm də müsəlmanlara din və dindarlıq məfhumları baxımından öz mövqeyini düzgün seçməyə imkan verir. Müasir dövrün radikal yanaşmalarına da maa-

rifləndirici mövqedən çıxış edir. Məzhəb faktoruna və məzhəb alimi anlayşına dinin rəhmət prizmasından işıq tutur. Məlumdur ki, bugün "məzhəb" məfhumu çox vaxt mənfi mənada hallanır. Halbuki, ictimaiyyətdə meydana gələn məzhəb xofunun səbəbi nə din, nə də onun məzhəb arqumentidir, əksinə, onun yeganə səbəbi məzhəb mənsublarının dinlə əlaqəsi olmayan təəssübkeşliyindəndir.

Əsas olan odur ki, müsəlmanın özü müctəhid deyilsə (çünki müctəhidlər başqasının məzhəbini, ictihadını təqlid edə bilməz), hər hansı bir müctəhidə bağlanmasının, ya da onların hamısından istifadə etməsinin zərəri yoxdur. Zərərli olan və eyni zamanda İslama zərər verən amil məzhəbçilikdir. Tək bir məzhəbin gedişatını haqq din kimi qələmə verib digər alimlərin fikirlərini qeyri-dini yanaşma əks etdirən radikallıq dinin prinsipləri ilə üst-üstə düşmür. Digər məzhəbləri də haqq bilmək, onlardan faydalanmağı da caiz görmək, fərqli məzhəblərə bağlı müsəlmanları bir-birindən ayırd etməmək və dinin vəhdətini qorumaq vəhyin gətirdiyi əsas amildir. Bu baxımdan hər bir müsəlman ibadət həyatında müəyyən bir alimin ictihad etdiyi dini əhkama riayət edərək "Bilənlərə soruşun" ayəsinə (ən-Nəhl, 16/43) görə əməl etməli, digər alimlərin də yanaşmalarını bilməlidir ki, bəzi zəruri hallarda onlardan da istifadə etmək (təlfiq) lazımdır.

Əlinizdəki əsər namazla əlaqəli bəzi məsələləri Hənəfi məzhəbi əsasında dəlilləndirmişdir. Hənəfi məzhəbini özünə yaxın görən və bu məzhəbin görüşlərini əsas götürənlər üçün səmərəli bir tədqiqatdır. Məzhəbi ixtilaflarına girmədən, hədislər əsasında məsələlərin izah edilməsi təqdirə layiqdir.

Maarifləndirici xarakter daşıyan bu əsəri ərsəyə gətirdiyinə görə hədis elmi mütəxəssisi hörmətli f.f.d. Rüfət Şirinova təşəkkür edir, gələcək çalışmalarında uğurlar arzulayıram.

f.f.d. Əhməd Niyazov

*Azərbaycan İlahiyyat İnstitutunun*
*İslamşünaslıq kafedrasının müdiri*

## ÖN SÖZ

Namazı fərz buyuran eyni şəkildə **“Vay o namaz qılanların halına ki, Onlar namazlarına səhlənkar yanaşırlar”**[1] deyərək xəbərdarlıq edən Allaha həmd, “*Mən necə namaz qılıramsa, o cür namaz qılın*!”[2] - deyərək namazı öyrədən Hz. Peyğəmbərə (s.ə.s), onun əhlinə və əshabına səlatu - salam olsun.

Dinin dirəyi olan namaz mənəvi inkişafın ən əsas vasitələrindən biridir. Müsəlmanların simvolu sayılan namazı qılmaq hər bir müsəlmanın əsas borcudur. Hər bir şəraitdə namazın qılınması əmr edilmişdir. Hətta savaş əsnasında belə Hz. Peyğəmbər (s.ə.s) və əshabı namazı tərgitməmiş və beləliklə nə qədər mühüm bir ibadət olduğunu bizə göstərmişdir.

Kəmiyyətdən çox keyfiyyətə əhəmiyyət verən İslam dini namazın da kamil olmasını, bütün incəliklərinə diqqət yetirilərək qılınmasını tələb edir. Çünki Uca Allahın dərgahında kamil şəkildə qılınan iki rükət namaz, fərqində olmadan qılınan min rükət namazdan daha dəyərlidir. Təkcə fiziki hərəkətlərdən ibarət namaz qılanların pərişan olacağını xəbər verir Qurani-Kərim. Odur ki, əsas olan namazın düzgün qılınmasıdır. Bunun üçün də onun hərəkətlərini, qılınma qaydasını düzgün bilmək lazımdır.

---

1. Maun, 107/4-5.
2. Buxari, “Səhih” 631.

Düzgün hərəkətlər namazın mənəvi dəyərini və qılanın xüşusunu artırır. Beləliklə hər bir insan namazını bədəni ilə qibləyə, qəlbi ilə Allah yönələrək qılmalıdır.

Bu əsər Hz. Peyğəmbərin (s.ə.s) və səhabənin namaz qılarkən bizə tövsiyə etdiyi rəvayətlər əsasında qələmə alınmışdır. Əsas məqsəd qıldığımız namazları Hz. Peyğəmbərin (s.ə.s) namazına yaxınlaşdırmaq, hətta eyniləşdirməkdir.

Əlinizdəki əsər Hənəfi məktəbi əsasında qələmə alınmışdır. Bu baxımdan qeyd olunan rəvayət və fikirlər Hənəfi alimlərin istifadə etdiyi dəlillərdən seçilmişdir. Fikir qarışıqlığının olmaması məqsədiylə digər məzhəblərin görüşlərinə yer verilməmişdir. Məqsədimiz Hənəfi üslubu ilə namaz qılanlara hansı dəlillərə əsaslandıqlarını göstərməkdir.

Əsərin “**Giriş”** bölməsində hədis elmi ilə əlaqədar müxtəsər məlumatlara yer verilmişdir. Bu məlumatlar oxucunun əsərdə qarşılacağı terminlər əsasında hazırlanmışdır. Həmçinin giriş bölməsində “əhli-rəy” və “əhli-hədis” anlayışına təmas edilmişdir. Bu məlumatlar əsasında oxucu Hənəfi məzhəbinin “əhli-rəy” olduğuna görə yersiz ittihama məruz qaldığını görəcəkdir. Bu məlumatları düzgün analiz etmək üçün Hənəfi məzhəbinin hədislərlə münasibətindən xəbərdar olmaq lazımdır. Məhz buna görə də Əbu Hənifə başda olmaqla məzhəb mənsublarının hədislə münasibətlərinə təmas edilmişdir.

**Birinci fəsil**də namazın əhəmiyyəti və hədislər əsasında qılınma qaydaları izah edilmişdir. Burada əsasən digər məzhəblərdən fərqlənən hərəkətlər və onların dəlillərinə müraciət edilmişdir. Hər bir mövzu ilə əlaqəli bir hədis seçilmiş və həmin hədis digər rəvayətlər əsasında

izah edilmişdir. Şərhdə əsasən Hənəfi məzhəbinin fiqh kitablarına müraciət edilmişdir.

**İkinci fəsil**də namazla əlaqəli digər mövzulara təmas edilmişdir. Xüsusilə səfdə duruş, iqamənin oxunma qaydası, namazdan sonra oxunan dualar, edilən təsbehlər kimi mövzulara xüsusi əhəmiyyət verilmişdir.

Qeyd etmək istərdik ki, hədislər şərh edilərkən mövzunun axışına əngəl olan məlumatlar, səhifə altı qeydlərdə verilmişdir. Odur ki, səhifə altı qeydlər mövzunu tamamlayıcı xarakter daşıyır. Onların da diqqətli mütaliə edilməsi mühüm əhəmiyyət kəsb edir.

Əsərdə istifadə edilən hədislərin mənbələrdəki yeri akademik üslubda deyil, oxucunun daha rahat tapa bilməsi üçün **xüsusi** üslubda göstərilmişdir. Belə ki, akademik üsluba əsasən bəzi əsərlərin kitab və bab nömrələri, bəzi əsərlərin isə cild və səhifə nömrələri göstərilir. Biz isə ilkin oxucuları nəzərə alaraq əsərin müəllifinin adı, əsərinin adı və hədis nömrəsini göstərdik. Məsələn, Buxari, "Səhih" 345, (Buxarinin səhih əsərində 345 nömrəli hədis) kimi.

Ümid edirik ki, bu əsəri mütaliə edən hər bir şəxs namazı daha da xüşu ilə qılacaq və etdiyi hərəkətlərin dəlillərini öyrənmiş olacaqdır. Allah heç birimizin namazını qiyamətdə üzümüzə çırpmasın, geri çevirməsin. Amin.

Bu əsərin meydana gəlməsində əməyi keçən hər kəsə, xüsusilə oxuyaraq redaktə edən və təkliflər verən həm tələbə, həm də dostlarıma, eləcə də İpəkyolu nəşriyyatının əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm.

Çalışmaq bizdən müvəffəqiyyət Allahdandır.

Dr. Rüfət Tacı oğlu Şirinov
BAKI 2022

# GİRİŞ
# ƏSAS MƏLUMATLAR

# GİRİŞ

Hökmlərin düzgün başa düşülməsində və analiz edilməsində ən əsas amil hədislərdir. Çünki hədislər həm hökmlərin təyin edilməsində ikinci əsas mənbədir, həm də Qurani-Kərimin başa düşülməsində ən əsas açardır. Bu məqsədlə hədislərin başa düşülməsi yönündə İslam tarixi boyunca müxtəlif cəhdlər edilmiş, nəticədə fərqli məzhəb, anlayış və məfkurələr formalaşmışdır.

Qərəzli yanaşmalar istisna olmaqla, bu fərqliliklərin İslam dininə zənginlik gətirdiyinə şübhə yoxdur. İxtilaf və fərqli yanaşmalar inkişafa təkan verən əsaslardır. "Əsil"-dən (Quran və sünnə cizgisi) uzaqlaşmadan edilən dəyərləndirmələr bir müddət sonra məzhəb və fiqhi məktəbləri formalaşdırmışdır. Bu mənada məzhəbləri tərəqqinin təbii nəticələri kimi görmək mümkündür. Odur ki, məzhəblər bir-birini təkzib və tənqid etməməli, əksinə anlayış və baxış bucağının fərqliliyinin təzahürü kimi qəbul edilməlidir. Onu da qeyd etmək lazımdır ki, zaman keçdikcə dəyişən anlayış və yeniliklərə xitab etmək üçün ümumbəşəri din olan İslam dini öz mövqeyini Quran və sünnə əsasında üzərinə qurulan ictihad müəssisəsi ilə bildirmiş və bundan sonra da bildirəcəkdir. Artıq on dörd əsrdən çoxdur ki, nə vəhy nazil olur, nə də yeni hədislər rəvayət olunur. Şübhəsiz ki, qiyamətə qədər də bu dəyişməyəcəkdir. Bu pəncərədən baxdıqda ictihad mütləqdir və ictihad etmək üçün də

fərqli baxış bucaqları danılmazdır. Hz. Peyğəmbərin (s.ə.s) *"Şübhəsiz ki, Uca Allah hər əsrin başında bu ümmətin dinini yeniləyən alim göndərəcəkdir"*[3] hədisinə bu prizmadan yanaşdıqda ictihadın və fərqli baxışların dini "məcburiyyət" olduğunu deyə bilərik.

Fərqli baxış və yanaşmalar dövrün, sosial həyatın, elmi səviyyənin, siyasi vəziyyətin, fərdi həyat tərzinin təsirinə görə formalaşır. Bu həqiqət hədislərə də öz təsirini göstərmişdir. Hətta eyni dövrdə və məkanda yaşayan insanlar arasında da fərqli anlayışların təzahür etməsi olduqca təbiidir.

---

3. Əbu Davud, "Sünən" 4291.

(إِنَّ اللَّهَ يَبْعَثُ لِهَذِهِ الأُمَّةِ عَلَى رَأْسِ كُلِّ مِائَةِ سَنَةٍ مَنْ يُجَدِّدُ لَهَا دِينَهَا)

# I. HƏDİS ELMİ İLƏ ƏLAQƏLİ BƏZİ MƏLUMATLAR

Əlinizdəki əsərdə məsələlər əsasən hədislərlə izah edildiyinə görə hədis elmindəki bəzi məqamların bilinməsi şərtdir. Əlbəttə ki, hədis elmi öz-özlüyündə çox geniş elm sahəsidir. Ancaq bəzi termin və mövzular ətraflı izah edilməlidir.

## A. Hədis üsulunda niyə fərqli anlayışlar var?

Bir məsələ barəsindəki fiqhi hökmün müəyyən edilməsi və ictihad edilməsində ən əsas amil hədislərdir. Bu baxımdan fiqh alimlərinin hədislərə baxışı və hədislərin etibarlılığını müəyyən etmədə istifadə etdikləri metodlar əhəmiyyətlidir.

Alimlərin bir məsələ barəsində fərqli fitva vermələrinin səbəbləri kimi dəlil olaraq istifadə etdiyi rəvayətlərin fərqli olmasını, hədisdəki əsas məğzinin müəyyən edilməsində baxış bucaqlarının və hədislərin etibarlılıq dərəcələrinin müəyyən edilməsindəki metodların fərqli olmasını göstərə bilərik. Hədislərin dərəcələndirməsində "nisbilik" anlayışı[4] da əsas rol oynayan amillərdən biridir. Odur ki, bir məsələ

---

4. Yəni bir alimə görə önəmli olan bir qüsur başqa alim üçün əhəmiyyətli olmaya bilər. Buna görə də birinə görə etibarlı ravi başqasına görə qüsurlu və rəvayət etdiyi hədis də zəif ola bilər. Məhz buna görə bəzi məsələlərdə seçimlər fərqli olduğuna görə nəticələr də fərqli olur.

barəsində fərqli hökm və ictihadların olması bu kimi fərqli anlayışlara bağlıdır.

Hədis üsulu mövzularında da fiqhi məktəblər arasında bəzi fərqliliklər olmuşdur. Hədisləri dərəcələndirmədə və digər xüsuslarda müəllifin bəyənib mənimsədiyi məzhəb görüşünün təsiri danılmazdır. Qeyd etmək istərdik ki, əlimizdə mövcud hədis üsulu (metodologiyası) əsərlərinin demək olar ki, əksəriyyəti Şafei məktəbinin fiqhi anlayışı çərçivəsində yazılmış əsərlərdir.

Burada bir nöqtəyə təmas etmək yerində olardı. Belə ki, əslində hədis üsulu və mövzuları fiqh üsulunun bir bölməsidir. Çünki fiqh üsulu, hökmlərin müəyyən edilməsində istifadə edilən dəlilləri tədqiq edən bir elmdir. Bu baxımdan hədislər də əsas dəlillərdən biri sayıldığına görə fiqh üsulunun mövzularından biridir. Ancaq ehtiyac və əhəmiyyətinə görə xüsusi fənn və tədqiqat sahəsinə çevrilmişdir. Hənəfi məktəbi mənsublarına məxsus metodologiyanın qeyd olunduğu müstəqil əsərlərin sonrakı dövrlərə təsadüf etməsinin əsas səbəbi məhz bundan ibarətdir. Yəni bu məktəbin hədis üsulu ilə əlaqəli tədqiqatları fiqh üsulu əsərlərində qeyd edilmişdir. Alimlər ehityaca görə onları xüsusi əsərlər şəklində formalaşdırmışdırlar.

Bu əsərin Hənəfi məktəbi çərçivəsində ələ alındığını nəzərə alaraq digər məktəblərdən fərqləndirən bəzi məsələlərinə təmas edilməsi qeyd olunan mövzuların düzgün analiz edilməsində əsas meyarlardan biridir. Əlbəttə ki, burada bütün hədis üsulu məsələlərinə təmas etmək qeyri-mümkündür.[5] Burada yalnız lazım görülən müştərək və fərqlənən bəzi mövzulara təmas ediləcəkdir.

5. Hənəfi məktəbi çərçivəsində yazılmış müasir və müstəqil əsər kimi Əbdülməcid Türkmaninin "əl-Mədxal ila usul əl-hədis alə mənhəc əl-Hənəfiyyə" əsərinə müraciət edilə bilər. Bu əsər Türkiyədə Semih Özdemir tərəfindən "Hanefi Hadis Usulüne Giriş" adı ilə tərcümə edilmiş və Tahkik yayınları tərəfindən nəşr edilmişdir.

### B. Səhih hədis və hökmü

Ədalət və zəbt sahibi ravilərin qopuq olmayan (müttəsil) sənədlə bir-birlərindən rəvayət etdikləri şəzz və illəli olmayan hədisə **səhih hədis** deyilir. Bu tərifi belə açıqlamaq olar:

a) Səhih hədislərin raviləri adil olmalıdır. Belə ki, hədisin sənəddəki ravilərinin hər biri müsəlman, həddi-büluğa çatmış, ağıllı, fasiq olmayan və şəxsiyyətli biridir.

b) Səhih hədislərin raviləri zəbt vəsfini daşımalıdır. Zəbt ravinin eşitdiyi hədisi aradan xeyli vaxt keçsə belə xatırlaya biləcək səviyyədə hafizəyə sahib olmasına deyilir. Bir ravinin zəbti etibarlı ravilərin rəvayətlərinə zidd olmamalıdır. Ədalət və zəbt vəsflərinə sahib olan ravilərə hədis elmində "siqə (etibarlı) ravi" deyilir.

c) Səhih hədisin sənədi müttəsil olmalıdır. Hz. Peyğəmbərdən (s.ə.s) başlayaraq son raviyə qədər, yəni hədisi ən son rəvayət edən şəxsə qədər kəsiksiz olması deməkdir. Əgər aradakı bir ravi qeyd edilməzsə hədis səhihlik vəsfini itirər.

d) Səhih hədis şəzz olmamalıdır. Yəni eyni dərəcədə səhih olan və yaxud daha səhih bir rəvayətə zidd olmamalıdır. Həmçinin səhih hədisi rəvayət edən ravi özündən güclü və ya eyni səviyyədə olan ravilərin rəvayətinə zidd hədis rəvayət etməyən biri olmalıdır.

e) Səhih hədis müəlləl olmamalıdır. İllə hədisin sağlamlığına xələl gətirən gizli qüsur deməkdir. Odur ki, səhih hədis zahirən səhih görünsə də, mütəxəssislər tərəfindən bilinən gizli qüsurlu olmamalıdır.[6]

6. Türkmani, "Hanefi Hadis Usulüne Giriş", s. 129-137.

Səhih hədisə (fiqhi məsələlərdə) əməl etmək vacibdir.[7] Şeyxan (Buxari və Müslim) tərəfindən rəvayət olunmasa belə, səhih hədislərə əməl etməyin vacib olduğu barəsində alimlər həmfikirdirlər. Bir müctəhidin dəlil kimi istifadə etdiyi hədis ona görə səhih hədisdir. Heç bir müctəhid bilərək səhih hədisləri tərk etməz və ondan qeyrisinə əməl etməz.

Hədisin sənədində yer alan ravilərdən birinin zəbtindəki qüsur səbəbi ilə səhih hədisin bir dərəcə altında hesab olunan hədis adlandırılan hədisin etibarlılığı səhih hədis dərəcəsindədir. Yəni bir məsələdə səhih hədis yox, həsən hədis varsa, ona da əməl etmək vacibdir.

### C. Zəif hədis və hökmü

Səhih və həsən hədisin yuxarıda qeyd olunan şərtlərindən birini və ya bir neçəsini daşımayan hədisə **zəif hədis** deyilir.

Zəif hədis bir neçə fərqli yollarla (təriqlərlə) rəvayət edilərsə, zəiflik dərəcəsindən həsən dərəcəsinə yüksələr. Ancaq ravilərdən biri və yaxud bir neçəsi fasiqlik və yalançılıq vəsfinə malik olmamalıdır.

Zəif hədisə əməl etmə məsələsi İslam aləmində olduğu kimi ölkəmizdə də aktuallığını mühafizə edən mövzulardan biridir. Bu mövzu ilk dövrlərdən etibarən mübahisə obyektinə çevrilmişdir. Həm fəqih, həm də hədis alimləri zəif hədisin dəyəri haqqında fikirlərini bəyan etmişlər. Önəmi qədər əhatəsi də geniş və dərin olan bu mövzu haqqında alimlərin rəy və dəlilləri belədir:

7. Hər səhih hədisə əməl etmək vacib deyil. Belə ki, bəzi mövzularda nəsx edilmiş və yaxud daha səhih hədisə müxalif hədislər var isə, bunlara əməl edilməz. Tirmizinin Mədinədə namazların cəm edildiyi ilə əlaqəli hədisi rəvayət etdikdən sonra "Bu rəvayətlə əməl olunmaz" -deməsi də bunu göstərir. (Bax. Türkmani, e.a.ə., s. 143). Ancaq bu məsələ sünnəyə əməl edilməməsi kimi başa düşülməməlidir.

*a. Qətiyyən əməl etmək olmaz.*

İstər halal və haramla, istərsə də əməllərin fəzilətləri ilə əlaqəli mövzularda zəif hədisə əməl etmək caiz deyil. Yəhya ibn Məin, Buxari, Müslim, Əbu Şamə,[8] Əbu Bəkr ibn əl-Ərəbi, İbn Həzm, Cəlaləddin əd-Dəvani kimi alimlər bu fikri müdafiə etmişlər.

Əbu Hənifə də zəif hədislə fiqhi məsələlərdə hökm vermənin doğru olmadığını, ancaq səhih və həsən hədislərə etibar edilməsini bildirmişdir.[9]

*b. Əməl etmək olar.*

Haram və halal xaricində müstəhəb və məkruh, gözəl əməllərə təşviq və pis əməllərdən uzaqlaşdırmaq (tərğib və tərhib) və s. mövzulardan hansında olursa olsun heç bir şərt qoşmadan zəif hədisə əməl etmək olar. Bu fikri mənimsəyənlər arasında Əbu Davud və Əhməd ibn Hənbəl kimi alimləri qeyd etmək olar. Bunlara görə zəif hədis rəydən daha üstündür.[10]

Əbu Hənifə və əshabı da əgər başqa rəvayət yoxdursa, zəif hədisin qiyas və rəydən daha dəyərli olduğunu qəbul edirlər. Məsələn Hənəfi məzhəbində dəstəmaz alarkən boyun nahiyəsinə məsh edilməsi,[11] dəstəmaz üzvlərini yu-

8. Məsələn Əbu Şamə İbn Əsakiri Rəcəb ayının fəziləti ilə əlaqəli üç zəif hədisi zəifliklərini qeyd etmədən rəvayət etdiyinə görə şiddətli şəkildə tənqid edərək belə demişdir: "Ancaq bu böyük hafiz bu babda fəzailül-əmal hədislərində təsahül göstərən bəzi əhli-hədisin adətlərini mənimsəmişdir. Halbuki bu hədisçilərin mühəqqiqləri ilə fiqh və fiqh üsulu üləmasına görə xətadır." (Təcridi-sərih tərcüməsi, I, 343)
9. Türkmani, e.a.ə., s. 171-174.
10. Qasimi, "Qəvaid ət-təhdis", Beyrut 1993, s. 116-117. Əhməd ibn Hənbəldən belə rəvayət edilir: "Əgər zəif hədisdən başqa hədis yoxdursa, o zaman ona əməl edilər." Başqa bir rəvayətdə də "Zəif hədis bizə görə şəxsi görüşdən daha dəyərlidir," - demişdir.
11. Əbu Davud, *"Sünən"* 135.

yarkən oxunan duaların müstəhəb qəbul edilməsi, azanın yavaş iqamənin sürətli oxunması[12] kimi məsələlər zəif hədislərlə müəyyən edilmişdir. Çünki burada əməllərin fəziləti nəzərdə tutulmuşdur.

*c. Bəzi şərtlər əsasında əməl etmək olar.*

Alimlərin əksəriyyəti isə fəzailə (əməllərin fəziləti) dair mövzularda zəif hədislər ilə əməl edilə biləcəyini söyləmişdir. Süfyan əs-Sövri, Əbdürrəhman ibn Mehdi, Əhməd ibn Hənbəl, İbn Əbi Hatim, Səxavi, Əli əl-Qari əl-Hənəfi kimi alimlər bu görüşü müdafiə edirlər. Bu fikri dəyərləndirən Hənəfi alimi Ləknəvi belə deyir: "Zəif hədislər ilə əməl etməyi qətiyyətlə qadağan edən fikir zəifdir. Heç bir şərt qoşmadan əməl etməyi caiz görənlərin görüşündə də qəbul edilməsi mümkün olmayan bir genişlik var. Əməl etməyi bəzi şərtlərə[13] bağlayan görüş isə məqsədə ən uyğun olanıdır. [14]

Mühəddislər, ümumiyyətlə zəif hədisi ikiyə ayırırlar:

---

12. Tirmizi, "Sünən" 195. Tirmizi bu hədisi rəvayət etdikdən sonra ravisinin məchul olduğunu və buna görə də zəif olduğunu qeyd etmişdir.
13. İbn Həcər əl-Əsqalaniyə görə, fəzail, tərğib və tərhib, eləcə də ədəb mövzularında zəif hədisə əməl edə bilmək üçün bu şərtlərə diqqət edilməlidir:

1. Hədis çox zəif olmamalıdır. Sənədində yalançı, yalanla ittiham edilmiş və çox xəta edən ravilərin olduğu hədislər, zəifliyi şiddətli olaraq qəbul edilir. Bu şərtlər barəsində alimlərin ittifaqı mövcuddur.

2. Mötəbər mənbə və dəlillərlə qoyulmuş bir hökm və qaydanın əhatəsində olmalı və yeni bir hökm ortaya qoymamalıdır.

3. Belə bir hədislə əməl edərkən Peyğəmbərimizə (s.ə.s) aid olduğuna ehtiyatla yanaşmaq lazımdır. Yəni Peyğəmbərə (s.ə.s) aid olması ehtimaldır. (Türkmani, e.a.ə, s. 168)

14. Ləknəvi, e.a.ə. s., 53.

**Birincisi** zəifliyi şiddətli olanlardır. Bunlar yalançı, yalanla ittiham edilmiş olanlar və çox xəta edən ravilərin rəvayət etdiyi hədislər ilə şəzz[15] olan hədislərdir.

**İkincisi** də zəifliyi şiddətli olmayan hədislərdir. Bunlar ravisi doğruluq və ədalət sifəti ilə tövsif edilmiş olmaqla yanaşı, "məstur", "seyyiül-hifz", "müxtəlit"[16] olan hədislərlə, irsal, tədlis, inqita kimi sənəddəki qopuqluğu səbəbilə zəif qəbul edilən hədislərdir.[17]

Yuxarıda da qeyd etdiyimiz kimi zəifliyi şiddətli olmayan hədislər, bir-birini gücləndirərək həsən-ligeyrihi dərəcəsini qazanıb əməl edilməyə əlverişli hala gələ bilər. Ancaq zəifliyi şiddətli olan hədislər isə, bir çox sənədi bir araya cəm edilsə belə yenə də zəiflikdən qurtulmaz.

### D. Bir hədisin səhih sayılması üçün əsər adı kifayətdir?

Hədislərin səhih, zəif və yaxud da uydurma olması əsərlər əsasında dəyərləndirilmir. Tarix boyunca hədislər müəyyən şərtlər əsasında incələnmiş və dərəcələndirilmişdir. Hədis barəsində hökm verilərkən sənəddəki ravilər tək-tək incələnir, mətnin də Qurana, səhih hədislərə, dəqiq elmi həqiqətlərə uyğun olub-olmadığı tədqiq edilir və sonra hökm verilir. Odur ki, hədis barəsində hökm verilərkən hər hansı mötəbər kitabda yer alması şərti qoşulmamışdır.

Çox vaxt hədislər "**Bu hədis Kütübi-sittədə varmı?**" və ya "**Bu hədis Buxarinin kitabında keçirmi**?", yaxud da "**Müslimin kitabında varmı**?" cümlələri ilə araşdırılır. Bu kimi suallar əslində səhih hədislərin yalnız

---

15. Rəvayət yönündən tək qalmış hədisdir.
16. **Məstur**, yəni bəlli olmayan. **Seyyiül-hifz**, yəni hafizəsi zəif. **Müxtəlit**, yəni ömrünün sonuna doğru unutqanlığa düçar qalan.
17. Mahmut Yeşil, "Vaz Edebiyatında Hadis", Ankara 2001, s. 176.

"Kütübi-sittə"də və ya Buxari və Müslimin "əl-Camius-səhih"lərində olduğu, bunlardan kənarda qalan hədis kitablarındakı hədislərə etibar edilmədiyi fikrindən qaynaqlanır. Bu, bir çoxlarının hər şeyi Qurani-Kərimdə axtarmasına bənzəyir. Kifayət qədər dini savadı olmayanlara hər hansı bir dini əsas xatırladıldıqda dərhal "**Bu, Quranda varmı**?" deyərək etiraz mənasına gələn sual verirlər. Hər şeyi Quranda axtarmaq yanlış olduğu kimi hədis adı ilə eşidilən hər sözü də mütləq surətdə Buxari və Müslimin əsərlərində və ya Kütübi-sittədə tapmağa çalışmaq da ən azı o qədər yanlışdır. Etibar olunacaq hər hədisin mütləq Buxari və Müslimdə olmasına inanmaq düşüncəsindən vaz keçmək lazımdır. Çünki Buxari də, Müslim də kitablarını bütün səhih hədisləri cəm etmək məqsədi ilə qələmə almayıblar. Kitablarında qeyd etdikləri hədislərin özlərinə görə "səhih" olmasına diqqət etmiş, lakin bütün səhihləri cəm etmək kimi məqsəd və hədəfləri olmamışdır.

Buxari və Müslim, hətta Kütübi-sittədən başqa qalan digər hədis kitablarında da səhih hədislər yer alır. Bu da bir gerçəkdir ki, Buxari və Müslimin hər ikisinin kitabına qəbul etdiyi (müttəfəqun əleyh) hədislər ən güclü səhih hədis qəbul edilmişdir.

### E. Şərhsiz hədis oxumaq olar?

Qurani-Kərimi və İslam dinini Sünnəyə müraciət etmədən anlamaq və yaşamaq nə qədər mümkündürsə, şərhlərə də müraciət etmədən hədis oxumaq, anlamaq və izah etmək o qədər mümkündür. Bir çox yerdə insan öz anlayışının kifayətsizliyi səbəbi ilə çətinliyə düşə bilər. Bu səbəbdən qısa da olsa şərhli əsərlərdən hədis oxumaq yanlış anlama və yanaşmaların aradan qalxmasına köməklik göstərir. Odur ki, kamil müsəlman olmağın yolu Quranı və İslamı sünnədəki izahlarla anlayıb yaşamaqla mümkündür.

## II. MÖVZU İLƏ ƏLAQƏLİ ƏSAS MƏLUMATLAR

Əlinizdəki əsərin əsas məqsədinin Hənəfi məktəbinin namazla əlaqəli dəlil kimi istifadə etdikləri hədisləri qeyd etməkdən ibarət olduğunu nəzərə alsaq, bəzi məfkurə və anlayışlardan xəbərdar olmaq qaçılmazdır. Bu məqsədlə burada əsas məğzimizdən kənarlaşmadan İslam elm tarixində formalaşmış bəzi məfhumlar (əhli-hədis, əhli-rəy) və Əbu Hənifənin hədis bilgisi və onun haqqındakı bəzi iddialara təmas ediləcəkdir.

### A. "Əhli-hədis" və "Əhli-rəy" məktəbləri

Hz. Peyğəmbərin (s.ə.s) tələbələri sayılan səhabə dövrünə nəzər yetirdikdə onların arasında da hədislərin fərqli anlaşıldığı nəzərə çarpır. Səhabələrdən bir qismi "nəss" -ayə və hədislərə- zahiri, yəni göründüyü şəkli ilə yanaşmaqda, bəziləri də nəslərin əsas məqsədlərini nəzərə alaraq yanaşırlar. Məsələn, zahiri baxışın ən açıq təzahürünü Abdullah ibn Ömərin həyatında görə bilərik. Belə ki, o Məkkəyə gedərkən miniyinin ayaq izlərinin Hz. Peyğəmbərin (s.ə.s) miniyinin ayaq izlərinə təsadüf etməsi ümidi ilə eyni yoldan getmiş,[18] həmçinin Hz. Peyğəmbərin (s.ə.s) etdiyi hərəkət və davranışı təkrarlamaq üçün onun fasilə verib dincəldiyi yerdə sorğu-sualsız dayanmışdır.[19] Hz. Aişənin sünnə olmadığını bildirməsinə baxmayaraq,[20] Hz.

18. Əbu Nuaym, "Hilyə əl-Övliya", c. 1, s. 310.
19. Şövkani, "Neyl əl-övtar", c. 1, s. 107.
20. Müslim, "Səhih" 339.

Peyğəmbər (s.ə.s) Məkkədən Mədinəyə qayıdarkən "**Əbdah**" deyilən yerdə istirahət etdiyinə görə İbn Ömər də, orada istirahət etməyi özünə borc bilmişdir.[21]

Səhabə nəsli arasında rəvayətlərə fiqhi baxımdan, yəni hədisdəki məqsədin nə olduğunu başa düşməyə çalışaraq yanaşanlar da vardır. Bu qrupda fiqhi qavrayışı güclü olan səhabələrin yer aldığını müşahidə edirik. Bunların arasında dörd xəlifənin hamısını, eləcə də Abdullah ibn Məsud, Abdullah ibn Abbas və Hz. Aişə kimi səhabələri görmək mümkündür. Hər iki anlayışın var olduğunu göstərən bir rəvayətlə məsələni belə aydınlaşdıra bilərik. Əhzab günü Hz. Peyğəmbər (s.ə.s) əshabını yəhudilərdən Qüreyzə oğullarının yanına göndərdi. Onlara "hamı əsr namazını Qüreyzə oğullarının yurdunda qılsın!" - dedi. Yolda ikən namazın vaxtı yetişdi. Səhabələrdən bir qismi "biz Qüreyzə oğullarının yurduna çatmadan namazı qılmayacağıq. Vaxtı keçsə də, Rəsulullahın dediyini yerinə yetirəcəyik"- dedilər. Digərlər isə namazın vaxtının keçməsindən qorxdu və: "Biz namazı qılırıq. Çünki Rəsulullah (s.ə.s) namazı tərgitməyi deyil əksinə oraya tez getməyimizi nəzərdə tutmuşdur" - deyərək namazı qıldılar. Sonra məsələ Hz. Peyğəmbərə (s.ə.s) xəbər verildi, o da heç birini ayıblamadı.[22] Bu qruplardan birincisi hədisin zahirinə görə digəri isə məqsədinə görə hərəkət etmişdir. Yəni ləfzi yox mənanı nəzərə almışlar.[23]

İslam təfəkkür tarixində ilk qrupun fikirlərini mənimsəyənlər "əhli-hədis", ikinci görüş mənsublarını özlərinə rəhbər tutanlar isə "əhli-rəy" olaraq adlandırılmışdır. Sə-

21. Müslim, "Səhih" 338.
22. Buxari, "Səhih" 904.
23. Bu mövzuda geniş məlumat üçün Bünyamin Erulun hazırladığı "Sahabenin Sünnet Anlayışı" əsərinə müraciət edilə bilər. Ankara TDV yayınları 1999.

habə dövründə mütəşəkkil bir məktəb formasını aldığını söyləmək çətin olsa da, sonrakı dövrlərdə, demək olar ki hicrətin ikinci əsrindən etibarən hicazlılara (Mədinə əhlinə) "əhli-hədis", iraqlılara isə "əhli-rəy" deyilmişdir.

"Əhli-hədis" və "Əhli-rəy" məktəblərini bir-birindən ayıran ən əsas amil nəsləri başa düşmək və izah etmək üçün istifadə etdikləri metodların fərqliliyidir. Hər iki anlayışa görə hədislər ən əsas mənbədir. Odur ki, bu iki məktəbin formalaşmasında rəvayətlərin qəbul və yaxud rədd edilməsi deyil, mövcud olan rəvayətlərin necə başa düşülməsi və dəyərləndirilməsidir.

Hərçənd ki, hər iki qrup mənsubları dini düzgün anlamaq üçün səy göstərmişlər, lakin - tarixi mənbələrə nəzər yetirdikdə - bir-birini tənqid, təəssüf ki, bəzən də lənət oxuduqları görünür. Qazı İyazın rəvayət etdiyinə görə, Əhməd ibn Hənbəl belə demişdir: "İmam Şafei gəlib aramızı barışdırana qədər biz rəy əhlinə lənət oxuyardıq"[24]. Orta yolu izləyən İmam Şafeinin səyləri nəticəsində bu iki qrup bir-birinə tolerantlı yanaşmağa başladı və fərqliliyin qaçılmaz olduğunu qəbul etdilər. "**Rəvayətsiz rəy, rəysiz də rəvayət doğru olmaz**"[25] ifadəsi də bu yaxınlaşmanın faydalı olacağını qəbul edən anlayışın nümayişidir.

### 1. Kimlərə "Əhli-hədis" deyilir?

Fikir və görüşlərin əksəriyyətini hədislərə nisbət edən, rəy əhlinə qarşı mübarizə aparan, şərh və qiyasa müraciət etmədən təkcə Quran və hədislərə əsaslanan fiqh anlayışı və düşüncəsi formalaşdırmaq istəyənlərə "əhli-hədis" deyilmişdir. Hicrətin ikinci əsrində formalaşan və mərkəzi Mədinə sayılan fiqh məktəbidir.

24. Qazı İyaz, "Tərtib əl-mədarik və təqrib əl-məsalik", Beyrut 1965, c. 1, s. 95-96.
25. Əbu Nüeym, "Hilyə əl-övliya", Beyrut 1387, c. 4, s. 225.

Ümumiyyətlə, kimin əhli-hədis, kimin əhli-rəy olduğu məsələsi hər dövrdə mübahisə edilən məsələ olmuşdur. Əhli-hədis sayılanlardan hökm əldə edərkən ictihad edən və rəyə müraciət edənlər olduğu kimi, əhli-rəydən sayıldığı halda hədis sahəsində geniş elmə malik, hətta hədis elmində müctəhid səviyyəsində olan alimlər də vardır. Odur ki, bu ayırımı dəqiqliklə aparmaq mümkün olmadığı kimi, buna ehtiyac da yoxdur. Ancaq ümumi qəbula görə Hənbəli, Zahiri, Şafei və Maliki məzhəblərinin görüşləri "əhli-hədis" anlayışı çərçivəsində formalaşmışdır. Eyni zamanda İmam Müslim, İmam Buxari kimi alimlər də əhli-hədisin təmsilçiləri arasında sayılmışlar.[26]

Zahiri anlayışı əsas götürənlər dəlillərdəki mənbələrə məntiqi izahlar gətirməyi münasib görmədiklərinə görə tənqidə məruz qalmışlar. Hz. Ömərin Mədinə xaricinə göndərdiyi bəzi səhabələrə az hədis rəvayət etməsini tövsiyə etməsindəki əsas məqsəd anlamadan hədis rəvayətindən çəkindirmək və mənasına bələd olmadan hədis rəvayətinin törədə biləcəyi fəsadı aradana qaldırmaq olmuşdur.

Əhli-hədis sənəd və mətn şəklində hədisləri rəvayət etməyi elm qəbul edir, lakin hədisləri tədqiq etməyi və başa düşmək üçün səy göstərməyi elm kimi görmürlər. Hətta hədisləri məqsədinə müvafiq başa düşmək üçün düşünməyi və ağıldan istifadə edərək izahlar gətirməyi hədislərə qarşı çıxmaq və rədd etmək kimi görürlər.[27]

Xülasə, ilk dövrlərdə əsasən hədislərin sadəcə rəvayət edilməsinə önəm verilmiş, fəqət o rəvayətlərin məqsədlərini anlamaq üçün səy göstərilməmişdir. Hədislərə əməl etmək üçün o sözün Hz. Peyğəmbərdən (s.ə.s) rəvayət edilməsi kifayət görülmüşdür. Ayrıca hikmət, illə və səbəb axtarmağa ehtiyac hiss edilməmişdir.

---

26. Aydınlı, Abdullah, "Ehl-i hadis", DİA, İstanbul 1994, c. 10, s. 507.
27. Uyar Ahmet, "Hadisleri/sünnetleri anlamada farklı yaklaşımlar", Bilimname məcmuəsi, 2004/2, s. 33.

Onu da qeyd etmək lazımdır ki, sonrakı dövrlərə nəzər yetirdikdə “əhli-hədis”in fiqhi məsələlərdə rəy və qiyasa müraciət etdikləri nəzərə çarpır.[28] Əlbəttə ki, “əhli-rəy”in də rəylərini hədislərlə əsaslandırdıqlarını unutmamaq lazımdır.

**2. Kimlərə “Əhli-rəy” deyilir?**

Leksik mənası “şəxsi fikir və görüş” olan “rəy” kəlməsi fiqh ədəbiyyatında “bir müctəhidin açıq nəs olmayan məsələdə müəyyən metodlar əsasında əldə etdiyi nəticə, şəxsi fikir” mənasında işlədilmişdir. Rəy tərəfdarları mənasına gələn “əhli-rəy” səhabə dövründən etibarən başlayan və hicrətin ikinci ilində İraq bölgəsində təşəkkül edən fiqhi məktəbin adı olmuşdur. Bu mənada Kufədə ərsəyə gələn Hənəfi məzhəbi “əhli-rəy” olaraq qəbul edilmişdir.

İslam ədəbiyyatında rəy “məqbul” (qəbul edilən) və “mərdud” (qəbul edilməyən) şəklində ikiyə bölünmüşdür. Şəxsi mənfəət və arzular əsasında formalaşan rəy mərdud, səhabə, tabeun və ətbaut-tabeindən olan fəqihlərin metoduna müvafiq müəyyənləşən rəy isə məqbul sayılmışdır.[29]

Məlum olduğu kimi Hz. Peyğəmbər (s.ə.s) vəfat etdikdən sonra İslam coğrafiyası gündən-günə genişlənirdi. Nəticədə fərqli bölgələrdə müxtəlif məsələlərlə qarşılaşan səhabə və İslam alimləri şəriətin əsas mənbələrinə (Quran və Sünnə) sadiq qalmaqla müxtəlif fikirlər bəyan edərək ictihad etmiş və məsələlərə aydınlıq gətirmişlər. Məhz bunun təbii nəticəsi kimi də rəy anlayışı formalaşmışdır. Təkrar qeyd etmək istərdik ki, bu rəy Quran və Sünnəyə əsaslanmalıdır. Bunu da unutmayaq ki, rəy olmadan fiqh

28. Öğüt, Salim, “Ehl-i hadis”, DİA, İstanbul 1994, c. 10, s. 512.
29. Apaydın, H. Yunus, “Nasları anlamada yetki ve yönetim sorunu”, Marife dərgisi 2002, s. 10-12.

elmi olmaz. Çünki fiqhin əsas vəzifəsi dinin əsas mənbələri çərçivəsində hökmlər qoymaqdır. Bunun üçün də rəy və qiyas, yəni ictihad fəaliyyəti mütləqdir.

Tarixi bir həqiqətdir ki, rəyin formalaşdığı İraq bölgəsi müxtəlif mədəniyyətlərin cəmləşdiyi bir bölgə idi. Məhz buna görə İslam alimləri yeni məsələlərlə üzləşirdi. Hicaz bölgəsində hədis bilənlərin çox olması və qarşılaşılan məsələlərə hədislərlə bildirilən münasibətin kifayət etməsi rəyə ehtiyac hiss etdirməmişdir. Ancaq İraq, yəni "əhli-rəy"in formalaşdığı bölgədə isə mövcud olan rəvayətlərin yeni məsələlərin həllinə cavab verməməsi rəy və qiyasın formalaşmasına təkan vermişdir. Ancaq bu anlayış bir müddət sonra əhli-hədis tərəfindən rəy naminə hədislərin tərk edilməsi kimi başa düşülmüş və haqsız tənqidlərin hədəfinə çevrilmişdir. Hətta rəy əhli olan ravilər məhz bu xüsusiyyətlərinə görə cərh edilərək tənqid edilmişdir.

Burada əhli-rəyin hədislər baxışının önəmli məsələlərindən birinə diqqət cəlb etmək istərdik. Əhli-rəy məktəbinin hədislərə baxışını düzgün analiz etmək üçün ən əhəmiyyətli məsələlərdən biri də "mənəvi inqita" məsələsidir. Belə ki, əhli-rəy məktəbinin düşüncə sistemini, yəni nəsləri anlama və onun barəsində fikirlər irəli sürmə (təvil) metodologiyasını meydana gətirən ən əsas amillərdən biri ondan ibarətdir ki, onlar hədisin sənədi (sübutu) ilə yanaşı, onun mətnini (dəlalətini) də tədqiq edib lazımi tənqidlər irəli sürmüşlər. Belə ki, əhli-rəy məktəbinə görə, bir hədisin sənədindəki ravilərlə bağlı olan qopuqluqdan irəli gələn zəifliyi qədər, hətta ondan daha mühüm onun mətnindəki məna qopuqluğudur.[30] Onlar buna "mənəvi/batini inqita" adını vermişlər. Onların fikrincə, xəbəri-vahid olan bir hədisdə mənəvi inqitanın olmaması ona əməl

30. Bu məsələ barəsində ətraflı məlumat: Qurbanov Anar, "Fiqh düşüncəsinin inkişafında "Əhli-rəy" məktəbi" (Nəşr olunmamış məqalə), s. 6.

etməyin ən mühüm şərtlərindəndir. Odur ki, mənəvi inqita hədisin istinadının müttəsil və sağlam olmasına baxmayaraq, müxtəlif mülahizələrlə o hədisdə gizli bir illət olduğunu qəbul edərək həmin hədisdən dəlil kimi istifadə etməkdən imtina etməkdir. Yəni, hədisin isnadının səhih olmasına rəğmən daha da dərin bir araşdırma nəticəsində həmin hədisdə gizli bir qüsurun olduğu və onda mənən bir qopuqluq olduğu qərarına gəlinərək ondan imtina etmək mənasına gəlir.[31]

Mənəvi inqita ya hədisi nəql edən ravidəki bir qüsur və yaxud hədisin açıq-aydın (sərih) bir şəkildə, ya da dolayı yolla (dəlalətən) zidd olmasından (müariz) irəli gəlir. Sərih müariz xəbəri-vahid olan bir hədisin Qurana və yaxud mütəvatir və ya məşhur Sünnəyə zidd olması, dəlalətən müariz olan xəbəri-vahid isə bir hədisin ümumi-bəlvada[32] varid olması və yaxud mübahisə obyekti olan bir məsələ olmasına baxmayaraq, səhabələr tərəfindən istifadə edilməməsidir. Xəbəri-vahidin Qurana ərz edilməsi və Qurana zidd olan hədislərə əməl edilməməsi ilə bağlı səhabələrin bəzi tətbiqatları olmaqla yanaşı, bu düşüncəni əhli-rəy məktəbi əsaslı bir şəkildə sistemləşdirmişdir. Onlar bilavasitə Qurana zidd olması ilə yanaşı, "amm", yəni ümumi olan ləfzləri təxsis edən, yəni xüsusiləşdirən və nəssə ziyadə mənası daşıyan xəbəri-vahidə də əməl etməmişlər. Çünki zənni bir dəlil olan xəbəri-vahidin qəti bir dəlil olan Quranın ammını təxsis etməsinin və ya ona hər hansı bir ziyadəsinin qeyri-mümkün olduğu anlayışı mənimsənmişdir.[33]

---

31. Erdoğan, Mehmet, "Batıni İnkıta", Marmara Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı: 4, İstanbul 1986, s. 415-427
32. İnsanların əksəriyyətinin bilməli olduğu məsələlər (Erdoğan, Fıkıh ve Hukuk Terimleri Sözlüğü, s. 471)
33. Apaydın "Bir Muhafazakar Reycilik Teorisyeni: Ebu Hanife", İslami Araştırmalar Dergisi, cilt: 15, sayı: 12, 2002, 143-1472017, 51.

Xülasə, hər iki məktəbin əsaslarına nəzər yetirdirkdə görürük ki, əhli-hədis rəy əsasında fitva verməkdən çəkinmiş, Quran və sünnədə açıq-aydın bəyan edilməyən məsələlərdə fikir bildirməmişlər. Ancaq rəy əhli ən incə məqamlarda belə fikir bildirməkdən, fitva verməkdən çəkinməmişlər. Əhli-hədis əsasən hədis rəvayətinə, hədis əzbərləməyə üstünlük vermiş, əhli-rəy isə rəvayətdən çox dirayətə, rəvayətlərin məğzini dərk etməyə əhəmiyyət vermişlər. "Əhli-hədis" təkcə olmuş hadisələr haqqında fikir bəyan edir, əhli-rəyə mənsub fəqihlər isə olmamış hadisələr barəsində də fikir bəyan etmişlər.

Hər iki məktəb hədislərdən istifadə etmişdir. Fəqət hədisləri dəyərləndirmə metodları bir-birindən fərqlidir. Hədislərdən uzaq kimi görünən və anlaşılan "əhli-rəy"in metoduna nəzər yetirsək görərik ki, rəylərinə zidd səhih bir hədisə təsadüf etsələr, o hədisi əsas almış, rəydən imtina etmişdirlər. Heç bir rəy əhli səhih hədis olan mövzuda öz rəyinə əməl etməmişdir. Hətta səhabə ictihadı olan məsələlərdə belə qiyası tərk etmiş, səhabə ictihadını əsas alaraq ona görə hökm vermişlər.

## B. Əbu Hənifənin hədis sahəsi üzrə biliyi

Bu kitabın əsas məzmunu Hənəfi məzhəbinin namaz üçün istifadə etdiyi dəlilləri incələmək olduğuna görə, Əbu Hənifəyə ünvanlanan tənqidlərdən xəbərdar olmaq, əsas mövzunun düzgün başa düşülməsi üçün zəruridir. Odur ki, bu bölmədə tənqidlərin əsas məzmununa və xüsusilə də, hədis bilməməsi ilə əlaqəli tənqidlərin necə izah edildiyinə nəzər yetiriləcəkdir.

Əvvəlki bölmədə əhli-hədis və əhli-rəy ilə əlaqəli müəyyən məlumatlar qeyd edildi və məlum oldu ki, Əbu Hənifə əhli-rəyin təmsilçilərindən biridir. Ancaq mövzuya bir az da geniş aspektdən nəzər yetirdikdə görürük ki, əslində tarix boyunca əhli-rəyə ünvanlanan tənqidlərin əsas hədəfi elə məhz Əbu Hənifə olmuşdur. Bəziləri onun fikirlərini qəbul edib müdafiə edərkən, bəziləri də ona müxalifət edərək tənqid etmişdir. Ona ünvanlanan tənqidlər hər dövrdə olduğu kimi bugündən sonra da davam edəcəkdir. Fəqət əsas məsələnin nədən ibarət olduğunu, niyə alimlərin bir-birini tənqid etdiklərini, hətta ittiham etdiklərini bilmək məsələyə geniş aspektdən baxmağa köməklik edən məqamlardır.

### 1. Əbu Hənifəyə ünvanlanan tənqidlərin ümumi məzmunu

Əvvəla qeyd etmək istərdik ki, Əbu Hənifə Abdullah ibn Məsud başda olmaqla, Səd ibn Əbu Vəqqas, Hüzeyfə ibn Yəman, Əbu Musa əl-Əşəri, Əmmar ibn Yasir, Salman əl-Farisi kimi səhabələrin elmi mirasından və elm sahəsindəki dəsti-xəttindən faydalanmışdır. Əbu Hənifə, dəlillərə yanaşması, hadisələri analiz etməsi, fikir və ictihadları ilə həm yaşadığı dövrdə, həm də sonrakı dövrlərdə insanların diqqətini cəlb etmişdir. Bu baxımdan tarix boyunca onun lehində və əleyhində fikirlər səsləndirilmişdir. Ələlxüsus

yaşadığı dövrdə əhli-hədis tərəfindən tənqid edilmişdir. Kimi hədis sahəsində zəif olduğunu ifadə etmiş, kimi hədisləri tərk edərək qiyası əsas qəbul etdiyini iddia etmiş, bəziləri də çox az səhih hədis bildiyini iddia edərək haqsız tənqidlər ünvanlamışdır. Hətta deyə bilərik ki, müctəhid alimlər arasında Əbu Hənifə qədər tənqidə məruz qalan başqa bir alim yoxdur. Əbu Hənifəyə ünvanlanan bu haqsız ittihamlara müxtəlif dövrlərdə çoxlu əsərlər yazılaraq cavablar verilmişdir.[34] Məhz buna görə də, təkcə hədislə əlaqəli əsas iddialara cavab vermənin düzgün olacağını düşünürük. Ancaq yenə də digər sahədəki iddiaların əsas məzmununun nə olduğuna qısa təmas etmək istərdik. Belə ki, əvvəla ona ünvanlanan tənqidlərin haqsız ittihamlardan ibarət olduğunu söyləyən Maliki məzhəbinin nüfuzlu alimlərindən İbn Əbdülbərrin ifadəsinə yer verərək başlamaq istərdik. O "Camiu bəyan əl-ilm" əsərində belə demişdir: "Əhli-hədis Əbu Hənifəyə ünvanladıqları tənqidlərdə həddi aşdılar. Onlara görə bunun səbəbi Əbu Hənifənin rəy və qiyası rəvayətlərdən dəyərli görməsidir".[35] O ifadələrinə belə davam edir: "Ona tabe olub tərifləyənlər, onu tənqid edənlərdən çoxdur. Onu tənqid edənlərin bir digər iddiası da onun Mürciə[36] məzhəbinə mənsub olduğudur[37]".

---

34. Bu əsərlərin bəziləri belədir: Muhyiddin Əbdülqadir əl-Qüreşi, "əd-Durər əl-munifə fir-rəddi alə İbn Əbi Şeybə anil-imam Əbi Hənifə"; Qasım Qutluboğa, "əl-Əcvibə ən itirazatil İbn Əbi Şeybə alə Əbi Hənifə"; Zahid əl-Kövsəri, "ən-Nükət ət-tərifə fit-təhaddüsi ən rududi İbn Əbi Şeybə alə Əbi Hənifə"; həmçinin eyni müəllifin "Tənib əl-Xətib" adlı əsəri də Xətib əl-Bağdadinin Əbu Hənifəyə ünvanladığı tənqidlərə verilən elmi cavablardan ibarət dəyərli bir əsərdir.
35. İbn Əbdülbərr, "Camiu bəyan əl-ilm və fadlihi", Mədinə 1986, c. 2, s. 181.
36. Başda Hz. Osman və Hz. Əli olmaqla bütün böyük günah işləyənlərin aqibətini Allaha həvalə edərək cənnətlik və yaxud cəhənnəmlik olduqları barəsində fikir bildirməyənlərə verilən addır. (Kutlu, "Türklerin İslamlaşma Sürecinde Mürcie ve Tesiri", s. 39.
37. İbn Əbdülbərr, e.a.ə, c. 2, s. 183.

Bu adın qoyulmasında həmin dövrdə mövcud olan siyasi amillərin böyük təsiri olduğu görünür. (Bu dövrdə İraq bölgəsində əqidə sahəsində mötəzilə görüşlərinin əsas alındığı nəzərə çarpır). Hakimiyyətlə eyni görüşü paylaşmayan və onları dəstəkləməyənlərə cəmiyyətdən təcrid etmək üçün belə adlar nisbət edilirdi. Təkcə rəvayətlə məşğul olan və etiqadi rəvayətlərə izah gətirməkdən çəkinən "əhli-hədis" nümayəndələri arasında "təcsim" (Allaha cisim nisbət etmə) fikrini mənimsəyənlərin də olduğunu nəzərə aldıqda, Əbu Hənifəyə ünvanlanan tənqid və etirazların səbəbləri aydın olur.

Bu iddiadan başqa ona "Quranın məxluq olduğu", "cənnət və cəhənnəmin sonsuz olmadığı" kimi fikirlər nisbət edilərək təkfir edildiyi müşahidə edilir. Bu iddiaların hər birini Zahid əl-Kövsəri "Tənibu əl-Xətib" adlı əsərində elmi əsaslarla cavablandırmışdır.[38]

### 2. Əbu Hənifənin hədis bilmədiyinə dair iddialar

Tarix boyu Əbu Hənifə hədis elmi sahəsindəki biliyi və hədisə əməl etmə məsələsində tənqidə məruz qalmışdır. Onun haqqında "*hədis sahəsində savadı çox azdır, rəvayət etdiyi səhih hədislərin sayı on yeddi və yaxud da qırx dənədir, hədisdə zəif və yetimdir*" kimi tənqidedici ifadələrdən istifadə edilmişdir.[39]

Əbu Hənifəyə hədislə əlaqəli ünvanlanan tənqidlər hicrətin dörd və beşinci əsrindən etibarən cavablandırılmış

38. Məhəmməd Zahid əl-Kövsəri, "Tənibu əl-Xətib", (türk dilinə tərcümə edən Süleyman Tekin) Tahkik Yayınları, İstanbul 2020.
39. Bu bölmənin hazırlanmasında Prof. Dr. Zekeriya Gülerin "İmam Ebu Hanifenin Hadis İlminde Zayıf Olduğu İddiasının Tahlili" (İmam Azam Ebu Hanife ve Düşünce Sistemi Simpozyumu, KURAV Yayınları Bursa 2005, c. 2, s. 325-333) məqaləsindən istifadə edilmişdir. Onun haqqında istifadə edilən söz və ifadələr üçün bax., İbn Ədiy, "əl-Kamil", VIII, 235-246; Xətib, "Tarixu Bağdad", XIII, 415-420.

və bu mövzuda əsərlər qələmə alınmışdır. Əsər qələmə alanlardan İbn Əbdülbərr, Heytəmi, İnayətullah İblağ, Əbu Zəhra və Zahid əl-Kövsəri kimi alimləri burada qeyd edə bilərik.

Əbu Hənifəyə hədis elmi çərçivəsində ünvanlanan tənqidlər əsasən iki şəkildə formalaşmışdır:

**Birincisi** hədis biliyinin az olduğu, hədis elmində etibarlı olmadığı, hafizəsinin zəif olduğu məsələsidir.

**İkincisi** isə, hədislərə əməl etmə məsələsində səhlənkar davrandığı, rəydən çox istifadə edərək hədislərə əhəmiyyət vermədiyi, hətta müxalifət etdiyidir.

Əbu Hənifənin yaşadığı dövr hədis uydurma fəaliyyətlərinin çoxaldığı dövrə təsadüf edir. Buna görə də o, hədis rəvayətinə çox maraq göstərməmiş və əsərlərində hədislərdən istifadə edərkən dəqiq və ehtiyatlı yanaşmışdır.

Hədis elmi çərçivəsində Əbu Hənifəyə ünvanlanan tənqidlər belədir:

Tarixçi İbn Səd:

- "**Əbu Hənifə hədisdə zəifdir və o rəy sahibidir**,"[40]- demişdir.

Hədis alimi Nəsai:

- "**Əbu Hənifə hədisdə güclü deyil**,"[41]- deyərək mahiyyəti izah edilməyən və aydın olmayan cərh ifadəsindən istifadə etmişdir.

Əbu Hənifəni ən çox tənqid edən hədisşünaslardan biri də Əbu Cəfər Məhəmməd əl-Uqaylidir. O, Əbu Hənifənin əleyhinə bütün cərh terminlərindən istifadə etmiş-

40. İbn Səd, "ət-Təbəqat", VI, 368-369; VII, 321.
41. Nəsai, "Kitab əz-züafa vəl-mətrukin", (thk, Mahmud İbrahim Zayəd), Beyrut, 1986, s. 240; Xətib, e.a.ə, XIII, 421.

dir. Əbu Hənifə haqqında qeyd etdiyi altı səhifəlik məlumatda onun lehinə heç bir məlumat verməmişdir. Onun əsərini təhqiq edib nəşr edən alim Qalaçı bu davranışını tənqid etmiş və on iki səhifəlik rəddiyyə yazaraq onu mötədil olmağa dəvət etmişdir.

Əbu Hənifəni tənqid edənlərdən biri də İbn Ədiydir.[42] O belə bir izah vermişdir:

- "**Əbu Hənifənin səhih hədisləri də vardır. Onun rəvayət etdiklərinin əksəriyyətində "qələt" (xəta), mətn, ravi və sənədlərində "təshif"[43] və əlavələr vardır. Əbu Hənifənin rəvayət etdiklərinin əksəriyyəti belədir. Onun rəvayət etdiklərindən sadəcə on hədis səhihdir. Əbu Hənifə əhli-hədisdən deyildir**".[44]

Əndəlüslü alim İbn Həzm[45] Əbu Hənifə haqqında "**hədisi çox az olan**" (əqallətul-hədis) ifadəsini işlətmişdir. Həmçinin o, fiqhi mübahisələrdə:

- "**Bu məsələdə Əbu Hənifəni üzrlü saymaq olar. Çünki o əsərləri/hədisləri bilməyən biridir. Fəqət Allaha and olsun ki, bu bədbəxtlərin heç bir bəhanəsi yoxdur**",[46] - demişdir.

Bununla yanaşı İbn Həzm belə də demişdir:

---

42. İbn Ədiy, e.a.ə., VIII, 235-246.
43. Hədisdə yer alan kəlməni ləfz və ya məna baxımından siqa ravilərin rəvayət etdiyi şəkildən başqa şəklə dəyişdirməyə təshif deyilir. (müəllif)
44. İbn Ədiy, e.a.ə., VIII, 246.
45. İbn Həzm, "əl-İhkam fi usulil-əhkam", Misir 1404, I, 258.
46. İbn Həzm, "əl-Muhəlla" (təhqiq edən, Əbdülqəffar Süleyman əl-Bündari), VII, 130. İbn Həzm Hənəfilərin səhih və ya mütəvatir sənədləri tərk edib zəif hədislərlə əməl etdiklərini də ifadə etmişdir. (bax. E.a.ə, V, 393-394; VII, 386).

- "**Əbu Hənifə müctəhiddir. Düzgün ictihadlarında iki, xətalarında isə bir savaba nail olmuşdur**."[47]

Ümumiyyətlə, tənqidlərin edildiyi dövrə nəzər yetirdikdə, Əbu Hənifəni tənqid etməyin və hədis bilmədiyi ilə əlaqəli fikir bəyan etməyin dəb halına çevrildiyini görürük. Bir növ əksəriyyətlə müəllim-tələbə münasibətləri çərçivəsində bir-birinə vərəsəliklə keçən bu anlayış görkəmli hədis alimlərini də öz təsiri altına almışdır. İbn Əbi Şeybənin tələbəsi Buxari[48] və Müslim başda olmaqla, Darəqutni, İbn Əbu Hatim, Əhməd ibn Hənbəl, Nəsai kimi alimlər Əbu Hənifənin hədisdə zəif olduğunu iddia etmişdirlər. Ancaq hər nə qədər hədis elmində zəiflik damğası vurulsa da, bu anlayış şöhrət qazandığı fiqh sahəsindəki nüfuzuna kölgə düşürə bilməmişdir. Mövzunu Zahid əl-Kövsərinin "ən-Nükət ət-Tarifə" əsərinin giriş bölməsində İbn Əbu Şeybənin iddialarına verdiyi məntiqli izahı ilə yekunlaşdıraq.

Məlum olduğu kimi Buxari və Müslimin də müəllimi olan İbn Əbu Şeybə "Müsənnəf" adlı geniş hədis əsərində bir fəsli Əbu Hənifənin hədislərə müxalifət etməsinə həsr etmiş və "Kitab ər-rədd alə Əbi Hənifə" adını vermişdir. Burada 125 "bab" (bölmə) və hər bölmədə də bir neçə hədis qeyd edilmişdir. Yəni 125 mövzu ətrafında iddialar qeyd edilmşdir. Əvvəla onu qeyd edək ki, Əbu Hənifənin ictihad edərək izah etdiyi və fitva verdiyi məsələlərin sayı (83.000) səksən üç mindir. Yəni İbn Əbi Şeybənin 125 məsələ barəsindəki iddiaları doğru olsa belə, bu rəqəm (1/664) nisbətindədir. Bu əslində tənqid yox, təqdir səbəbidir.

Zahid əl-Kövsəri İbn Əbu Şeybənin iddialarına belə izah gətirmişdir:

47. İbn Həzm, "əl-İhkam", I, 240.
48. Buxarinin iddialarına onun "Came" əsərinə şərh yazan Hənəfi alim əl-Ayni "Umdə əl-Qari" əsərində kifayət qədər cavab vermişdir.

- "**İbn Əbu Şeybənin qeyd etdiyi 125 məsələnin 50 %-ində müxalif rəvayətlər vardır. Yəni Əbu Hənifə qeyd edilən məsələlərdə İbn Əbu Şeybənin nəql etdiyi rəvayətlərdən fərqli hədislər əsasında hökm vermişdir. Qalan 50 %-lik qismi 5 bölək. Bu beş bölmənin bir hissəsi Qurani-Kərimə zidd olan xəbəri-vahidlər olduğuna görə Quran ayələri əsas alınmış, xəbəri-vahidlər təvil edilmişdir.**

**- Bölgünün ikinci hissəsində isə ahad (fərd) xəbərdən daha güclü rəvayətlər məşhur hədis olduğuna görə ahad xəbərlər tərk edilmişdir.**

**- Üçüncü hissədə isə fərqli anlama və baxış bucağına görə hədislərdən fərqli hökmlər çıxarılmışdır. Yəni Əbu Hənifə də İbn Əbu Şeybə də eyni rəvayəti əsas almış, ancaq nəticədə fərqli hökmlər əldə etmişlər.**

**- Dördüncü hissədə İbn Əbu Şeybənin hədisə müxalif kimi qəbul etdyi hökmü Əbu Hənifəyə nisbət etməklə xəta etmişdir. Yəni fiqh kitablarına baxıldıqda Əbu Hənifənin ona nisbət edilən görüşdə olmadığı görülmüşdür.**

**- Son, beşinci hissədə İbn Əbu Şeybənin iddiası doğru isə bu da , yəni 12 məsələ edir. Yəni 12 məsələdə xəta etmiş sayılır**.[49]

Deməli, tənqid etmə xatirinə bəzən doğrular görünmür və yaxud düzgün analiz edilmir.

49. Bax. Əbu Bəkir Sifil, "İdrak ve Tasdik", s. 39.

### 3. Əbu Hənifənin hədis bildiyinə dair məlumatlar

Əvvəla onu qeyd edək ki, Əbu Hənifənin hədislərdən istifadə etmədiyini ifadə etmək səhvdir. Çünki fiqh elmini təşkil edən dəlillərin əksəriyyəti hədis və sünnələrdir.  Odur ki, Əbu Hənifəni tənqid edənlərlə yanaşı onun haqqında əsaslı və məntiqli izahlarla hədis bildiyini isbat edən alimlər də vardır. Maraqlıdır əsrlərdir müntəsibləri (tabe olanlar) olan bir məzhəb aliminin fiqh elminin əsaslarından biri olan hədisləri bilmədiyini iddia etmək nə qədər doğrudur?! Tibb elmlərindən bixəbər olan birinin cərrahi əməliyyat apara bildiyini iddia etmək nə qədər absurd isə, Əbu Hənifənin də hədis bilmədiyini iddia etmək o qədər qeyri-realdır.

Əbu Hənifənin kifayət qədər hədis bilgisinə sahib olduğunu söyləyən alimlərin görüşlərini qeyd edərək məsələyə aydınlıq gətirək:

Siqa (etibarlı) hədisçilərdən biri olan İsrail ibn Yunus Əbu Hənifə haqqında belə demişdir:

“**Numan necə də gözəl adamdır. Fiqhi məsələ barəsindəki hədisləri onun qədər əzbər bilən, ondan daha dəqiq tədqiq edən, onlardakı fiqhi hökmlər daha yaxşı anlayan heç kim yoxdur**.”[50]

Hənəfi məzhəbinə mənsub fiqh alimi Səraxsi Əbu Hənifə barəsində belə demişdir:

- “**Əbu Hənifə yaşadığı əsrin ən yaxşı hədis bilən alimi idi. Ancaq zəbt vəsfinin kamilliyinə riayət etdiyinə görə az rəvayət etmişdir**”.[51]

---

50. Saymeri, Əbu Abdullah, “Əxbaru Əbi Hənifə və Əshabihi”, Beyrut 1995, s. 23.
51. Səraxsi, “Üsul”, I, 350.

- Əbu Hənifəni hədis bilgisinin azlığı ilə tənqid edən məşhur hədis alimi Buxarinin müəllimlərindən biri olan Məkki ibn İbrahim belə demişdir:

"**Əbu Hənifə dövrün ən yaxşı və güclü alimi idi**".[52]

- Eyni şəkildə İmam Buxarinin ricalından (ravilərindən) biri olan Həsən ibn Saleh:

- "**Əbu Hənifə hədis elmində nasix və mənsuxu çox dəqiq tədqiq edən, Kufə əhli arasında hədisi ən yaxşı bilən, camaatın tabe olduğu məsələlərə sıx bağlanan, yaşadığı bölgəsinə çatan rəvayətləri əzbərləyən biridir**" – deyərək Əbu Hənifəni tərifləmişdir.[53]

Əhməd ibn Hənbəlin də hədis rəvayət etdiyi Yezid ibn Harun Əbu Hənifə haqqında bu ifadələri sərf etmişdir:

- "**Mindən çox adamdan hədis dinlədim və yazdım. Bunlardan beş nəfərdən daha çox fiqhi bilən, təqva sahibi və alim birinə təsadüf etmədim. Bunların başında Əbu Hənifə yer alır**".[54]

Süfyan ibn Üyeynə də belə demişdir:

**"Məni Kufədə hədis öyrətmək üçün ilk dəfə (sinifdə) oturdan Əbu Hənifədir. Məni məscidə apardı və tələbələrinə: "Bu Əmr ibn Dinarın hədisini ən yaxşı biləndir"- dedi. Mən də oradakı tələbələrə hədis rəvayət etdim (öyrətdim)"**[55].

52. İbn Həcər, "Təhzib ət-Təhzib", c. 10, s. 451.
53. Saymeri, s. 25.
54. İbn Əbdülbərr, "Cami Bəyan əl-elm", s. 502.
55. İbn Əbdülbərr, "əl-İntiqa", s. 199.

Yəhya ibn Məin "cərh və tədil" elmində dahi sayılan Vaqi ibn Cərrah haqqında belə demişdir:

- "**Vaqi kimi görkəmli və dərin bilikli birini tanımıram. O, Əbu Hənifənin rəyi ilə fitva verirdi**".[56]

- Cərh və tədil elmində öz dəsti xətti ilə tanınan Yəhya ibn Məinin də Əbu Hənifə haqqındakı görüşü diqqəti cəkir:

"**Əbu Hənifə siqa**[57] **bir ravidir. Əzbərlədiyi hədisləri rəvayət edər, əzbərləmədiklərini isə rəvayət etməzdi**". [58]

Nahaq və təəssübkeşliklə ünvanlanmış tənqidlərlə yanaşı, Əbu Hənifə haqqında digər məzhəb mənsubu olduğu halda tərifləyici fikirlər səsləndirən alimlər də vardır. Məsələn, Şafei məzhəbinə mənsub məşhur tarixçi və rical alimi Zəhəbi onu hədis hafizlərinin qeyd olunduğu "Təzkirə əl-Hüffaz"[59] əsərində qeyd etmiş, Cəlaləddin əs-Süyuti də "Təbəqat əl-Huffaz"[60] əsərində onu tərifləmişdir. Bu kitablarda qeyd olunmaq, hədis sahəsində kifayət qədər hədis bilmənin göstəricisidir.

Zahid əl-Kövsəri də Əbu Hənifənin kifayət qədər hədis bildiyini iddia edən alimlərdəndir. O Əbu Hənifənin hədislərlə dolu sandığının olduğunu, ancaq bu hədislərdən dörd minindən istifadə etdiyini söyləmişdir.

---

56. İbn Əbdulbərr, "əl-İntiqa", s. 211.
57. Hədis elmində etibarlı və rəvayətləri alınan ravilərə verilən addır. Ədalət və zəbt sahibi ravilərə deyilir.
58. İbn Həcər, "Təhzib ət-Təhzib", c. 10, s. 450. Daha geniş məlumat üçün bax. Əbu Bəkir Sifil, "İdrak ve Tasdik", s. 35-36.
59. Zəhəbi, "Təzkira əl-hüffaz", c. 1, s. 562.
60. Suyuti, "Təbəqat əl-hüffaz", c.1. s. 80. (nömrə 156)

## 4. Həqiqətən Əbu Hənifə qiyas etmək üçün hədisləri tərk edib?

Dini-elmi metodologiyaya əsasən həyatımızı İslama uyğunlaşdırmaq üçün başda Quran və Sünnəyə, bununla yanaşı icma, qiyas, istehsan, məsləhət və adət-ənənə kimi şəri dəlillərə müraciət etmək lazımdır. Əsri-səadətdən bu yana alimlər qarşılaşdıqları problemləri bu prinsiplərə müraciət edərək həll etmiş və hüquqi boşluqları bunlarla doldurmuşlar. İndiki dövrdə də alimlər məhz həmin metodologiyanı izləyərək mövcud problemlərə müxtəlif həll yolları təklif edirlər.

Əbu Hənifənin tənqid edildiyi nöqtələrdən biri də yuxarıda sadalanan metodlardan biri olan qiyasdan çox istifadə etdiyi, hətta hədislərdən daha çox dəyər verdiyi ilə əlaqədardır. Əslində, bu heç də belə deyil. Çünki Əbu Hənifəyə görə rəvayət qiyasdan daha dəyərlidir. Bir neçə misal ilə bunu izah edək: Əbu Hənifə, onun qiyasa daha çox əhəmiyyət verdiyi ilə əlaqəli xəbəri eşitdikdə belə cavab vermişdir:

"İnsanlar necə də qəribədirlər. Öz rəyimə görə fitva verdiyimi deyirlər. **Ancaq mənim fitvalarım mütləq bir rəvayətə əsaslanır**".[61]

Əbu Hənifənin bu etirazı xəbərlərə (hədislərə) daha çox əhəmiyyət verdiyini göstərir. Füzeyl ibn İyazın da onun haqqındakı ifadələri bunu isbat edir. Füzeyl onun haqqında belə demişdir:

- "Haqqında səhih bir hədisin (hədis səhabə və tabeundan olsa belə) olduğu məsələ ona çatarsa, hədisə tabe olardı. Hədisin tapılmadığı məsələdə isə ən gözəl şəkildə qiyas edərdi".[62]

---

61. İbn Əbül-Əvvam, "Mənaqibu Əbi Hənifə", s. 54
62. İbn Əbdülbərr, "əl-İntiqa", s. 142.

Tələbələrindən Məhəmməd Şeybani Ramazan ayında unudaraq yeyib-içmə ilə əlaqəli danışarkən Əbu Hənifənin belə dediyini nəql etmişdir:

- "Bu məsələdə, əgər rəvayət gəlməsəydi, (qiyasa əsasən) o günün qəza edilməsini əmr edərdim".

Göründüyü kimi Əbu Hənifə Hz. Peyğəmbərdən (s.ə.s) hədis olduğuna[63] görə qiyas ilə yox (yemək və içmək orucu pozar), rəvayətə əməl etmişdir.

Əbu Hənifənin seçkin tələbələrindən olan Züfərin ifadələri məsələni belə izah edir:

- "Müxaliflərimizin dediklərinə qulaq asmayın. Çünki Əbu Hənifə və tələbələri bütün məsələlərdə Quran, sünnə və səhih rəylər əsasında danışırlar. Əgər mövzu ilə əlaqəli birbaşa cavab tapa bilməsələr, Quran və Sünnəyə qiyas edərlər".[64]

Həmçinin onun "Rəvayət tapılana qədər biz öz rəyimizə əməl edərik, ancaq rəvayət tapıldıqda dərhal görüşümüzü tərk edər rəvayəti əsas götürərik"[65] fikri də rəvayətin əsas olduğunu göstərir.

Yuxarıda qeyd olunan və bənzəri rəvayətlər Əbu Hənifənin səhih bir hədis olan məsələdə qiyasdan istifadə etmədiyini göstərir.

## 5. Məsələni necə başa düşməliyik?

Əbu Hənifənin hədis elmi sahəsindəki biliyi ilə əlaqəli həm mənfi, həm də müsbət fikirlərin səsləndirilməsi izaha

63. Oruclu olduğunu unudaraq nə isə yeyən və ya içən şəxs oruca davam eləsin, pozmasın. Çünki onu Allah yedirib-içirmişdir." (Buxari, "Səhih" 1933.)
64. Türkmani, "Hanefi Hadis Üsulüne Giriş", s. 114. (Əhməd əl-Məkki, Mənaqibu Əbi Hənifə və Əshabihi, c. 1, s. 83-dən nəqlən)
65. Bağdadi, "əl-Fəqih vəl-mütəfəqqih", s. 151.

ehtiyac olan məsələlərdən biridir. Məsələyə belə aydınlıq gətirmək mümkündür.

Səhabə tarixinə nəzər salsaq hədis rəvayəti ilə məşğul olan səhabələrin saylarının az olduğunu görərik. Hətta min hədisdən çox hədis rəvayət edən “muksirun”[66] səhabələrin sayı yeddi nəfərdir. Hz. Əbu Bəkr, Hz. Ömər, Hz. Osman, Hz. Əli (Allah hər birindən razı olsun) kimi seçkin səhabələrin hədis rəvayətləri azdır və “muksirun” ravilərin arasında yer almır. Bu onların hədis bilmədiklərinin göstəricisi deyil. Əksinə bu işlə məşğul olmadıqlarını göstərir. Onların hər biri dövlət rəhbəri olmuş və qarşılaşdığı problemləri Quran və sünnə çərçivəsində həll etmişlər. Bunun üçün də kifayət qədər hədis bilgisinə sahib olmaq şərtdir.

Eyni şəkildə Əbu Hənifə də fiqh elmi ilə məşğul olmuş, ayrıca hədis rəvayət məclisləri təşkil etməmişdir. Bu onun hədis bilmədiyinin göstəricisi ola bilməz. Həmçinin yaşadığı dövrdə hədis uydurma fəaliyyətlərinin artdığını da nəzərə aldıqda, Əbu Hənifənin hədis rəvayətinə ehtiyatla yanaşması başa düşüləndir.

Əbu Hənifə haqqında söylənən “**hədisi az idi**” (قليل الحديث) ifadəsini, “**hədis rəvayəti az idi**” (قليل التحديث) yəni hədis rəvayəti ilə məşğul olmamışdır şəklində başa düşmək lazımdır. Əbu Hənifə əksəriyyətlə fiqhi məsələlər barəsində fitva verməklə məşğul olmuş, hüquqi problemləri izahedici fikirlər bəyan etmişdir.

---

66. Mindən çox hədis rəvayət edənlərə **muksirun** mindən az rəvayət edənlərə isə **muqillun** deyilir. Muqsirun səhabələr yeddi nəfərdir:

1. Əbu Hüreyrə (5374),
2. Abdullah ibn Ömər (2630),
3. Ənəs ibn Malik (2286),
4. Hz. Aişə (2210),
5. Abdullah ibn Abbas (1660),
6. Cabir ibn Abdullah (1540),
7. Əbu Səid əl-Xudri (1170)

Onun haqqında söylənən "Əbu Hənifə hədisdə yetim idi" ifadəsi, onun hədis rəvayəti ilə məşğul olmadığını göstərir. Hədis rəvayəti müctəhid imamların əsas vəzifəsi deyildir.

O dövrlərdə "əhli-hədis"in, yəni hədis rəvayəti ilə məşğul olanların əsas məqsədləri hədisləri bir neçə təriqlə rəvayət etməkdən ibarət idi. Məsələn, İbrahim ibn Səid əl-Cövhəri "Hər bir hədis ilə əlaqəli yüz "vəcih" (fərqli rəvayət və sənəd forması) bilməsəm, mən yetim sayılıram" ifadəsi bu fikri əsaslandırır.

Əbu Hənifənin bir hədisşünas qədər hədislərin sənəd bilgisinə malik olmaması təbii haldır. Eyni şəkildə bir hədisşünasın da onun qədər fiqh bilgisinə malik olmaması qəbuledilməndir. Bu həqiqət, heç bir halda Əbu Hənifənin hədis bilmədiyini göstərən amil ola bilməz. Bunu rahatlıqla ifadə edə bilərik ki, Əbu Hənifə ictihad etməyə kifayət edəcək qədər hədis bilgisinə sahib idi. "Az" və "çox" ifadələrinin nisbi olduğunu da nəzərə alsaq, "azlıq" və "çoxluq" kimə və nəyə görə dəyərləndirilməlidir?

Əbu Hənifənin hədis bilgisini təqdirlə qarşılayan alimlərin fikirlərini nəzərə aldıqda görürük ki, qərəzsiz, dövrün siyasi-ictimai təsirindən kənar, elmi əsaslar çərçivəsində aparılan tədqiqatlar Əbu Hənifənin kifayət qədər hədis bilgisinə sahib olduğunu göstərir. Əgər o hədisə dəyər verməsəydi və yaxud bilgisi az olsaydı iki məşhur tələbəsinin (Əbu Yusif və Məhəmməd Şeybani) hədislərlə əlaqəli "Kitab əl-Əsar" adında əsərləri olmazdı.

Həmçinin Hənəfi məzhəbinə mənsub hədis alimləri ilə əlaqəli müstəqil əsərlərin yazılması da, həm Əbu Hənifənin, həm də Hənəfi məzhəbinin hədislərə nə qədər dəyər verdiyini göstərən amillərdən biridir. Belə ki, Zahid əl-Kövsəri "Nasb ər-rayə" əsərinin müqəddiməsində

Hənəfi hədisşünaslarından 110 nəfərinin adını qeyd etmişdir. Eyni zamanda Ləknəvinin qələmə aldığı “əl-Fəvaid əl-Bəhiyyə fi təracim əl-Hənəfiyyə”[67] əsərində də kifayət qədər Hənəfi hədis alimınə təsadüf etmək mümkündür.

Hədisləri ağıl süzgəcindən keçirərək qəbul edən Əbu Hənifənin hədis elmi barəsində bu sözünü unutmamaq lazımdır:

- “Biz eşitsək də, eşitməsək də Rəsulullahın (s.ə.s) söylədiyi hər bir kəlamın başımız üstə yeri var. Biz ona inanır və onun Allahın elçisinin dediyi kimi olduğuna şahidlik edərik”.[68]

“Mənim sözümə müxalif hədis (yəni Əbu Hənifəyə çatmayan hədis) qarşısınıza çıxarsa, sözümü tərgitin, hədisə əməl edin”[69] tapşırığını verən “Rəsulullahdan gələnlərin başımızın üstündə yeri var. Səhabələrdən nəql edilən ictihadların seçdiklərimizi (bəyəndiklərimizi) qəbul edər, fəqət sözlərindən kənara çıxmarıq. Tabeun nəslinin ictihadlarına gəlincə onlar da bizim kimi insanlardır. Biz də onlar kimi ictihad edərik”[70]- deyən Əbu Hənifə necə hədislərə rəğmən öz rəyi ilə hökm verər?

Hənəfilərdə “zəif hədis, rəy və qiyasdan daha dəyərlidir”[71] qaydası da başda Əbu Hənifə olmaqla Hənəfi məktəbinin tələbələrinin hədisə kifayət qədər dəyər verdiklərini göstərir.

---

67. Darul-ərkan nəşriyyatı, Beyrut 1998.
68. Əbu Hənifə, “əl-Alim vəl-mütəalim” (İmam Azamın beş eseri), türk dilinə tərcümə edən Mustafa Öz, İstanbul 1981, s. 27.
69. Fiqh alimlərinin bəzi hədisləri görməmiş olması və yaxud hədislərə fərqli izahlar gətirmələri təbii qarşılanmalıdır. Xüsusilə Əbu Hənifənin yaşadığı və hədislərin tədvinin yekunlaşmadığı bir dövrdə belə halların olması reallıqdır.
70. İbn Əbdulbərr, “əl-İntiqa fi fəzail əl-əimmətis-sələsətil füqaha”, Beyrut 1998, s. 144.
71. İbn Həzm, “əl-Muhalla”, c. 7, s. 386.

Özündən təqribən qırx il sonra vəfat edən tələbələri Yusif və Məhəmməd Şeybaninin bəzi görüşlərini dəyişdirmələri, sonradan qarşılaşdıqları hədisləri əsas aldıqlarının və İmam Əbu Hənifənin tövsiyələrinə riayət etdiklərinin isbatıdır.

Kufədə təşkil olunan elm məclislərindən birində hədislərə ehtiyac olmadığını, Quranın kifayət etdiyini söyləyən birinə Əbu Hənifənin verdiyi tarixi cavab, onun hədislərə nə qədərə əhəmiyyət verdiyini və hədislərin onun üçün nə ifadə etdiyini göstərir. Əbu Hənifə o adama belə cavab vermişdir:

"**Əgər sünnə olmasaydı, heç birimiz Quranı dərk edə və anlaya bilməzdi**".[72]

Həmçinin onun Bəsrə qazısı əl-Bəttiyə yazdığı risalədə qeyd etdiyi "Bil ki, öyrəndiyimiz və insanlara öyrətdiyimiz ən fəzilətli şey sünnədir"[73] ifadəsi də sünnənin onun üçün nə ifadə etdiyini göstərir.

Əbu Hənifənin bildiyi hədislərin sayının cəmi on yeddi ədəd olduğu iddiasının da aktual olduğunu diqqətə alaraq məsələyə aydınlıq gətirmək istərdik. Belə ki, məşhur sosial-tarixçi İbn Xəldun (ö. 808/1405) "Müqəddimə" adlı əsərində belə demişdir: "Hədis elmini çox və az olması baxımından müctəhidlər arasında fərq vardır. Əbu Hənifə haqqında "Onun on yeddi ədəd rəvayəti var",- deyilmişdir."[74]

Müctəhidlərin bəzi hədislərə əməl etməmələrini izah edən İbn Xəldun, Əbu Hənifənin hədisləri rəvayət və nəql

72. Qasımi, "Qəvaid ət-Təhdis", s. 307; Kəşmiri, Məhəmməd Ənvər, "Feyz əl-Bari alə Sahih əl-Buxari", Beyrut, tarixsiz, I, 229; Şarani, Əbdülvaha, "əl-Mizan", Misir 1304, s. 53, 60.
73. Əbu Hənifə, "ər-Risalə ila Osman el-Bətti", (türk dilinə tərcümənin içində, tərcümə edən Mustafa Öz), İstanbul 1981, s.69.
74. İbn Xaldun, "Müqəddimə", Beyrut 1988, c. 1, s. 561.

etmə şərtlərinə çox ciddi yanaşdığı üçün rəvayətlərinin az olduğunu ifadə etmişdir. Eyni zamanda o, Əbu Hənifənin qəsdən hədis rəvayətini tərk etmədiyini və onun xaricindəki hədis alimlərinin hədis rəvayət şərtlərinə çox ciddi diqqət yetirmədikləri üçün də, çox hədis rəvayət etdiklərini söyləmişdir. İbn Xəldun Əbu Hənifənin məzhəbinə etimad edilərək ciddiyə alınmasının, onun hədis elmində böyük müctəhidlərdən biri olduğunun göstəricisi olduğunu söyləmişdir.[75]

İbn Xəldundan nəql edilən məlumat əsasında son dövrlərdə bəzi "alimlər" Əbu Hənifənin bildiyi hədis sayının on yeddi olduğunu iddia edərək yersiz tənqidedici ifadələr sərf etmişlər. Ancaq bunu əminliklə ifadə edə bilərik ki, İbn Xəldunun ifadəsi səhv tərcümə edilmiş və onun məsələ barəsindəki fikri düzgün əks etdirilməmişdir. Məsələnin əslini müasir hədis alimi İsmail Lütfi Çakan gözəl şəkildə izah etmişdir. Belə ki, İbn Xəldunun hədisçi olmadığına diqqət cəlb edərək onun əsas məqsədinin Əbu Hənifənin hədis bilgisinə diqqət çəkmək olmadığını söyləmişdir. Eyni zamanda ifadənin qeyd olunduğu cümlənin ərəbcə ifadəsi incələndikdə يقال (yuqal)[76] "deyilmişdir", "deyilir ki" mənasını ifadə edən və dəqiqlik ifadə etməyən sözdən istifadə edilmişdir. Bu da ehtimal mənasını daşıyır. Odur ki, buna əsaslanaraq Əbu Hənifənin təkcə on yeddi hədis bildiyini söyləmək elmi əxlaqla səsləşmir.[77]

Ərəbcə mətndə diqqətimizi çəkən digər bir xüsus da hədisin rəvayət edilməsi məsələsidir. Bir şəxsin az hədis rəvayət etməsi onun bildiyi hədislərin sayısını göstərməz.

75. Zekeriya Güler, "İmam Ebu Hanifenin Hadis İlminde Zayıf Olduğu İddiasının Tahlili" s. 327.
76. İfadənin əsli belədir:
واعلم أيضا أنّ الأئمّة المجتهدين تفاوتوا في الإكثار من هذه الصّناعة والإقلال فأبو حنيفة رضي الله تعالى عنه يقال بلغت روايته إلى سبعة عشر حديثا
77. Çakan, İsmail Lütfü, "Hadis-Sünnet Üzerine", İstanbul 2017, s. 110.

Çünki rəvayət edilən hədislərin sayı bildiyi hədislərin sayını əks etdirmir. Bu mənada Buxarinin hədis bilgisini sadəcə kitabında dərc etdiyi hədislərin sayı ilə məhdudlaşdırmaq nə qədər doğru deyilsə, Əbu Hənifənin bildiyi hədis sayısını da on yeddi ilə məhdudlaşdırmaq o qədər səhvdir.

İsmail Lütfi Çakan məsələnin izahında "müsnəd" sözünə diqqət çəkir. O deyir ki, hədis elmində səhih hədis mənasına gələn "müsnəd"[78] kəlməsi eyni zamanda əsər adı kimi də istifadə edilir. Bu mənada Əbu Hənifəyə nisbət edilən "müsnəd"[79] əsərlərin cəmi on yeddidir. Bu on yeddi müsnəd əsəri, səhih hədis kimi anlayan insanlar onun bildiyi səhih hədislərin sayının on yeddi olduğunu güman etmişlər. Ancaq buradakı məqsəd hədis deyil, hədis əsərləridir. Odur ki, səhv anlamaq hədis terminlərindən xəbərsiz olanların düşdüyü bir xətadır. Həmçinin Pakistanlı alim Məhəmməd Əmin tərəfindən Əbu Hənifəyə nisbət edilən hədislərin qeyd olunduğu on yeddi əsəri "Musnədu əl-İmam Əbi Hənifə və ədədu mərviyatihi minəl-mərfuati və əl-asar" adı ilə nəşr edilmişdir.[80]

Tarix əsərlərində yer alan və aşağıda qeyd edəcəyimiz hadisə Əbu Hənifə haqqındakı tənqidlərin tədqiq edilmədən və təəssübkeşliklə edildiyini göstərir:

Şam fəqihi əl-Övzai Abdullah ibn Mübarək ilə qarşılaşır və ona Əbu Hənifəni nəzərdə tutaraq:

"Kufədəki o bidətçi kimdir?"- deyir.

---

78. Səhih sənədlə Hz. Peyğəmbərə nisbət edilən hədislərə "müsnəd" hədislər deyilir.
79. Qeyd olunan əsərlərdə Əbu Hənifənin istifadə etdiyi və ona nisbət edilən rəvayətlər qeyd olunmuşdur. Bu əsərlərin ilki Əbu Hənifənin tələbəsi Yusif, sonuncusu isə Əbu Əli Məhəmməd əl-Bəkri tərəfindən təlif edilmişdir.
80. Geniş məlumat üçün bax. Çakan, e.a.ə, s. 111-112.

Abdullah ibn Mübarək ona cavab vermədən üç gün boyunca qaldığı evində Əbu Hənifənin ictihad və görüşlərindən ibarət bir kitabça qələmə alır. Abdullah ibn Mübarək söhbətə belə davam edir:

"Övzai o bölgədəki məscidin müəzzini idi. Əlimdəki kitabın nə haqqında olduğunu soruşdu. Kitabı ona verdim.

Kitabdakı məsələlərdən birini incələdi. Məsələnin sonunda "Bu Numanın görüşüdür" ifadəsini yazmışdım.

Sonra yenə kitabdan bir miqdar mütaliə etməyə davam etdi. Namazı qıldıqdan sonra yenə kitabı incələdi.

Sonra mənə:

"Ey Xorasanlı! Bu Numan ibn Sabit kimdir?"- deyə soruşdu.

Ona "İraqda tanış olduğum bir ustaddır", - dedim. Mənə:

"Məlum olur ki, bu adam seçkin biridir. Get ondan daha çox elm öyrən", - dedi.

Mən də ona: "Bu sənin çəkindirdiyin Əbu Hənifədir"- dedim.

Bir müddət sonra Övzai ilə Məkkədə qarşılaşdıq. Onun fiqhi məsələlərdə Əbu Hənifənin fikirlərini mənimsədiyini gördüm. Ona:

"Əbu Hənifə haqqında fikirlərin nədir?"- deyə soruşdum.

"Elminin və ağlının dərinliyinə görə ona qibtə etdim. Onun barəsindəki köhnə fikirlərimə görə Allaha tövbə etdim. Onun barəsində yanlış fikirlərə sahib idim. O adamdan elm təhsil etməyə davam et. Çünki o, haqqında eşitdiklərimdən uzaqdır"- dedi.[81]

81. Xətib əl-Bağdadi, "Tarixu Bağdad", c. 13, s. 338, Əbu Bəkir Sifil, "İdrak ve Tastik", s. 31.

Həqiqəti dərk edib xətalarından üz döndərənlərlə əlaqəli məlumatlar çoxdur. Bunun kimi hekayələr, tədqiq edilmədən qəbul edilən görüşlərin həqiqəti əks etdirmədiyini göstərir. Xüsusilə görkəmli alimlərlə əlaqəli tənqidedici fikirlər və görüşlər mütləq obyektiv şəkildə tədqiq edilərək alınmalıdır. Bu mənada Əbu Hənifənin əleyhinə eşitdiyi və qarşılaşdığı bütün fikirləri kitabında qeyd edən İbn Ədiy Təhavi ilə qarşılaşanda məsələnin əslini öyrənmiş və fikirlərindən imtina etmişdir. Hətta Əbu Hənifənin rəvayətlərini toplayan "Müsnəd" adlı əsər qələmə almışdır.[82]

Xülasə, İmam Şafeinin də qeyd etdiyi kimi bir müctəhidin bilərək Hz. Peyğəmbərin (s.ə.s) sünnələrinə müxalifət etdiyini düşünmək absurddur.[83] Əbu Hənifəyə ünvanlanan "hədis elmində zəif idi, yetim idi" kimi iddiaların sahiblərindən bəziləri isnadsız, zəif və elmi həqiqətləri əks etdirməyən, digərləri də əsassız cərh ifadələrinə əsaslanmışdır. Odur ki, bu tənqidlərin onun ünvanına söylənməsinin ən azı onun adına haqsızlıq olduğunu və həqiqətləri əks etdirmədiyini deyə bilərik. Dünya şöhrətli fiqh alimi kifayət qədər hədis bilgisinə malik idi və bu hədislər işığında öz fitva və ictihadlarını formalaşdırmışdır.

Haqsız tənqidlərin səbəbini başa düşmək üçün Əndəlüslü alim İbn Əbdülbərrin:

"**Əbu Hənifə iti anlayışına və zəkasına görə həsədə məruz qalmışdır**",

Musa əs-Sinani əl-Mərvəzinin:

"**Əbu Hənifə onlara (tənqid edənlərə) onların həm başa düşəcəkləri, həm də dərk edə bilməyəcək-**

82. Zahid əl-Kövsəri, "Tənib əl-Xətib", s. 329.
83. Şafei, "ər-Risalə", s. 219.

**ləri elm gətirdi. Onlara heç bir şey buraxmadı. Məhz buna görə də ona həsəd apardılar**”,[84]

Davud əl-Hüreybinin:

“**Əbu Hənifə barəsində insanlar həsədçi və cahildirlər (bixəbər)**”[85] ifadələrini diqqətə almaq lazımdır.

84. İbn Əbdülbərr, e.a.ə. s. 149 və s. 136.
85. İbn Həcər, “Təhzib ət-Təhzib”, c. 10, 451.

# BİRİNCİ FƏSİL
# NAMAZIN QILINIŞI

## I. NAMAZIN FƏZİLƏTİ

Dinin ən önəmli ibadətlərindən biri və dirəyi sayılan namazla əlaqəli həm Qurani-Kərimdə, həm də Hz. Peyğəmbərin (s.ə.s) hədislərində çoxlu dəlillər yer alır. Bu dəlillərin hamısını qeyd etmək əsərimizin möhtəviyyatını həddindən artıq artırmaqla yanaşı, həm də kitabı əsas məğzindən uzaqlaşdıracaqdır. Buna görə də biz Qurani-Kərimdən və hədislərdən ən çox diqqət çəkənləri qeyd edəcəyik.

### A. Namazın fəziləti ilə əlaqəli ayələr

Qurani-Kərimdə namazla əlaqəli yüzdən çox ayə qeyd edilmişdir. Bu ayələrdə namazın vaxtları, fəziləti, tərk edənlərin düçar olacağı əzab kimi məlumatlar qeyd olunur.

Burada namazın bəzi xüsusiyyətlərini izah edən bir neçə ayəyə təmas ediləcəkdir.

إِنَّ الصَّلَاةَ كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَوْقُوتًا

**...Şübhəsiz ki, namaz, müəyyən vaxtlarda olmaq üzrə möminlərə fərz edilmişdir.**[86]

إِنَّ الصَّلَاةَ تَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ

**...Şübhəsiz ki, namaz əxlaqsızlıqdan və pis işlərdən çəkindirir.**[87]

86. Nisa, 4/103.
87. Ənkəbut, 29/45.

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

**Həqiqətən, möminlər nicat tapmışlar. O kəslər ki, namazlarında xüşu içindədirlər**.[88]

وَالَّذِينَ هُمْ عَلَىٰ صَلَوَاتِهِمْ يُحَافِظُونَ

**O kəslər ki, namazlarında daimdirlər**.[89]

فَوَيْلٌ لِلْمُصَلِّينَ. الَّذِينَ هُمْ عَنْ صَلَاتِهِمْ سَاهُونَ

**Vay o namaz qılanların halına ki, Onlar namazlarına səhlənkar yanaşırlar.**[90]

وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي

**Məni anmaq üçün namaz qıl**![91]

وَأَقِيمُوا الصَّلَاةَ وَلَا تَكُونُوا مِنَ الْمُشْرِكِينَ

**Namaz qılın və müşriklərdən olmayın**![92]

وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَارْكَعُوا مَعَ الرَّاكِعِينَ

**Namazı qılın, zəkatı verin və rüku edənlərlə birlikdə rüku edin**![93]

فَخَلَفَ مِنْ بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلَاةَ وَاتَّبَعُوا الشَّهَوَاتِ ۖ
فَسَوْفَ يَلْقَوْنَ غَيًّا. إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَأُولَٰئِكَ

88. Möminun, 23/1-2.
89. Möminun, 23/9.
90. Maun, 107/4-5.
91. Ta-ha, 20/14.
92. Rum, 30/31.
93. Bəqərə, 2/43.

يَدْخُلُونَ الْجَنَّةَ وَلَا يُظْلَمُونَ شَيْئًا

**Ancaq onlardan sonra namazı tərk edib nəfslərinin arzularına uyan bir nəsil gəldi. Buna görə də onlar** (cəhənnəmdəki) **Ğayy dərəsinə düşəcəklər. Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlər istisnadır. Onlar cənnətə girəcəklər və heç bir haqsızlığa məruz qalmayacaqlar.**[94]

مَا سَلَكَكُمْ فِي سَقَرَ. قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ . وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ . وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ

**"Sizi Səqərə** (Cəhənnəmə) **salan nədir?". Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik; Yoxsulu da yedirtməzdik; Batilə dalanlarla birlikdə biz də dalardıq.**[95]

لَئِنْ أَقَمْتُمُ الصَّلَاةَ وَآتَيْتُمُ الزَّكَاةَ وَآمَنْتُمْ بِرُسُلِي وَعَزَّرْتُمُوهُمْ وَأَقْرَضْتُمُ اللَّهَ قَرْضًا حَسَنًا لَأُكَفِّرَنَّ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَلَأُدْخِلَنَّكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ ۚ فَمَنْ كَفَرَ بَعْدَ ذَٰلِكَ مِنْكُمْ فَقَدْ ضَلَّ سَوَاءَ السَّبِيلِ

**...Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha** (Allah yolunda) **gözəl bir borc** (sədəqə) **versəniz, əlbəttə, günahlarınızın üstünü örtər və sizi** (ağacları) **altından çaylar axan cənnətlərə daxil edərəm. Lakin bundan sonra sizdən hər kəs** (əhdi pozaraq) **küfr edərsə, o artıq doğru yoldan azmış olar!**[96]

94. Məryəm, 19/59-60.
95. Muddəssir, 74/42-43-44-45.
96. Maidə, 5/12.

الَّذِينَ إِنْ مَكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنْكَرِ ۗ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ

**Onlar o kəslərdir ki, əgər onlara yer üzündə hakimiyyət versək, namaz qılar, zəkat verər, yaxşılığı əmr edər və pislikdən çəkindirərlər. Bütün işlərin sonu Allaha aiddir.**[97]

**B. Namazın fəziləti ilə əlaqəli hədislər**

عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: أَرَأَيْتُمْ لَوْ أَنَّ نَهَرًا بِبَابِ أَحَدِكُمْ يَغْتَسِلُ فِيهِ كُلَّ يَوْمٍ خَمْسًا، مَا تَقُولُ: ذَلِكَ يُبْقِي مِنْ دَرَنِهِ قَالُوا: لاَ يُبْقِي مِنْ دَرَنِهِ شَيْئًا، قَالَ: فَذَلِكَ مِثْلُ الصَّلَوَاتِ الخَمْسِ، يَمْحُو اللَّهُ بِهِ الخَطَايَا

Əbu Hüreyrədən edilən rəvayət görə, bir gün Rəsulullah (s.ə.s): *"Sizcə, əgər biriniz, evinin qarşısından axan çayda hər gün beş dəfə yuyunsa onda kir və pasdan nə isə qalar?"*- deyə soruşdu. Oradakılar: "Xeyr, heç bir əlamət qalmaz"- dedilər. Rəsulullah (s.ə.s) də bunun müqabilində: "*Beş vaxt namaz da məhz belədir. Allah onunla insanın bütün xətalarını təmizləyər*"- dedi.[98]

عن عثمانَ بنِ عفانَ رضيَ الله عَنهُ قالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: مَا مِنَ امْرِئٍ مُسْلِمٍ تَحْضُرُهُ صَلَاةٌ مَكْتُوبَةٌ فَيُحْسِنُ وُضُوءَهَا وَخُشُوعَهَا وَرُكُوعَهَا، إِلَّا كَانَتْ كَفَّارَةً لِمَا قَبْلَهَا مِنَ الذُّنُوبِ مَا لَمْ يُؤْتِ كَبِيرَةً وَذَلِكَ الدَّهْرَ كُلَّهُ

97. Həcc, 22/41.
98. Buxari, "Səhih" 528; Müslim, "Səhih" 283; Tirmizi, "Sünən" 2868; Nəsai, "Sünən" 462.

Osman ibn Əffan (r) Hz. Rəsulullahdan (s.ə.s) belə eşitdiyini rəvayət edir:

“*Bir müsəlman fərz namazı vaxtında gözəl bir şəkildə dəstəmaz alar, xüşu ilə rüku və səcdələrini tam edərək namazını qılarsa, o namaz böyük günah işləmədiyi müddətcə, o günə qədər işlədiyi bütün (kiçik) günahlara kəffarə olar. Bu həmişə belədir*”.[99]

عن أبي هُرَيْرَةَ عَنِ النَّبِيِّ صَلّى اللهُ عَلَيْهِ وسَلَّم قالَ: الصَّلَواتُ الخَمْسُ والجُمُعَةُ إلى الجُمعةِ، وَرَمَضَانُ إلى رمَضَانَ، مُكَفِّرَاتٌ ما بيْنَهُنَّ إذا اجْتُنِبَتِ الكبَائِرُ

Əbu Hüreyrədən (r) rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurdu: “*Böyük günahlardan qaçıldığı müddətcə, beş vaxt namaz ilə iki cümə və iki ramazan, aralarında işlənən (kiçik) günahlara kəffarə olar*”.[100]

عَنْ أَبِي هُرَيْرَةَ: أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: يَتَعَاقَبُونَ فِيكُمْ مَلائِكَةٌ بِاللَّيْلِ وَمَلائِكَةٌ بِالنَّهَارِ، وَيَجْتَمِعُونَ فِي صَلاَةِ الفَجْرِ وَصَلاَةِ العَصْرِ، ثُمَّ يَعْرُجُ الَّذِينَ بَاتُوا فِيكُمْ، فَيَسْأَلُهُمْ وَهُوَ أَعْلَمُ بِهِمْ: كَيْفَ تَرَكْتُمْ عِبَادِي؟ فَيَقُولُونَ: تَرَكْنَاهُمْ وَهُمْ يُصَلُّونَ، وَأَتَيْنَاهُمْ وَهُمْ يُصَلُّونَ

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *“Bəzi mələklər gecə, bəziləri də gündüz sizin aranıza gəlirlər. Onlar sübh və əsr namazlarında bir yerə toplanırlar. Gecə aranızda olanlar Allahın hüzuruna çıxarlar. Allah onlardan yaxşı bilməsinə baxmayaraq belə soruşar:*

99. Müslim, “Səhih” 228.
100. Müslim, “Səhih” 233; Tirmizi, “Səhih” 214.

- *Qullarımı necə (nə halda ikən) tərk etdiniz?*. Mələklər:

- *Onların yanından namaz qılarkən ayrıldıq. Yanlarına gedincə də namaz qılırdılar,* - deyərlər".[101]

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ :مِفْتَاحُ الْجَنَّةِ الصَّلاَةُ وَمِفْتَاحُ الصَّلَاةِ الْوُضُوءُ

Cabir ibn Abdullahdan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Cənnətin açarı namaz, namazın açarı da dəstəmazdır*".[102]

قَالَ سَعِيدُ بْنُ الْمُسَيَّبِ: إِنَّ أَبَا قَتَادَةَ بْنَ رِبْعِيٍّ أَخْبَرَهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ: "قَالَ اللَّهُ عَزَّ وجَلَّ: إِنِّى فَرَضْتُ عَلَى أُمَّتِكَ خَمْسَ صَلَوَاتٍ وَعَهِدْتُ عِنْدِى عَهْدًا أَنَّهُ مَنْ جَاءَ يُحَافِظُ عَلَيْهِنَّ لِوَقْتِهِنَّ أَدْخَلْتُهُ الْجَنَّةَ وَمَنْ لَمْ يُحَافِظْ عَلَيْهِنَّ فَلاَ عَهْدَ لَهُ عِنْدِى."

Səid ibn Müseyyəbə Əbu Qətadə ibn Rəbinin xəbər verdiyinə görə, Rəsulullah (s.ə.s) belə demişdir: "*Uca Allah mənə dedi ki: "Sənin ümmətinə beş vaxt namazı fərz buyurdum. Bu namazları vaxtında və düzgün şəkildə qılanları cənnətə qoyacağıma öz-özümə vədim var. Namaza riayət etməyənlərə isə heç bir vədim (himayəm) yoxdur*".[103]

عَنْ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ :أَوَّلُ مَا يُحَاسَبُ بِهِ الْعَبْدُ الصَّلاَةُ...

---

101. Buxari, "Səhih" 7429; Müslim, "Səhih" 633; İmam Malik, "Müvəttə" 82.
102. Tirmizi, "Sünən" 4.
103. Əbu Davud, "Sünən" 430.

Abdullah ibn Məsudun rəvayət etdiyinə görə, Rəsulullah (s.ə.s) belə demişdir: “*Qiyamət günü qulun hesaba çəkiləcəyi ilk əməli namazıdır*”.[104]

عَنْ أَبِي هُرَيْرَةَ: سَمِعْتُ رَسُولَ اللهِ صلى الله عَليه وسَلم يَقُولُ إِنَّ أَوَّلَ مَا يُحَاسَبُ بِهِ العَبدُ يَوْمَ القِيَامَةِ مِنْ عَمَلِهِ صَلاَتُهُ, فَإِنْ صَلَحَتْ فَقَدْ أَفْلَحَ وَأَنْجحَ, وَإِنْ فَسَدَتْ فَقَدْ خَابَ وَخَسِرَ, فَإِنِ انْتَقَصَ مِنْ فَرِيضَتِهِ شَيْئًا , قَالَ الرَّبُّ تبارك وتعالى: انْظُرُوا هَلْ لِعَبدِي مِنْ تَطَوُّعٍ فَيُكْمَلُ بِهَا مَا انْتَقَصَ مِنَ الفَرِيضَةِ, ثُمَّ يَكُونُ سَائِرُ عَمَلِهِ عَلَى ذَلِكَ

Əbu Hüreyrə Hz. Peyğəmbərin (s.ə.s) belə dediyini rəvayət etmişdir: “*Qiyamət günü qulun ilk hesaba çəkiləcəyi əməli namazıdır. Əgər namazı doğru olarsa, o kimsə qurtular və nicat tapar. Əgər namazı nöqsan olarsa, o kimsə uğursuzluğa və bədbəxtliyə düçar olar. Əgər qulun fərz namazlarından bir şey əskik gələrsə, Allah-Təala (mələklərə) buyurar: “Baxın görək qulumun nafilə namazları varmı?” (Əgər olarsa,) O namazlarla fərzlərdən qalan nöqsanları tamamlanar. Sonra digər əməlləri də bunun kimi olar*”.[105]

عَنْ جَابِرٍ، يَقُولُ: سَمِعْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: إِنَّ بَيْنَ الرَّجُلِ وَبَيْنَ الشِّرْكِ وَالْكُفْرِ تَرْكَ الصَّلَاةِ

Cabir ibn Abdullah Rəsulullahın (s.ə.s) belə dediyini eşitmişdi: “*Bir şəxs ilə şirk və küfr arasında namaz vardır. (Namaz tərk edilsə bu əngəl aradan qalxar*)”.[106]

104. İbn Macə, “Sünən” 1425.
105. Tirmizi, “Sünən” 413; Nəsai, “Sünən” 465.
106. Müsilm, “Səhih” 82.

عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: مَنْ تَرَكَ صَلَاةً لَقِيَ اللهَ وَهُوَ عَلَيْهِ غَضْبَانُ

İbn Abbasdan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: “*Kim namazı tərk edərsə, Allaha ona qəzəbli olduğu halda qovuşar*”[107].

## C. Alimlərin namaz sevgisi

Həyatlarını Quran və Sünnə əsasında tənzimləyən Allah dostlarının və İslam alimlərinin həyatlarında namazın müstəsna yeri vardır. Bu mənada həyatını namaza əsasən nizamlamaq istəyən hər bir müsəlman bu anlayışda olmalıdır.

Sözün əsl mənasında qılınan namaz üçün onun təkcə zahiri hökmlərini bilmək kifayət deyildir. Allah bəndələrindən fiziki kamillik ilə bərabər ruhani təkamülü də namaza əks etdirməyi tələb edir. Yəni fizik cəhətdən Kəbəyə döndüyümüz kimi, ruhumuzla da Allaha yönəlmək lazımdır. Namaz könlümüzü qidalandırdığı kimi, qəlbimizin paklığı da namazı gözəlləşdirir. Həqiqi namaz odur ki, bu ikisini özündə cəm etsin. Namaz ilə həyatını gözəlləşdirən insanları digər insanlardan ayıran xüsusun bu olduğu şübhəsizdir.

Nəfəsini namazdan alan Hz. Öməri bir məcusi mizraqla yaralamışdı. Həddindən artıq qan itirən Hz. Ömər az keçməmiş huşunu itirdi. Sanki ölmüş kimi yerə uzandı. Fəqət namazın vaxtı yaxınlaşanda qulağına əyilib: “Namaz, ya Ömər, namaz!”- dedikləri zaman Hz. Ömər heyranedici bir iradə ilə qalxdı və o vəziyyətdə namazını qıldı. Sonra da: “Namazı olmayanın İslamda yeri yoxdur”- deyərək yenə

107. Təbərani, “Mövcəm” 11782.

huşunu itirirdi[108]. Onun huşunu yerinə gətirən, ancaq namaz həssasiyyəti və sevgisi idi.

Hz. Əli namaz qıldığı vaxt rəngi saralırdı. Bir müharibədə ayağına ox girmişdi. Onu çıxarda bilmirdilər. Hz. Əli namazları xüşu ilə qıldığına görə ətrafında baş verənlərdən xəbərdar olmurdu. Bunu fürsət bilərək yanındakılar o namazda ikən oxu çıxartdılar. Ancaq Hz. Əli bunu hiss etmədi.[109] Ondan: "Ey möminlərin əmiri! Namaz vaxtı gəldikdə nə üçün üzünün rəngi dəyişir və titrəməyə başlayırsan? - deyə soruşduqda: "Yerin, göyün və dağların daşımağa aciz qaldıqları əmanəti daşıma vaxtı gəlmişdir. Onu qüsursuz yerinə yetirə biləcəyimi bilmirəm" - deyirdi. Deməli ətrafla əlaqəni kəsərək Allahla rabitə qurmaqdır namaz. Namaz Allah üçün ayırdığımız vaxtdır. Allah o vaxta başqalarının daxil edilməsini istəmir. Namaz Allahla danışmaq, ünsiyyət qurmaqdır.

Son nəfəsimizdə ağlımızdan çıxmayacaq sevgi ilə namazı sevmək anlayışıdır böyüklərimizdən bizə miras qalan. Namazda son nəfəsini verməyi arzulmaqdır, sözün əsil mənasında qılınan namazın qazandırdığı.

Süffə məktəbinin seçkin tələbələrindən biri olan Hz. Hübeyb məşhur "Rici hadisəsi"ndə dar ağacına asılaraq edam edilmişdi. Edam edilmədən əvvəl ondan son istəyini soruşurlar. O da tərəddüdsüz iki rükət namaz qılmaq istədiyini bildirir. Bu cavab qarşısında heyrətə düşən düşmənlər ona yenidən nə istədiyini soruşdular. Hz. Hübeyb yenə də namaz qılmaq istədiyini əminliklə bildirdi. Bu istəyinə heç bir məna verə bilməyən müşriklər ona son istəyini yerinə yetirməsi üçün icazə verdilər. Əlləri açılan Hübeyb sükunət və xüşu ilə namazını qıldı. Namazını bitirdikdən sonra:

108. Heysəmi, "Məcməuz-zəvaid", c. 1, s. 295; İbn Səd, "Təbəqat", c. 3, s. 35.
109. Deyləmi, "İrşad əl-Qulub", c. 2, s. 26.

“Allaha and olsun ki, əgər qorxduğu üçün namazı uzadır” demələrindən çəkinməsəydim, namazı uzadar və daha çox qılardım”- demiş, ətrafındakılar isə onun namaza olan bu sevgisinə heyran qalmışdılar.[110] Beləliklə o, İslam tarixində edamdan əvvəl namaz qılan ilk şəxs kim həm tarixdə, həm də insanların könlündə ölümsüzləşdi.

Hz. Həsən dəstəmaz aldığı zaman rəngi dəyişirdi. Ona: “Ya Həsən! Niyə belə saralıb-solmusan?”- deyə soruşanda: “Yeganə qüdrət sahibi Allahın hüzuruna çıxma vaxtı çatmışdır”- deyərdi.

Zeynəlabidin həzrətləri də dəstəmaz alarkən rəngi saralıb-solar, namaza başlayacağı zaman ayaqları titrəyərdi. Səbəbi soruşulanda: “Kimin hüzuruna çıxacağımı bilmirsiz?”- deyə cavab verərdi. Onun başından keçən bu hekayə namazla olan münasibəti görmək baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, bir dəfə namaz qılarkən evində yanğın baş verir. Fəqət onun bundan xəbəri olmur. Namazı qılıb qurtarandan sonra vəziyyəti ona xəbər verirlər və: “Evin yandığı halda sənə bunu hiss etdirməyən nədir?” - deyərlər. Həzrət də: “İnsanları gözləyən axirət yanğını mənə dünyadakı bu kiçik yanğını hiss etdirmədi” – deyə cavabı verir.[111]

İslam tarixində belə nümunələr çoxdur. Əsas odur ki, hər birimiz bu cür namazla namazda yox olanların keçirdiyi halı, ab-havanı və həzzi əldə etməyə çalışaq. Namazla qəflət yuxusundan oyanaq. Bəlkə səhabənin, əhlullahın namazda qazandıqları yüksək səviyyəyə çatmaq çox çətindir, ancaq mənəvi qabiliyyətimiz və istedadımız çərçivəsin-

110. Yaşar Kandemir, “Hübeyb b. Adi”, Diyanət İslam Ensiklopediyası, c. 18, s. 266.
111. Əlavə nümunələr üçün bax. O. Nuri Topbaş, “Quran və Sünnə işığında İslam, İman, İbadət,” Bakı 2006, s. 211-214.

də buna nail olmağa çalışmalıyıq. Bunun üçün də namazı nöqsansız qılmaq əsas şərtlərdən biridir.

Namazı namaz edən və xüşu ilə qılınmasına səbəb olan bir çox xüsuslar olmaqla yanaşı, alimlər onların bəzilərini zahiri və batini şərtlər halında ikiyə ayırırlar.

**1. Zahiri şərtlər**: Namaz qılan şəxs sakit olmalı, ayaq üstə (qiyamda) ikən səcdə yerinə, rükuda ikən barmaq uclarına, səcdədə burnunun ucuna, oturarkən qucağına baxmalıdır. Namazda sağa-sola boylanmamalı, əllərini yana salmamalı, namazdan kənarda bir şeylə məşğul olmamalı, imamdan əvvəl hərəkət etməməlidir.

**2. Daxili (batini) şərtlər**: Allahın hüzurunda olduğunu unutmamalı, oxuduğu dua, təsbeh və surələrin mənalarını təfəkkür etməyə çalışmalıdır. Mənəvi auraya bürünməyə səy göstərməlidir. Alimlər namazın kamilliyinin xüşunun mükəmməlliyi ilə düz mütənasib olduğunu ifadə edirlər.[112]

112. Necati Yeniel, Hüseyin Kayapınar, "Süneni Ebu Davud şerhi ve Tercümesi", Şamil yayınları, İstanbul 1988, c. 3, s. 239-240.

## II. NAMAZIN QILINIŞI

Bu bölmədə namazın qılınması ilə əlaqəli rəvayətlərə və qısa izahlarına yer veriləcəkdir. Əlbəttə ki, namazla əlaqəli məsələləri (namazı pozan hallar, namazın fərzləri, vacibləri, sünnələri və s.) müxtəlif aspektdən tədqiq edən əsərlər qələmə alınmışdır. Məqsədimiz hədislərin qılınma qaydası ilə əlaqəli rəvayətləri toplamaq olduğuna görə, bu kimi fərqli izahların verildiyi ixtilaflı məsələlərə təmas edilməyəcəkdir.

Qeyd edilən rəvayətlərdə namazdakı hərəkətlərin ardıcıllığı nəzərə alınmışdır.

### A. Niyyət

**HƏDİS:**

عَنْ أَميرِ الْمُؤْمِنِينَ أبي حفْصٍ عُمرَ بنِ الْخَطَّابِ بْن نُفَيْل رضي الله عنه قال : سمعْتُ رسُولَ الله صَلَّى اللهُ عَلَيْهِ وسَلَّم يقُولُ: إنَّما الأَعمالُ بالنِّيَّات، وإِنَّمَا لِكُلِّ امرئٍ مَا نَوَى، فمنْ كانَتْ هجْرَتُهُ إِلَى الله ورَسُولِهِ فهجرتُه إلى الله ورسُولِهِ، ومنْ كاَنْت هجْرَتُه لدُنْيَا يُصيبُها أَو امرَأَةٍ يَنْكحُها فهْجْرَتُهُ إلى ما هَاجَر إليْهِ.

Möminlərin əmiri Əbu Həfs Ömər ibn Xəttab (r): "Rəsulullahı (s.ə.s) belə buyurarkən eşitdim,"- dedi: *"Şü-*

*bhəsiz ki, əməllər niyyətlərə görədir. Hər kəs etdiyi əməlin qarşılığını niyyətinə görə alar. Kim Allah və Rəsulu (riza və məmnuniyyəti) üçün hicrət etmişsə, o, hicrəti ilə Allah və Rəsuluna yönəlmiş sayılır. Kim dünya malı və ya bir qadından ötrü hicrət etmişdirsə, o da həmin niyyətinə görə hicrət etmiş sayılır"*[113].

**ŞƏRH**:

Niyyət məram, məqsəd, plan, amac, qəti iradə, qəlbin bir şeyi bilməsi, bir şeyi qərara alıb o işin nə üçün edildiyini anlaması və o işə yönəlməsi mənasını verir. İnsan hara yönəldiyini, nə istədiyini, nəyi axtardığını niyyəti sayəsində bilir. Bütün əməl, hərəkət və davranışların kökündə niyyət dayanır. Nə ediriksə, nə danışırıqsa, hamısı nəticə etibarilə niyyətimiz qədər dəyərli olur.

Əgər niyyət doğru deyilsə, edilən ibadətlərin heç bir mənası yoxdur. Qıldığımız namazın əyilib-qalxmaqdan, yəni fiziki hərəkətlərdən bir fərqi yoxdur. Yaşlananda oynaq ağrıları olmasın, ayaqlar ağrımasın deyə qılınan namaz, sübhəsiz ki, ibadət deyildir. Oruc tutmaqda niyyətimiz Allahın rizasını qazanmaqdırsa, Allah bizi bu iltifatı ilə qarşılayar: "Oruc Mənim üçündür. Mükafatını da Mən verəcəyəm". Ancaq sırf diyet və pəhriz saxlamaq üçün oruc tutulursa, Peyğəmbərimizin buyurduğu kimi aclıq və susuzluqdan başqa bir "qazanc" olmaz. Belə bir ibadətin heç bir faydası yoxdur. Bəli, niyyət bu qədər mühüm bir şeydir.

Niyyət ibadətlərdə mənəvi nöqteyi-nəzərdən əhəmiyyət kəsb etdiyi kimi, etibarlı olması baxımından da əhəmiyyətlidir. Bu mənada alimlər qılınan hər bir namazda niyyətin mütləq olduğunu və niyyətsiz namazın səhih olmadığını qeyd edirlər.

113. Buxari, "Səhih" 1; Əbu Davud, "Sünən" 2201; İbn Macə, "Sünən" 4227.

Niyyət ibadəti adətdən ayıran xüsusdur. Namazın şərtlərindən biridir. Bütün namazlar üçün niyyət edilməsi fərzdir. Namazın hər hansı bir yerində niyyət dəyişdirilərsə, namaz batil olur.[114]

Niyyətdə əsas məsələ ibadət etməyi könlündən keçirməkdir. Hansı namazı qıldığını qəlbində bilmək şərtdir. Dil ilə niyyət edilməsi şərt deyil. Buna əsasən qəlbində dörd rükət tutaraq, dili ilə beş rükət söylənsə, namaz batil olmur. Yəni əsas olan qəlbindəki miqdardır.

Fərz və vacib namazlarda vaxtın qəlbdə bilinməsi kifayətdir. Məsələn zöhr namazının fərzini qılan adam "Bu günün zöhr namazının fərzini qılmağa niyyət edirəm" şəklində qəlbində bilməlidir.[115] Camaatla namaz qılan kimsə imama tabe olmağı niyyətində dəqiqləşdirməli, ayrıca dil ilə söylməsi şərt deyildir.

Namaz qıldırmaq üçün imam olan kimsənin imamlığa niyyəti şərt deyildir. Ancaq, əgər camaat arasında xanımlar varsa, mütləq niyyətində bunu bildirməlidir. Yəni qadınlara da imamlıq etdiyini bəyan etməlidir. Əks halda xanımların namazı batil olar.

114. Vecdi Akyüz, "İbadetler İlmihali", c. 1, s. 130.
115. Cəzairi, "əl-Fiqh alə məzhəb əl-ərbaa", c. 1, s. 211-213.

## B. İftitah təkbiri

Dini terminologiyada "Allahu əkbər" ifadəsinə təkbir, namaza başlama əsnasında söylənən təkbirə də "iftitah təkbiri" deyilir. Bütün namazlarda niyyətdən sonrakı təkbirlərdir.

Namazdan kənar halal olan bəzi hərəkət və davranışları haram (qadağan) etdiyinə görə namaza başlama təkbirinə "təhrimə təkbiri" də deyilir.

**HƏDİS:**

عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَسُولُ اللهِ صَلى الله عَلَيهِ وَسَلمَ: مِفْتَاحُ الصَّلاَةِ الطُّهُورُ، وَتَحْرِيمُهَا التَّكْبِيرُ، وَتَحْلِيلُهَا التَّسْلِيمُ

Hz. Əlidən rəvayət edildiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "Namazın açarı təmizlik, (dünyəvi işləri) haram edəni təkbir, halal edəni də salamdır".[116]

**ŞƏRH:**

Namaz qılmaq üçün əvvəla düzgün şəkildə dəstəmaz alınır, sonra təkbir gətirilərək namaza başlanır. Bu təkbir ilə insanlara halal olan danışmaq, salam verib-almaq, nə isə yemək, gəzmək, gülmək kimi davranışlar qadağan edilir. Bunlar edilərsə namaz batil olar. Son oturuşda həm sağ, həm də sol tərəfə salam verərək namaz yekunlaşdırılır. Abdullah ibn Məsud "Namazın açarı təkbir, sonu isə salam verməkdir" – demişdir. Beləliklə namaz əsnasında qadağan olan hərəkət və davranışları etmək halal olur.

İslam alimləri namaza başlama təkbirləri barəsində həmfikirdirlər. Yəni bütün İslam alimləri namaza iftitah

---

116. Əbu Davud, "Sünən" 61; Tirmizi, "Sünən" 3.

təkbiri ilə başlamağın mütləq olduğunu qəbul etmişdirlər. Odur ki, iftitah təkbiri namazın şərtlərindən biridir. Əbu Hüreydən gələn bu rəvayət də təhrimə təkbirinin mütləq olduğunu göstərir. Rəvayətdə belə buyurulur: "Namaz qılmaq üçün qalxdıqda gözəl dəstəmaz al, sonra qibləyə yönəl və təkbir gətir!".[117]

### 1. İftitah təkbirində əllər hara kimi qaldırılmalıdır?

**HƏDİS:**

عَنْ عَبْدِ الْجَبَّارِ بْنِ وَائِلٍ، عَنْ أَبِيهِ، قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَرْفَعُ إِبْهَامَيْهِ فِي الصَّلَاةِ إِلَى شَحْمَةِ أُذُنَيْ

Əbdülcabbar ibn Vail atasından rəvayət etdiyinə görə O belə demişdir: "Mən Hz. Peyğəmbəri (s.ə.s) namazda əllərini qulaq yumşağına qədər qaldırdığını gördüm".[118]

**ŞƏRH:**

İftitah təkbirində əllərin hansı səviyyədə qaldırılması məsələsi fərqli şəkildə izah edilsə də, yuxarıda qeyd olunan hədisə və mövzu ilə əlaqəli digər rəvayətlərə əsasən təkbir gətirilərkən baş barmaqlar qulaq uclarına qədər qaldırılmalıdır. Darəqutninin Ənəs ibn Malikdən rəvayət etdiyi hədisdə belə buyrulmuşdur: "Rəsulullah namaza təkbir ilə başlayar və barmaqlarını qulaq səviyyəsinə qədər qaldırardı. Sonra da "Sübhanəkə" duasını oxuyardı".[119] Malik ibn Huveyrisin rəvayət etdiyinə görə, Allahın Rəsu-

117. Buxari, "Səhih" 6251; 6667; Müslim, "Səhih" 397.
118. Əbu Davud, "Sünən" 737.
119. Darəqutni hədisin ravilərinin etibarlı (siqa) olduğunu qeyd etmişdir. Rəvayətlə əlaqəli ayrıca bax. Müslim, "Səhih" 821; Nəsai, "Sünən", 899.

lu (s.ə.s) namaz üçün təkbir gətirdiyi zaman əllərini qulaq səviyyəsinə qədər qaldırardı".[120]

Mövzu ətrafındakı rəvayətlər ətraflı şəkildə tədqiq edildikdə görünür ki, soyuq vaxtı və yaxud digər maneələr olmadığı vaxtlarda namaz qılanın üstündə əllərini qaldırmağa əngəl törədən paltar və ya başqa mane yoxdursa əlləri qulaqlara qədər qaldırmaq lazımdır. İftitah təkbirində əllərin qulaq səviyyəsinə qədər qaldırıldığı ilə əlaqəli Vail ibn Hücrdən rəvayət edilən hədisin son qismində Hz. Peyğəmbərin (s.ə.s) əbalı ikən əllərini çiyinlərinə qədər qaldırdığı rəvayət edilmişdir.[121]

Xanımlar iftitah təkbirində əllərini çiyinlərinə qədər qaldırmalıdırlar. Çünki xanımların qoltuq altları övrətdir və gizlədilməlidir.[122] Vail ibn Hücrdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurumuşdur: "*Ey Hücr! Namaz qıldığın zaman əllərini qulaqlarına qədər qaldır. Qadınlar isə əllərini sinələrinə qədər qaldırar*".[123] Bu davranış qadınaların təsəttürünə müvafiq olanıdır. Unutmayaq ki, hicab qaydalarına riayət etmək qadınlardan tələb olunan ən əsas amillərdən biridir.[124]

---

120. Nəsai, "Sünən" 1085.
121. Bu davranış, əbanın yerə düşməməsi üçün alınan tədbirə görədir. (Əbu Davud, "Sünən" 728).
122. Şurunbulali, "Məraqi əl-fəlah şərhu mətn nur əl-izah", s. 96.
123. Təbərani, "Möcəm əl-Kəbir", c. 22, s. 19. (vav hərfi 28-ci hədis)
124. Təhanəvi, "İlaus-sünən", tərc. Ahmet Yücel, Misvak neşriyyat, İstanbul 2006, c. 2, s. 204.

## 2. Namaz qılarkən hara baxmaq lazımdır?

**HƏDİS:**

عَنْ أَنَسٍ قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: يَا أَنَسُ اجْعَلْ بَصَرَكَ حَيْثُ تَسْجُدُ

Ənəs ibn Malikdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) ona belə buyurmuşdur: *"Ey Ənəs! Baxışların səcdə yerində olsun!".*[125]

**ŞƏRH**:

Namazda əsas olan onu xüşu ilə qılmaqdır. Buna görə də bəzi hərəkət və davranışlara diqqət yetirmək lazımdır. Namazın sünnə və ədəbləri onun xüşusuna müsbət təsir göstərən amillərdəndir. Uca Allah namazda sağa-sola boylananlara xəbərdarlıq və xüşuya diqqət cəlb etmək məqsədi ilə Qurani-Kərimdə belə buyurmuşdur: **"Həqiqətən, möminlər nicat tapmışlar; O kəslər ki, namazlarında xüşu içindədirlər..."**[126]

Namaz qılanların əksəriyyəti təəssüf olsun ki, qiyam əsnasında ətrafı seyr edirlər. Yuxarıda qeyd olunan hədis bunun düzgün davranış olmadığını xatırladır. Hər nə qədər namazı pozan davranış olmasa da, namazda başqa yerlərə boylanmaq onun kamilliyini zədələyən əməldir.

Xüşunu cəlb edən ən əhəmiyyətli məsələlərdən biri namazda baxışı haraya yönləndirməyi bilməkdir. Seçkin tabeun alimi İbn Sirindən rəvayət edildiyinə görə səhabələr namaz qılarkən baxış bucağını namaz məkanından kənara çevirməyi xoş görmürdülər. İmam Şafei və Kufə alimləri səcdə yerinə baxmağı müstəhəb olduğunu ifadə edirlər.

---

125. Beyhəqi, "Sünən əl-Kübra" 3545.
126. Muminun, 23/1-2.

Odur ki, namaz qılan şəxs baxışını səcdə edəcəyi yerdən kənara çevirməməlidir. İslam alimləri də namazda xüşunu bərqərar etmək üçün qiyamda ikən səcdə mahalına, rükuda ayaqların üstünə, səcdədə burunun kənarlarına, təşəhüddə (oturuşda) qucağa, sağa salam verərkən sağ, sola salam verərkən də sol çiyninə baxmağı tövsiyə etmişdir.[127]

127. Səraxsi, "əl-Məbsud", Beyrut 2000, c. 1, s. 21. (Namaz bölümü), Kəsani, "Bədai əs-Sənai", c. 1, s. 215; Mövsuli, "əl-İxtiyar", c. 1, s. 52.

## C. Qiyam

Uca Allah Qurani-Kərimdə belə buyurur: "...**Allaha itaətkar bir şəkildə** (namaza) **durun"**[128].

Fiziki qüsur və üzrü olmayan namaza mütləq ayaq üstə başlamalıdır. Qiyam adlandırılan bu duruşla əlaqəli Hz. Peyğəmbər (s.ə.s) İmran ibn Husayna belə demişdir: "*Namazı ayaq üstə qıl. Əgər buna taqətin yoxdursa oturaraq qıl. Buna da gücün çatmazsa, yan tərəfinə uzanaraq namazını qıl*".[129] Deməli, namaz qılmaq üçün heç bir əngəl yoxdur. Fiziki imkanlar ölçüsündə namaz qılınmalıdır. İstək və arzu bütün əngəllərin öhdəsindən gələ bilən gücə malik duyğudur.

İftitah təkbiri gətirilərək qiyamla başlanan namazda təkbirdən sonra ilk hərəkət əllərin bağlanmasıdır. Əllərin bağlanması ilə əlaqəli rəvayətlər belədir.

### 1. Əllər harada və necə bağlanmalıdır?

### HƏDİS:

وَائِلِ بْنِ حُجْرٍ ، عَنْ أَبِيهِ ، قَالَ : رَأَيْتُ النَّبِيَّ صَلَّى الله عَلَيْهِ وَسَلَّمَ وَضَعَ يَمِينَهُ عَلَى شِمَالِهِ فِي الصَّلاَةِ تَحْتَ السُّرَّةِ

Vail ibn Hücr atasından belə rəvayət etmişdir: "(Atam dedi ki) Mən Allah Rəsulunu (s.ə.s) namazda sağ əlini sol əlinin üzərinə qoyub göbəyinin altında bağladığını gördüm".[130]

128. Bəqərə, 2/238.
129. Buxari, "Səhih", 1117.
130. İbn Əbu Şeybə, "Müsənnəf", 3959.

**ŞƏRH:**

Namazda əllərin bağlanması və sağ əlin sol əlin üzərinə qoyulması ilə əlaqəli alimlərin əksəriyyəti həmfikirdirlər. Ancaq əllərin harada bağlanması məsələsində fərqli fikirlər səsləndirilmişdir. Qeyd olunan hədisə əsasən əllər göbəyin altında bağlanır. Sağ əlin barmaqları ilə sol əlin biləyi halqavari tutulur və sonra qiraətə başlanır.

Qeyd olunan hədisin sənədi ilə əlaqəli məşhur alim Qutluboğa "ceyyid", yəni etibarlı isnad olduğunu söyləmişdir.[131]

Əbu Davudu məşhur "Sünən" adlı əsərində Hz. Əlinin əllərin göbəyin altında bağlamağın sünnədən olduğunu ifadə edən rəvayəti qeyd etmişdir.[132]

Səhabənin tətbiqatına nəzər yetirdikdə Hz. Peyğəmbərin (s.ə.s) sağ əlini sol əlinin üzərinə qoyaraq namaza başladığını müşahidə etdikləri görünür. Odur ki, səhabənin bu müşahidələrinin əks edildiyi rəvayətlər bizim üçün dəlil təşkil edir.[133] Əbu Hüreyrə məsələ ilə əlaqəli belə demişdir: "Namazda (sağ) əl (sol) əlin üstünə qoyularaq göbəyin alt qısmində bağlanır".[134]

Tabeun dövründə də bu tətbiqata davam edilmişdir. Həccac ibn Həssan belə rəvayət etmişdir: "Mən Əbu Micləzədən (məşhur tabeun alimlərindən) namazda əllərimizi hara qoyacağımızı soruşdum. O da belə cavab verdi: "Sağ əlinin içini sol əlinin  üstünə qoyaraq göbəyinin al-

131. Tanəvi, "İlaüs-sünən", II, 198.
132. Əbu Davud, "Sünən" 756. Ayrıca bax. Əhməd İbn Hənbəl, "Müsnəd", 875; Darəqutni, "Sünən", 1102.
133. Digər rəvayətlər üçün bax. İbn Əbu Şeybə, "Müsənnəf", 3942; 3939
134. Əbu Davud, "Sünən", 758.

tına qoy".[135] İbrahim ən-Nəxəi də: "Namazda sağ əl sol əlin üzərinə göbək altına qoyulur"[136]- demişdir.

Namazda əllərin bağlanmasının sünnə olduğunu qəbul edən alimlərə görə qadınlar əllərini sinələrinin üzərində bağlamalıdırlar. Bu bağlama şəkli qadınların fiziki quruluşu baxımından örtünmələrinə (hicaba) ruhuna daha müvafiqdir. Bu anlayış Hz. Peyğəmbərin (s.ə.s) dövründə də belə olduğuna işarə edir.[137]

## 2. İfititah təkbirindən sonra hansı dua oxunur?

**HƏDİS:**

عن عائشة قالت: كان رسولُ الله– صلى الله عليه وسلم – إِذَا إِسْتَفْتَحَ الصَّلَاةَ قَالَ: سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلَا إِلَهَ غَيْرُكَ

Hz. Aişənin (r) rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s) namaza başladığı zaman belə deyərdi: "Subhanəkəllahümmə və bihamdik və təbərakəsmuk və təalə cədduk və lə iləhə ğayruk" .[138]

**ŞƏRH:**

Qeyd olunan hədisə bənzər rəvayətlər bir çox hədis mənbələrində öz əksini tapmışdır. Məsələn, Darəqutninin

135. İbn Əbu Şeybə, "Müsənnəf", 3963.
136. İbn Əbu Şeybə, "Müsənnəf", 3939.
137. Mövsili, "əl-İxtiyar", c. 1; s. 164-165; Təhanəvi, "İlaüs-sünən", s. 2, s. 669-675.
138. Allahım! Sən bütün nöqsan vəsiflərdən uzaqsan. Səni daim öyürəm. Sənin adın bərəkət qaynağıdır. Sənin şanın nə ucadır. Varlığın hər şeydən üstündür(alidir) və Səndən başqa ilah yoxdur. Rəvayətlər üçün bax. Əbu Davud, "Sünən" 776; Beyhəqi, "Sünən əl-kübra", 2381.

“Sünən” adlı əsərində qeyd etdiyi bir rəvayətə görə, Hz. Peyğəmbər (s.ə.s) iftitah təkbiri üçün əllərini qulaqlarına qədər qaldırdıqdan sonra “Sübhanəkə” duasını oxuyardı. Bununla yanaşı Təbərani də əsərində buna bənzər rəvayətə yer vermişdir.[139]

Darəqutni eyni zamanda Hz. Ömərin və Hz. Osmanın namaza “sübhanəkə” duası ilə başladığını ifadə edən rəvayəti əsərində nəql etmişdir.[140] Əbdürrəzzaq əs-Sənani də Hz. Ömərin namaza “Sübhanəkə” duası ilə başladığını rəvayət etmişdir.[141] Hətta hərdən Hz. Ömər insanların öyrənmələri üçün duanı eşidiləcək qədər bərkdən oxuyardı. Abdullah İbn Məsud da Hz. Peyğəmbərin (s.ə.s) namaza başlamaq üçün sözü gedən duanı öyrətdiyini söyləmişdir.[142]

Təhavi qeyd etdiyimiz rəvayətin sənədinin səhih olduğunu ifadə etmişdir. Hafiz İraqi, Hakim ən-Neysaburi, Heysəmi kimi alimlər hədisin ravilərinin etibarlı olduğunu qeyd etmişdirlər.

Odur ki, bu rəvayətlər əsasında rahatlıqla deyə bilərik ki, iftitah təkbirindən sonra “Sübhanəkə” duası ilə başlamaq sünnədir və Raşidi-xəlifələr başda olmaqla səhabələrin əksəriyyəti namaza bu dua ilə başlamışlar.

---

139. Bax. Təbərani Möcəm əl-Kəbir, 155; “əd-Dua li ət-Təbərani”, 502.
140. Darəqutni, “Sünən”, 18.
141. Əbdürrəzzaq, “Müsənnəf”, 2557.
142. Təhanəvi, “İlaus-sünən”, c. 2, s. 201.

### D. Qiraət

Namazda iftitah təkbirindən sonra Qurandan bir miqdar ayələrin oxunmasına "qiraət" deyilir. Uca Allah **"... Qurandan sizə asan gələn yeri oxuyun!"**[143] buyurmuşdur.

Sübh, məğrib və işa namazlarının ilk iki rükətlərində (imamla qılınarsa), eyni zamanda cümə, bayram namazlarında qiraət ucadan, zöhr, əsr, cənazə, nafilə və vitr namazlarında isə səssiz oxunur. Qiraəti açıq oxumağa "cəhri" gizli oxumağa isə "xəfi" deyilir.

Təkbaşına namaz qılan şəxs oxuduğunu özünün eşidəcəyi şəkildə oxumalıdır. Yəni qiraəti ürəyində etməsi etibarsızdır.

Qiraət məsələsində bəsmələ ilə başlama və imamla namaz qılanın qiraəti kimi məsələlərdə fərqli görüşlər vardır. Bunlarla əlaqəli bəzi rəvayətlə belədir:

#### 1. Qiraətdə "bəsmələ" oxunmalıdır?

**HƏDİS:**

عَنْ أَنَسٍ قَالَ: "صَلَّيْتُ خَلْفَ رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ وَأَبِي بَكْرٍ وَعُمَرَ وَعُثْمَانَ رَضِيَ اللَّهِ عَنْهُمْ، فَلَمْ أَسْمَعْ أَحَدًا مِنْهُمْ يَجْهَرُ": "بسم الله الرحمن الرحيم"

Ənəs ibn Malik (r.a) belə demişdir: Mən Hz. Peyğəmbərin (s.ə.s), Hz. Əbu Bəkrin (r.a), Hz. Ömər (r.a) və Hz. Osmanın (r.a) arxasında namaz qıldım. Ancaq onların heç birinin "Bismilləhir-rahmənir-rahim"i ucadan oxuduğunu eşitmədim".[144]

143. əl-Müzəmmil, 73/20.
144. Nəsai, "Sünən" 907 və 1189; Darəqutni, "Sünən" 1199; Təha-

**ŞƏRH:**

Qeyd olunan hədisin sənədi səhihdir.[145]

Əlbəttə ki, Qurani-Kərimin tilavətinə başlamaq üçün "Əuzu-bəsmələ"nin çəkilməsi lazımdır. Qurani-Kərimdə bu məsələ öz əksini belə tapmışdır: "**Quran oxuduğun zaman qovulmuş şeytandan Allaha sığın**!".[146] Ancaq istər təkbaşına, istərsə də imam ikən ucadan qılınan namazlarda "bəsmələ"nin səssiz şəkildə söylənməsi məqsədə müvafiqdir.[147] Tabeunun çoxu da bu görüşü mənimsəmişdir. Süfyan əs-Sövri, İbn Mübarək, İmam Əhməd və İshaq kimi alimlər də "Bismilləhir-Rahmənir-Rahim"in ucadan oxunmasını deyil, astadan söylənməsini məqsədəuyğun hesab etmişlər. Abdullah ibn Müğəffəlin oğlu belə rəvayət etmişdir: Namaz qılarkən atam mənim "Bəsmələ"ni ucadan çəkdiyimi eşitdi və mənə belə dedi: "Ey oğlum, belə etməyin bidətdir. Bidətlərdən çəkin". Sonra belə davam etdi: "Peyğəmbərin əshabı bidət çıxardanlara çox əsəbləşirdilər. Mən Allahın Rəsulu (s.ə.s), Əbu Bəkr, Ömər və Osmanla bərabər namaz qıldım. Heç birinin "Bismiləhir-Rahmənir-Rahim"-i ucadan oxuduğunu eşitmədim. Sən də "Bəsmələ"ni ucadan oxuma və namazına "Əlhamdülilləhi rabil-aləmin" deyərək başla".[148]

Əgər Rəsulullah (s.ə.s) "Bəsmələ"ni həmişə ucadan qiraət etsəydi, bu məsələ barəsində ixtilaf və yaxud şübhə olmazdı. Hz. Peyğəmbərin (s.ə.s) əlində böyüyən Hz. Ənəs nə Rəsulullahın (s.ə.s), nə də Raşidi-xəlifələrin

---

vi, "Şərhu məani əl-əsar", 1198.
145. Nəsai, "Sünən" 907. (Əlbaninin dəyərləndirməsi).
146. Nəhl, 16/98.
147. Alimlər hər rükətdə "Fatihə" surəsindən əvvəl bəsmələ çəkmənin sünnə olduğunu qəbul etmişlər. Bax. Akyüz, Vecdi, "İbabetler İlmihali", İstanbul 1995, c. 1, s. 142.
148. Tirmizi, "Sünən" 244.

“Bəsmələ”ni ucadan oxuduqlarını rəvayət etmişdir. Buna əsasən də Mədinə əhli Rəsulullahın (s.ə.s) bu tətbiqinə məscidlərində davam etmişdir.

Buxari, Müslim və Əbu Davud əsərlərində namaza “bəsmələ” oxumadan “Fatihə” ilə başlamaqla əlaqəli rəvayətləri qeyd etmişlər. Ənəs ibn Malikdən rəvayət edilən hədis belədir: “Allahın Rəsulu (s.ə.s), Əbu Bəkr (r.a) və Ömər (r.a) namaza “Əlhamdulilləhi-Rabbil-aləmin” deyərək başlayardılar.[149] Başqa bir rəvayətdə də onların bəsmələni astadan söylədiklərini rəvayət etmişdir.[150] Hz. Əlinin tətbiqatı da bu şəkildə idi.[151] Onu da qeyd edək ki, “Fatihə” surəsindən sonra oxunan zəmmi-surə üçün bəsmələ çəkməyə ehtiyac yoxdur.[152]

---

149. Buxari, “Səhih”, 743; İmam Müslim, “Səhih”, 399; Əbu Davud, “Sünən” 782 (hədis səhihdir).
150. Təhavi, “Şərhu məanil-asar, 1203.
151. Təhavi, “Şərhu məanil-asar, 1208
152. Hənəfi məzhəbi bəsmələni Qurani-Kərimdən bir ayə kimi qəbul etmədiyinə görə onun oxunmasına ehtiyac görməmişdir (Təhavi, “Şərhu məanil-asar”, c.1, s. 203). Buna dəlil kimi bu qüdsi hədis göstərilir: Əbu Hüreyrədən nəql edilidiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) belə demişdir. Uca Allah buyurdu ki: “*Mən namazı qulumla Öz aramda ikiyə böldüm. Bəndəmin niyaz etdiyi qismi ona məxsusdur. Bəndə: “Əlhamdulilləhi Rabbil-aləmin”- dedikdə Allah: “Qulum Mənə həmd etdi”-deyər. Bəndə: “Ərrəhmanir-rəhim”- dedikdə Allah: “Qulum Məni təriflәyib öydü”- deyər. Bəndə: “İyyəkə nəbudu və iyyəkə nəstəin”- dedikdə Uca Allah: “Bu Mənimlə qulum arasındadır. Quluma məndən istədiyi veriləcəkdir” - deyər. Bəndə: “İhdinəs-sıratal-müstəqim sıratal-ləzinə ənamtə əleyhim, ğayril məğdubi əleyhim vələd-dalin”- dedikdə Allah: “Bu qismi qulumundur. Ona arzuladığı veriləcəkdir”-deyər.* (Müslim, “Səhih”, 38). Bu rəvayətdən “Fatihə” surəsi bəsmələsiz qeyd edildiyinə görə ondan bir ayə kimi qəbul edilməmişdir. Onu da qeyd edək ki, alimlər bu məsələ barəsində ixtilaf etmişlər. Zəmmi surədə bəsmələ oxunmadığına dair bax. Zeyləi, “Təbyin əl-həqaiq”, c. 1, s. 112.

Xülasə, ucadan qiraətlə qılınan namazlarda bəsmələnin ucadan deyil, astadan oxunması məqsədə müvafiq qəbul edilmişdir.

### 2. Qiraətdə nə oxunmalıdır?

**HƏDİS:**

عَنْ وَهْبِ بْنِ كَيْسَانَ قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: مَنْ صَلَّى رَكْعَةً فَلَمْ يَقْرَأْ فِيهَا بِأُمِّ الْقُرْآنِ فَلَمْ يُصَلِّ، إِلَّا مَعَ الْإِمَامِ

Vəhb ibn Keysan Cabir ibn Abdullahı belə deyərkən eşitdiyini rəvayət etmişdir: “Kim bir rükət namaz qılar və onda “Ümmül-Quran”ı (“Fatihə” surəsini) qiraət etməzsə, namaz qılmış sayılmaz. Ancaq imam ilə bərabər namaz qılan bundan müstəsnadır”.[153]

**ŞƏRH:**

İmamla qılınan namazlardan fərqli olaraq tək başına qılınan namazda hər kəs mütləq “Fatihə” surəsini oxumalıdır.[154] Çünki namazda “Fatihə” surəsini oxumaq vacib əməldir. Hətta bəzi rəvayətlərdə “Fatihə” oxumayanın namazının əskik olduğu qeyd edilmişdir.[155] Ancaq yeni başlayan və “Fatihə” surəsini əzbər bilməyənlər bundan müstəsnadır. Onlar “əlhəmdulillah”, “sübhanallah” kimi kəlmələrlə zikr etməlidirlər. Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur:

153. Tirmizi, “Sünən”, 313; İmam Malik, “Müvəttə”, 38; Təhavi, “Şərhu məanil-əsar”, 1300.

154. İmamla birlikdə namaz qılan şəxs istər ucadan qiraət olsun (sübh, məğrib, işa) və yaxud astadan qiraət (zöhr və əsr) olsun heç birində qiraət oxumaz. Bu əməl məkruh qəbul edilmişdir.

155. “Fatihə oxumayanın namazı yoxdur” hədisinə əsasən fatihə surəsi oxunmayan namazın batil olduğunu söyləyən alimlərlə yanaşı, “Fatihə surəsinin qiraətinin namazın vaciblərindən olduğu və buna görə də namazı pozmaz, ancaq vacib tərk edildiyinə görə savabı azalmış olar”- deyən alimlər də vardır.

"*Əzbərində Quran varsa oxu. Yoxdursa Allaha həmd et, təkbir gətir, ləiləhə iləllah de sonra da rükuya get*"[156]. Onlar da ilk vəzifə kimi "Fatihə" surəsini əzbərləməlidirlər.

Namaz qılanlar "Fatihə" surəsindən sonra Qurani-Kərimdən bir miqdar ayələr oxumalıdır. Buna "zəmmi surə" də deyilir.

Günlərin bir günü məscidə bir nəfər daxil oldu və namaz qılmağa başladı. Namazı bitirdikdən sonra Hz. Peyğəmbərin (s.ə.s) yanına gələrək salam verdi. Rəsulullah (s.ə.s) ona:

- "*Qayıt namazı yenidən qıl! Çünki sən namaz qılmadın*" - dedi.

Adam geri döndü və əvvəlki şəkildə namazı təkrar qılmağa başladı. Rəsulullah (s.ə.s) ona təkrar:

- "*Dön namazı təkrar qıl. Çünki sən namaz qılmadın*" - dedi.

Yenə eyni şəkildə namazı təkrar qıldı. Üçüncü dəfə də Rəsulullah (s.ə.s) ona namazı qılmağı söylədikdə adam: "Allaha and olsun daha yaxşı necə qılacağımı bilmirəm. Mənə doğrusunu öyrət" - dedi. Hz. Peyğəmbər (s.ə.s) də ona:

- "*Kim düzgün dəstəmaz almazsa, namazı qəbul olmaz. Sonra "Allaha həmd edər ("Fatihə" surəsini oxuyar) və Qurandan (xoşuna gələn) bildiyi yeri oxuyar. Sonra təkbir alaraq rükuya gedər...*"[157] – dedi.

Əbu Davud da əsərində "Fatihə" surəsindən sonra Qurani-Kərimdən bir miqdar ayələrin oxunmasının vacib əməl olduğunu ifadə edən rəvayəti nəql etmişdir.[158] Odur

156. Tirmizi, "Sünən", 302.
157. Təbərani, "Möcəm", 4526. Həmçinin rəvayətin bənzəri və tamamı üçün bax. Buxari, "Səhih" 757, Müslim, "Səhih" 397.
158. Əbu Davud, "Sünən" 818.

ki, "Fatihə" surəsinin və sonra bir miqdar ayələrin oxunması namazın vacibləriindəndir.[159]

"Fatihə" surəsindən sonra Qurani-Kərimdən bir miqdar ayələrin oxunması namazların ilk iki rükəti üçün nəzərdə tutulmuşdur. Zöhr, əsr və işa namazlarının üçüncü və dördüncü, eyni zamanda axşam namazının üçüncü rükətində təkcə "Fatihə" surəsi oxunur.

Rəvayət edildiyinə görə Hz. Əli zöhr namazının ilk iki rükətində "Fatihə" surəsindən sonra Qurani-Kərimdən bir miqdar ayələr oxuyardı. Əsr namazında da eyni şəkildə edərdi. Ancaq bu namazların son iki rükətində təkcə "Fatihə" surəsini oxuyardı. Məğrib namazında da ilk iki rükətində "Fatihə" surəsi və bir miqdar Quran ayələri oxuyar üçüncü rükətində təkcə "Fatihə" surəsini oxuyardı. Ubeydullah Hz. Əlinin bunu Hz. Peyğəmbərin (s.ə.s) də belə etdiyini deyərək "mərfu" şəkildə rəvayət etmişdir.[160]

---

159. Vacib anlayışı sadəcə Hənəfilərə məxsusdur. Belə ki, onlara görə bir şeyin sübutu qəti deyilsə onun hökmü fərz deyil vacib olar. Digər məzhəblərə görə isə fərz olmaq üçün belə bir şərtə ehtiyac yoxdur. Məhz buna görə Hənəfi məzhəbinə görə "Fatihə" surəsini oxumaq vacib, digər məzhəblərə görə isə fərzdir. Onu da qeyd edək ki, vacib anlayışı sadəcə hənəfi məzhəbinə məxsusdur. Fərz və sünnə arasında bir hökm ifadə edir. Fəzdən aşağı, sünnədən daha qüvvətli şəri bir hökmdür. "Fatihə" oxumaq Şafei məzhəbinə görə namazın səhih olmasının şərti, Hənəfilərə görə isə səhihlik şərti deyildir.
160. Təhavi, "Şərhu məanil-asar", 1224

### 3. İmamla namaz qılanın qiraəti necə olmalıdır?

**HƏDİS:**

عَنْ جَابِرٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: مَنْ كَانَ لَهُ إِمَامٌ، فَقِرَاءَةُ الْإِمَامِ لَهُ قِرَاءَةٌ

Cabir ibn Abdullahdan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə dedi: "*Kim imama tabe olarsa, imamın qiraəti onun da qiraətidir*".[161]

**ŞƏRH:**

Qeyd olunan hədis bəzi alimlər tərəfindən səhih, bəziləri tərəfindən də həsən dərəcəsində olduğu ifadə edilmişdir.[162] Buxari və Müslimin hədis qəbul etmə şərtlərinə müvafiq bir rəvayət kimi dəyərləndirən alimlər də olmuşdur.[163]

Namazın əsaslarından biri də Qurani-Kərimdən bir miqdarın oxunmasıdır. Ələlxüsus "Fatihə" surəsi oxunmayan namaz nöqsan qəbul edilmişdir. Hz. Aişədən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s): *"Ümmul-Quranın ("Fatihə" surəsinin) qiraət edilmədiyi hər namaz nöqsandır"*[164] - buyurmuşdur. Təhavi bu rəvayətdə əsasən təkbaşına namaz qılanın nəzərdə tutulduğunu qeyd etmişdir. Həmçinin Darəqutni "Sünən" adlı əsərində Cabir ibn Abdullahın bu rəvayətini nəql etmişdir: Hz. Peyğəmbər buyurdu ki, "*Kim bir rükət namaz qılar və onda "Fatihə"ni*

161. İbn Macə, "Sünən", 850; Əhməd ibn Hənbəl, "Müsnəd", 14643 Təhavi, "Şərhu məanil-asər", 1294.
162. İbn Macənin hədislərini təxric edən (dərəcə baxımından dəyərləndirən) müasir hədis alimi Albani bu rəvayətin həsən dərəcəsində olduğunu qeyd etmişdir.
163. Bax. Məhəmməd Vail əl-Hənbəli, "Ərbəun əl-Hənəfiyyə", s. 16
164. İbn Macə, "Sünən", 840; Əhməd ibn Hənbəl, "Müsnəd", 25099; Təhavi, "Şərhu məanil-asər", 1283.

*(ummul-Quran) oxumasa, namaz qılmış sayılmaz. Ancaq imamla qılnan namazlar bundan müstəsnadır*”.[165]

İmamla birgə namaz qılan şəxs üçün isə imamın oxuduğu “Fatihə” surəsi və Quran qiraəti kifayətdir. İmama tabe olmaq onun qiraətinə də tabe olmaq mənasına gəlir. Uca Allahın **“Quran oxunan zaman onu dinləyin və susun ki, bəlkə sizə mərhəmət edilsin!”**[166] ayəsinə görə də Quran tilavətində əsas olan dinləməkdir.

Hz. Peyğəmbərin (s.ə.s) etdiyi hər hərəkəti bütün təfərrüatı ilə izləyən səhabələrin tətbiqatına baxdıqda imamla qılınan namazlarda imamın qiraətinin kifayət etdiyi qəbul edilmişdir. Hətta Hz. Əli (r.a) “İmamın arxasında Quran oxuyan kəs fitrət üzrə deyildir”[167] - deyərək məsələni fitrətlə, xilqətlə əlaqələndirmişdir.

Bəzən səhabə Hz. Peyğəmbərlə (s.ə.s) namaz qılarkən namazda Quran qiraət etmiş, ancaq Hz. Peyğəmbər (s.ə.s) buna mane olmuşdur. Abdullah ibn Məsudun rəvayət etdiyinə görə, Rəsulullah (s.ə.s) arxasında Quran qiraət edən səhabələrə “*Mənim qiraətimi qarışdırdınız*”[168] - deyərək onları bundan çəkindirmişdir.

Əbu Musanın rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s): “*Namaz qılacağınız vaxt biriniz imam olsun digərləri də ona tabe olsun. İmam qiraət edəndə arxadakılar susaraq onu*

165. Tirmizi, “Sünən”, 313; İmam Malik, “Müvəttə”, 38; İbn Əbu Şeybə, “Müsənnəf”, 3621.
166. Əraf, 7/204.
167. Darəqutni, “Sünən” 1256; İbn Əbu Şeybə, “Müsənnəf”, 2801; Təhavi, “Şərhu məanil-asar”, 1306.
168. Əhməd ibn Hənbəl, “Müsnəd”, 4309; Darəqutni, “Sünən”, 1290; Təhavi, “Şərhu məanil-asar”, 1293.

*dinləsinlər*”,[169] - buyuraraq imama təkcə hərəkətlərdə yox, qiraətdə də tabe olmağı tövsiyə etmişdir.

Səhih hədis məcmuəsi olan Kütübi-sittədə Əbu Hüreyrədən nəql edilən bu rəvayət imama qiraətdə də tabe olunacağını vurğulayır. Rəvayət belədir: “İmam ona tabe olunmaq üçündür. Odur ki, o Quran qiraət edincə siz susun onu dinləyin”.[170] Beləliklə, imama tabe olan kəs imamın oxuduğunu oxuyan kimsə olaraq qəbul edilir və imamın qiraəti kifayət görülür. Namaza təkbir ilə başlayar, “sübhanəkə” duasını oxuyar, “əuzu bəsmələ”sini astadan çəkər və imamın qiraətini dinləyər. Təkbirləri və namazda oxunan dualardan başqa bir şey oxumasına ehtiyac yoxdur.

Astadan və yaxud cəhri (ucadan) edilən qiraətlərdə imama tabe olanın qiraət etməsi məkruh qəbul edilmişdir.[171]

### 4. “Amin” necə deyilməlidir?

**HƏDİS**

عَنْ أَبِي هُرَيْرَةَ أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: إِذَا قَالَ الْقَارِئُ: {غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ} [الفاتحة:7] فَقَالَ: مَنْ خَلْفَهُ: آمِينَ، فَوَافَقَ قَوْلُهُ قَوْلَ أَهْلِ السَّمَاءِ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: “*İmam* “***ğayril məğdubi aleyhim vələd-dalin***” *(“Fatihə” surəsi 7) dedikdə ona*

169. Əhməd ibn Hənbəl, “Müsnəd”, 19738; İbn Macə, “Sünən”, 847; Beyhaqi, “Sünən”, 2890.
170. Hədis Tirmizidən başqa digər Kütübi-sittə müəllifləri tərəfindən rəvayət edilmişdir. Əbu Davud, “Sünən”, 604; İbn Macə, “Sünən”, 846.
171. Akyüz, Vecdi, “İbadetler ilmihali”, c. 1, s. 140.

*tabe olanlar "amin" deyər və bu söz səmadakıların (mələklərin) amin sözünə təsadüf edərsə onun keçmiş günahları bağışlanar"*.[172]

**ŞƏRH:**

"Ey Allahım! Qəbul et" mənasına gələn "amin" ifadəsi hər duadan sonra müsəlmanlar tərəfindən istifadə edilən kəlmədir. Hz. Peyğəmbər (s.ə.s) bir rəvayətində "*Mənə namazda və yaxud duadan sonra Allah tərəfindən "amin" demək neməti bəxş edilmişdir. Bu nemət Hz. Musa peyğəmbərdən başqa heç kimə verilməmişdir. Musa (ə.s) dua edəndə Harun (ə.s) da "Amin" – deyərdi. Siz də duanızı amin ilə bitirin. Beləliklə Allah onu qəbul edər*"[173] - deyərək hər duadan sonra "amin" deyilməsinin əhəmiyyətinə diqqət cəlb etmişdir.

Namazda "Fatihə" surəsi oxunandan sonra "Amin"- demək sünnədir. Ancaq bunun səssiz şəkildə söylənməsi tövsiyə edilmişdir. Vail ibn Hücr Hz. Peyğəmbərin (s.ə.s) onlara namaz qıldırdığını rəvayət etmişdir. Hz. Peyğəmbər (s.ə.s) **"ğayril məğdubi aleyhim vələd-dalin"** ayəsini oxuduqdan sonra astadan "Amin." dedi. Sağ əlini sol əlinin üzərinə qoymuşdu. Sonra sağına və sol tərəfinə salam verərək namazı bitirdi.[174] Deməli namazı təkbaşına və yaxud camaatla qılan kimsə "Fatihə" surəsinin sonunda astadan "amin" duasını söyləməlidir.[175]

"Amin" dua ifadəsi olduğuna görə duanın astadan söylənməsi məqsədə müvafiq qəbul edilmişdir. Uca Allah

---

172. Buxari, "Səhih", 781; Müslim, "Səhih", 76.
173. Süyuti, "Cami əs-səğir", 1173.
174. Suyuti, "Şərh Sünən İbn Macə", c. 1, s. 61 (853 nömrəli hədisin şərhi). Digər rəvayətlər üçün bax. əl-Bəhləvi, "Ədillə əl-Hənəfiyyə", s. 163.
175. Necati Yeniel, Hüseyin Kayapınar, "Süneni Ebu Davud şerhi ve Tercümesi", c. 3, s. 471.

Qurani-Kərimdə: "**Rəbbinizə yalvarıb yaxararaq və gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevməz"**[176] buyuraraq buna diqqət çəkmişdir. Bir rəvayətdə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Könüldən və gizli şəkildə edilən dua açıq edilən 70 duaya bərabərdir*".[177] Odur ki, ucadan səslə və qışqıraraq dua etmək ədəbə uyğun davranış deyildir. Əbu Vaildən gələn rəvayətə görə o belə demişdir: "Hz. Əli və Abdullah ibn Məsud "bəsmələ", "istiazə" və "amin" duasını ucadan söyləməzdilər".[178]

Həmçinin Əbdürrəzzaq "Müsənnəf" adlı əsərində səhih sənədlə rəvayət etmişdir ki: "İmam bu beş şeyi səssiz oxumalıdır:

1. Sübhanəkə duasını,
2. İstiazə,[179]
3. Bəsmələ,[180]
4. Amin,
5. Allahummə Rabbənə ləkəl həmd ifadəsini".[181]

---

176. Əraf, 7/55.
177. Əbdurrəzzaq əs-Sənani, "Müsənnəf", 19645.
178. Təbərani, "Möcəm əl-kəbir", 9304.
179. Əuzü billəhi minəş-şeytanir-racim.
180. Bismilləhir-rahmənir-rahim.
181. Əbdürrəzzaq, "Müsənnəf", 2597; İbn Əbu Şeybə, "Müsənnəf", 8849.

### E. İntiqal təkbirlərində əllər qaldırılmalıdır?

**HƏDİS:**

عَنِ الْبَرَاءِ، أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ إِذَا افْتَتَحَ الصَّلَاةَ رَفَعَ يَدَيْهِ إِلَى قَرِيبٍ مِنْ أُذُنَيْهِ، ثُمَّ لَا يَعُودُ

Bəra ibn Azibdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) namaza başlamaq üçün təkbir gətirəndə əllərini qulaqlarına qədər qaldırar, sonra bu hərəkəti təkrarlamazdı.[182]

**ŞƏRH:**

Namazda rüku və səcdəyə getmək və qalxmaq, eyni zamanda təhiyyata oturduqdan sonra (ikinci rükətdən sonrakı oturuş) üçüncü rükətə qalxmaq üçün söylənən təkbirlərə intiqal təkbirləri deyilir. Bu təkbirlərin hökmü sünnədir. Abdullah ibn Məsuddan rəvayət edildiyinə görə o belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s), Hz. Əbu Bəkr və Hz. Ömər namazda hər eniş qalxışda təkbir gətirirdilər".[183] Rəsulullahın əshabının əksəriyyəti bu hədisə əməl etmişdir.

İntiqal təkbirləri əsnasında əllərin qaldırılmasına ehtiyac yoxdur. Asim ibn Kuleybin atasından rəvayət etdiyinə görə Hz. Əli (ə.s) namaz qılarkən təkcə iftitah təkbirində əllərini qaldırardı. Digər təkbirlərdə isə sadəcə təkbiri söyləyər, ancaq əllərini qaldırmazdı.[184] Həmçinin səhih bir rəvayətdə bildirildiyinə görə, Hz. Ömər (r.a) də təkcə ilk təkbirdə əllərini qaldırmış, sonrakı təkbirlərdə isə əllərini qaldırmamışdır.[185] Odur ki, hər zaman yanından olan seç-

---

182. Əbu Davud, "Sünən" 750.
183. Tirmizi, "Sünən" 253; Nəsai, "Sünən" 1083
184. İbn Əbi Şeybə, "Müsənnəf", II, 416.
185. Təhavi, "Şərhu məanil-asar", 1364.

kin səhabələrin bu məsələ barəsindəki tətbiqi nəzər alınmalı və buna əməl edilməlidir.

Bir gün ətrafında toplanan insanlara Abdullah ibn Məsud belə dedi: “Sizə Rəsulullahın (s.ə.s) qıldığı şəkildə namaz qıldırım mı?” Sonra namazı qıldırmağa başladı. Namaza başlama (iftitah) təkbirindən başqa heç bir yerdə əllərini qaldırmadı.[186] Mühəddis Tirmizi hədisi nəql etdikdən sonra bu qeydləri əlavə etmişdir: “Hz. Peyğəmbərin əshabından və tabeun nəslindən olan əksər alimlər iftitah təkbirindən sonra heç bir yerdə əllərin qaldırılmaması fikrini mənimsəyirlər. Süfyan əs-Sövri və Kufə fəqihləri də bu fikirdədirlər”.[187]

Hər fürsətdə sünnəyə tabe olmağı özünə şüar seçən və bütün təfərrüatı ilə həyatını sünnəyə görə nizamlamağa çalışan İbn Ömərin də iftitah təkbirindən başqa yerlərdə təkbir alarkən əllərini qaldırmadığı rəvayət edilmişdir.[188]

Alimlər iftitah təkbiri ilə intiqal təkbirlərinin hökmünün eyni dərəcədə olmadığını ifadə etmişlər. Buna görə də iftitah təkbiri namazın əsasından olduğuna görə əlləri qaldırmaq şərt ikən, intiqal təkbirlərində şərt deyildir. Buna görə də iftitah təkbirini gətirmədən qılınan namaz qəbul edilmədiyi halda keçid təkbirlərini unudan şəxsin namazı etibarlı sayılır. Çünki intiqal təkbirləri namazın sünnələrindən olan bir əməldir.

Son dövrün seçkin alimlərindən Məhəmməd Zahid əl-Kövsəri təkbirlərdə əllərin qaldırılıb-qaldırılmaması məsələsində belə dəyərləndirmə etmişdir: “Əllərini qaldırmamaq səhih və açıq sünnəyə zidd deyildir. Əllərin qaldırılıb-qaldırılmaması məsələsindəki dəlillərin demək olar ki,

186. Əbu Davud, “Sünən” 748.
187. Tirmizi, “Sünən” 257.
188. Təhavi, “Şərhu məanil-asar”, I, 225.

hamısı eyni dərəcədədir”. Odur ki, əlləri qaldırıb-qaldırmamaq məsələsi elə də ciddi münaqişə və ixtilafa səbəb təşkil edən səviyyədə məsələlərdən deyildir.

### F. Rüku və səcdə

Uca Allah Qurani-Kərimdə: “**Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız!”**[189] - buyuraraq namazlarımızda rüku və səcdələrin əhəmiyyətinə diqqət çəkmişdir. Namazın fərzlərindən olan bu hərəkətləri tərk etmək namazı batil etdiyi kimi, nöqsan yerinə yetirmək də namazın kamilliyinə xələl gətirir.

### 1. Rüku ilə əlaqəli məsələlər

**HƏDİS**:

عَنْ وَائِلِ بْنِ حُجْرٍ، قَالَ: رَأَيْتُ رَسُولَ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا رَكَعَ , وَضَعَ يَدَيْهِ عَلَى رُكْبَتَيْه

Vail ibn Hücr belə rəvayət etmişdir: “Rəsulullahın (s.ə.s) rükuda əllərini diz qapaqlarının üzərinə qoyduğunu gördüm”.[190]

**ŞƏRH:**

Namazı kamilləşdirən əməllərdən biri də şübhəsiz ki, namaza aid hərəkətlərin düzgün yerinə yetirilməsidir. Odur ki, hərəkətlərimiz Hz. Peyğəmbərin (s.ə.s) hərəkətləri ilə nə qədər uyğunlaşarsa o namazımız bir o qədər kamil olar.

189. əl-Həcc, 22/77
190. Əbu Davud, “Sünən”, 726; Təhavi, “Şərhu məanil-asar”, 1375

Qiyamdan sonra əyilməyə rüku deyilir. Namazda qiraət oxunduqdan sonra təkbir gətirilərək rükuya gedilir. Rükuda əllər diz qapaqlarının üzərinə qoyulmalı və dairəvi şəkildə əhatə edilməlidir. Əbu Davudun "Sünən" adlı əsərində nəql etdiyi rəvayətə əsasən Hz. Peyğəmbər (s.ə.s) rükuda əllərini dizlərinin üzərinə qoyar, barmaq uclarını isə diz qapaqlarının altına, ayaqlarına sarı uzadardı.[191]

Rükuda belin düz olması hətta üzərinə su töküləndə suyun dağılmayacağı səviyyədə düz olması tövsiyə edilmişdir. Əbu Büzrə əl-Əsləmi bir rəvayətdə "Rəsulullah (s.ə.s) rükuda ikən əgər onun kürəyinə su dolu qab qoyulsaydı dağılmazdı",[192] – deyərək buna diqqət cəlb etmişdir.

Rükudan qalxmaq üçün "**səmiallahu limən hamidəh**"[193] deyilməlidir. Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "İmam *"səmiallahu limən hamidəh"* - dedikdə ona tabe olanlar *"Rabbənə ləkəl həmd"*[194] - desin. *Kimin bu sözü mələklərin duasına təsadüf edərsə, keçmiş günahları bağışlanar*".[195] Odur ki, imamla namazda iştirak edənin "**Rabbənə ləkəl həmd**" duasını söyləməsi kifayətdir.

Bu məsələdə diqqət edilməli olan digər məsələ də rükudan qalxanda qaməti tam düzləşdirmək sonra səcdəyə getməkdir. Çünki "tədili-ərkan" namazın ən önəmli məsələlərindən biridir.

---

191. Əbu Davud, "Sünən", 873; Təhavi, "Şərhu məanil-asar", 1372.
192. Təbərani, "Möcəm", 5676; İbn Macə, "Sünən", 872.
193. Allah həmd edənləri eşidir.
194. Bütün həmdimiz Rəbbimiz üçündür.
195. Buxari, "Səhih", 796; Müslim, "Səhih", 409.

## 2. Səcdə necə edilməlidir?

**HƏDİS:**

عَنْ وَائِلِ بْنِ حُجْرٍ، قَالَ: رَأَيْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا سَجَدَ وَضَعَ رُكْبَتَيْهِ قَبْلَ يَدَيْهِ، وَإِذَا قَامَ مِنَ السُّجُودِ رَفَعَ يَدَيْهِ قَبْلَ رُكْبَتَيْهِ

Vail ibn Hücrdan rəvayət edildiyinə görə o belə demişdir: "Nəbini (s.ə.s) səcdəyə gedərkən dizlərini əllərindən öncə qoyarkən, səcdədən qalxarkən isə dizlərindən öncə əllərini qaldırarkən gördüm".[196]

**ŞƏRH:**

Rükudan qalxdıqdan sonra alının yerə qoyulmasına səcdə deyilir. Səcdə namazın ən önəmli fərzlərindən biridir. Rəsulullah (s.ə.s) hədislərində səcdənin alın, əllər, dizlər və ayaq barmaqları olmaqla bədənin yeddi üzvü ilə edildiyini bildirmişdir.[197] Bəzi rəvayətdə burun da qeyd edilmişdir.[198] Abdullah ibn Abbasdan gələn rəvayətə görə, kim burnunu alnı ilə birlikdə yerə qoymasa, onun namazı nöqsan sayılır.[199]

Səcdəyə gedərkən əvvəla dizlər, sonra əllər, sonra burun, sonra da alın qoyulur. Səcdədən qalxarkən də, ilk alın, sonra burun, əllər və ən sonda da dizlər qaldırılır.

Yuxarıda qeyd olunan hədisin Tirmizi məqbul hədis sinfindən olan "həsən" dərəcəsində olduğunu söyləmişdir. Həmçinin elm əhlinin əksəriyyətinin əməlinin bu

---

196. Əbu Davud, "Sünən" 838; İbn Macə, "Sünən" 882.
197. Müslim, "Səhih" 490.
198. Buxari, "Səhih" 812.
199. Təbərani, "Möcəm əl-kəbir", 11917.

yöndə olduğunu qeyd etmişdir.[200] Yəni səcdəyə gedərkən əvvəl dizlər yerə qoyulmalıdır.

Səcdəyə gedərkən dizlərin və yaxud əllərin öncə qoyulması ilə əlaqəli iki fərqli rəvayət vardır. Əbu Hüreyrədən rəvayət edilən hədis[201] daha sonra Müsab ibn Səd tərəfindən rəvayət edilən "Biz ilk vaxtlardan səcdəyə gedərkən iki əlimizi iki dizimizdən əvvəl qoyardıq, ancaq sonra dizlərimizi əllərimizdən əvvəl qoyulmaq əmr olundu" hədisi ilə nəsx[202] edilmişdir.[203] Şərh alimi Xəttabi bu məsələdə Vail ibn Hücrün (mövzunun əvvəlində mətni qeyd olunan hədis) rəvayətinin daha səhih olduğunu söyləmişdir.[204] İbn Qeyyim da Müsəb ibn Sədin hədisinin on cəhətdən Əbu Hüreyrənin rəvayət etdiyi hədisdən üstün olduğunu öz əsərində qeyd etmişdir.[205]

Səcdə alın ilə iki əl arasında edilməlidir.[206] Əllər qulaq səviyyəsində,[207] barmaqlar isə qibləyə tərəf olmalıdır. Ayaq barmaqları da qibləyə yönəlməlidir.[208] Alın səcdədə

200. Tirmizi, "Sünən" 268.
201. "Səcdəyə gedərkən dəvə kimi çökməyin, öncə əlləri sonra dizləri yerə qoyun". (Əbu Davud, "Sünən" 840)
202. Nəsx sonra qoyulan hökmlə əvvəlki hökmün ləğv edilməsidir.
203. İbn Xüzeymə, "Səhih ibn Xüzeymə", 628; Əbu Davud ət-Təyalisi, "Sünən", 204; Beyhaqi, "Sünən əl-kübra", 2637; Bəğəvi, "Şərh əs-Sünnə", 643; Münavi, "Feyz əl-qədir şərhu əl-cami əs-səğir", c. 1, s. 373. (hədis no 673).
204. Yeniel Necati, Kayapınar Hüseyin, "Süneni Əbu Davud şerhi", c. 1 s. 316.
205. İbn Qeyyim, "Zad əl-məad", c. 1, s. 56-59.
206. Əbu İshaqdan rəvayət edildiyinə görə o, bir gün Bəra ibn Azibdən belə soruşdu: Allah Rasulu (s.ə.s) səcdə edəndə alnını hara qoyardı? O da: "İki əlinin arasına qoyardı" cavabını verdi. (Tirmizi, "Sünən", 366)
207. Vail ibn Hücr Hz. Peyğəmbəri namaz qılarkən izlədiyini və səcdədə əllərini qulaqları səviyyəsində tutduğunu gördüyünü rəvayət etmişdir. (Əbdürrəzzaq, "Müsənnəf", 2948)
208. Buxari, "Səhih", 642.

olarkən bir anlıq belə olsa ayaq yerə dəyməzsə səcdə yerinə yetirilməmiş sayılır və namaz pozulur.

Hz. Peyğəmbər (s.ə.s) səcdədə qarnını dizlərindən (baldırlarından) aralı tutar və əllərini vücuduna birləşdirməzdi. Hz. Meymunədən rəvayət edildiyinə görə o belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s) namaz qılarkən qollarını o qədər aralı tutardı ki, aralarından quzu keçmək istəsə keçə bilərdi.[209] Bir rəvayətdə də Hz Peyğəmbər (s.ə.s): "Səcdələrinizdə mötədil olun. Dirsəklərinizi köpəklərin yaydığı kimi yaymayın (yerə yapışdırmayın)"[210] - buyuraraq səcdədə dirsəklərin yerə qoyulmasını qadağan etmişdir. Odur ki, kişilər səcdədə qarnını dizlərindən, dirsəklərini də yerdən aralı tutmalıdırlar.

Qadınlar isə kişilərin əksinə gücü nisbətində qarnını dizlərə (baldırlara) birləşdirməli, dirsəklərini də yerə qoymalıdırlar.[211]

Səcdədə diqqət ediləcək məsələlərdən biri də, səcdədən qalxarkən birbaşa qalxmaqdır.[212] Bir miqdar oturmaq və yaxud əllərin köməyi ilə qalxmaq (üzrlü səbəb istisna olmaqla) uyğun davranış hesab edilməmişdir.[213]

---

209. Müslim, "Səhih", 496; Nəsai, "Sünən", 1109.
210. Müslim, "Səhih", 493; Buxari "Səhih", 532.
211. Hz. Əlidən rəvayət edildiyinə görə o belə demişdir: "Bir qadın səcdə edəcəyi zaman dizlərini qarnına birləşdirsin". Əbdürrəzzaq Sənani, "Müsənnəf", 5072; 5068; İbn Əbu Şeybə, "Müsənnəf", 2793.
212. İbn Hibban, "Səhih" , 1866.
213. Əbu Davud, "Sünən", 992; Beyhəqi, "Sünən", 2807.

**G. Tədili-ərkan**

"Tədili-ərkan" namazın bütün rüknlərini düzgün, tam yerinə yetirmək deməkdir. Yəni namazda rüku, rükudan sonra qiyam (ayaq üstə dayanma), səcdə və iki səcdə arası oturuşu layiqincə, tam şəkildə və yerli-yerində etməyə tədili-ərkan deyilir. Bu sözün əvəzinə "etidal" və "itminan" sözləri də işlədilir.

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ دَخَلَ الْمَسْجِدَ، فَدَخَلَ رَجُلٌ، فَصَلَّى ثُمَّ جَاءَ فَسَلَّمَ عَلَى رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَرَدَّ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَلَيْهِ السَّلاَمَ، وَقَالَ: «ارْجِعْ فَصَلِّ، فَإِنَّكَ لَمْ تُصَلِّ»، فَرَجَعَ الرَّجُلُ، فَصَلَّى كَمَا كَانَ صَلَّى، ثُمَّ جَاءَ إِلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَسَلَّمَ عَلَيْهِ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «وَعَلَيْكَ السَّلاَمُ»، ثُمَّ قَالَ: «ارْجِعْ فَصَلِّ، فَإِنَّكَ لَمْ تُصَلِّ»، حَتَّى فَعَلَ ذَلِكَ ثَلاَثَ مِرَارٍ، فَقَالَ الرَّجُلُ: وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ، مَا أُحْسِنُ غَيْرَ هَذَا فَعَلِّمْنِي، قَالَ: «إِذَا قُمْتَ إِلَى الصَّلاَةِ فَكَبِّرْ، ثُمَّ اقْرَأْ مَا تَيَسَّرَ مَعَكَ مِنَ الْقُرْآنِ، ثُمَّ ارْكَعْ حَتَّى تَطْمَئِنَّ رَاكِعًا، ثُمَّ ارْفَعْ حَتَّى تَعْتَدِلَ قَائِمًا، ثُمَّ اسْجُدْ حَتَّى تَطْمَئِنَّ سَاجِدًا، ثُمَّ اجْلِسْ حَتَّى تَطْمَئِنَّ جَالِسًا، ثُمَّ افْعَلْ ذَلِكَ فِي صَلاَتِكَ كُلِّهَا»

Əbu Hüreyrədən rəvayət edildiyinə görə: "Bir gün Hz. Peyğəmbər (s.ə.s) məscidə girdi. Bu əsnada başqa bir

adam da məscidə daxil oldu. Tədili-ərkana riayət etmədən (tələsik) namaz qıldı. Sonra yaxınlaşdı və salam verdi. Hz. Peyğəmbər (s.ə.s) salamını aldıqdan sonra: "*Qayıt, namazını təkrar qıl, çünki sən namaz qılmadın*," – buyurdu. Adam qayıtdı və yenidən əvvəl qıldığı şəkildə namazını qıldı. Hz. Peyğəmbərin (s.ə.s) yanına qayıdanda yenə: "*Qayıt, namazını təkrar qıl, çünki sən namaz qılmadın*", – dedi. Bu hadisə üç dəfə təkrar olundu və üçüncüdə həmin adam: "Ya Rəsuləllah! Səni haqq peyğəmbər olaraq göndərən Allaha and olsun ki, bundan yaxşı qıla bilmirəm, mənə doğru namaz qılmağı öyrət", – dedi. Peyğəmbərimiz (s.ə.s) də: "*...Namaza başlarkən təkbir gətir. Sonra Qurandan sənə asan gələn bir surə (ayə) oxu, sonra bədənin sükunət tapana qədər rükuda dayan, sonra rükudan qalxıb ayaq üstə dayanaraq belini tam dikəlt, ardınca səcdəyə get, bədənin sükunət tapana qədər səcdədə qal və sonra başını qaldırıb belini dikəlt (tam otur) və bütün rükətlərdə buna riayət et*", – buyurdu.[214]

**ŞƏRH:**

Namazda diqqət yetirilməyən xüsuslardan biri də tədili-ərkandır. Tədili-ərkanın nöqsan olması namazı batil edən xüsuslardandır. Namazda tələsmək Allahın hüzurundan qaçmaq mənasına gəlir. Namazın tez-tələsik qılınması qiyam, rüku, səcdə və oturuş kimi rüknlərin nöqsanlı olmasına, başqa sözlə, tədili-ərkanın pozulmasına gətirib çıxarır. Bilərək tədili-ərkana riayət etməyənlərin namazı yenidən qılmaları məsləhətdir. Tədili-ərkan namazın vaciblərindən qəbul edildiyinə[215] görə buna riayət olunmadığı təqdirdə ən azı namazın sonunda səhv səcdəsi edilməlidir.

214. Buxari "Səhih", 757; Əbu Davud, "Sünən", 856; Əhməd ibn Hənbəl, "Müsnəd", 9635.
215. Əli əl-Qari, "Mirqat əl-məfatih", c. 2, s. 482.

Tədili-ərkana riayət etmədən qılınan namaz ancaq şeytanı sevindirər. Axirətdə də belə qılınan namazlar üzümüzə çırpılacaqdır. Bir hədisdə belə buyurulur: "Xüşu ilə qılınmayan, rüku və səcdələri tam yerinə yetirilməyən namaz (axirətdə) qatı qaranlıq halında peyda olacaq və sahibinə "Məni hədər etdiyin kimi Allah da səni hədər etsin", - deyəcək. Allahın dilədiyi vaxt gələndə bu cür qılınan namazlar köhnəlmiş paltarlar kimi bükülüb sahibinin üzünə çırpılacaq".[216]

Əbu Məsud əl-Bədridən gələn rəvayətə görə, Hz. Peyğəmbər (s.ə.s) tələsmədən, haqqını verərək qılınan namazı belə tərif etmişdir: "*Sizdən biri rüku və səcdələrdə belini tam düzləşdirmədikcə (doğrultmadan) namaz naqis olar*".[217]

Tədili-ərkana diqqət yetirməmək namazın dərəcəsini və savabını azaldır. Hz. Peyğəmbərin (s.ə.s) buyurduğu kimi: "*Adam namaz qılar ancaq ona namazın savabının 1/10-i yazılar. Eləsi də var ki, ona namazının savabının 1/9, 1/8, 1/7, 1/6, 1/5, 1/4, 1/3 və yaxud yarısı qədəri yazılır."*[218] Nöqsan hərəkətlərlə qılınan namaz onun həm savabına, həm də xüşusuna xələl gətirər.

Hz. Peyğəmbər (s.ə.s) tədili-ərkana riayət etməyənləri namaz oğruları adlandırır. Əbu Qətadədən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s) bir gün: "*Ən pis oğru namaz oğrusudur,*"-dedi. Ətrafındakı səhabələr: "*Namaz oğrusu necə olur*?" - deyərək təəccüblə soruşdular. Hz. Peyğəmbər (s.ə.s) də: "*Namazda rüku və səcdəsini tam*

216. Təbərani, "əl-Möcəm əl-övsat", c. 8, s. 183.
217. Əbu Davud, "Sünən", 855; Tirmizi, "Sünən", 265; Nəsai, "Sünən", 183.
218. Əbu Davud, "Sünən", 796.

*yerinə yetirməz. Rüku və səcdədən qalxarkən belini doğrultmaz*”[219]- deyərək namaz oğrusunu təsvir etdi.

İmamla namaz qılanlar da xüsusilə imamdan əvvəl hərəkət etməməyə diqqət yetirməlidir. İmam intiqal (keçid) təkbirini gətirmədən keçidləri etməməlidir. Hz. Peyğəmbər (s.ə.s) bu əməldən qətiyyətlə çəkindirmişdir. Belə ki, Hz. Peyğəmbər (s.ə.s) bir hədisdə belə buyurmuşdur: “*İmamdan əvvəl başını (rükudan və ya səcdədən) qaldıran insan qorxmurmu ki, Uca Allah onun başını və ya üzünü uzunqulaq başı və ya üzünə çevirər?!*”.[220]

Hədisdə namazın şərtlərinə zidd hərəkətlər heyvani hərəkətlərə bənzədilərək təmsillə ifadə edilmişdir. Deməli, imamdan əvvəl hərəkət etmək qulluqda həddini aşma mənasına gəlir. Odur ki, namaz həm daxili (batini), həm də fiziki (zahiri) hərəkətləri ilə bütöv ibadətdir.

219. Əhməd ibn Hənbəl, “Müsnəd”, 11553, 23009; Darəqutni, “Sünən”, 1367.
220. Buxari, “Səhih”, 691; Müslim, “Səhih”, 114.

## H. Namazda oturuş

Namazda oturuşa "qadə" deyilir. Namazların ikinci və sonuncu rükətlərində müəyyən qədər oturmaq qadə adlanır. "Qadə "sözünün əvəzinə "quud" sözü də işlənir.

Üç və dörd rükətli namazların ikinci rükətindəki oturuş "qadeyi-ulə", sonuncu rükətindəki oturuş isə "qadeyi-axirə" adlanır. İki rükətli namazlardakı oturuş da qadeyi-axirə sayılır. Qadeyi-axirə namazın sonunda bir müddət (təşəhhüd miqdarı) oturub gözləmək namazın rüknlərindən biridir. İki rükətlik namazların oturuşu (daha əvvəl oturuş olmadığı üçün), üç rükətli namazlarda üçüncü rükət, dörd rükətlilərdə də dördüncü rükət qadeyi-axirə (son oturuş) sayılır.

### 1. Oturuş necə olmalıdır?

**HƏDİS:**

عَنْ عَبْدِ اللَّهِ وَهُوَ ابْنُ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، عَنْ أَبِيهِ قَالَ: مِنْ سُنَّةِ الصَّلاَةِ أَنْ تَنْصِبَ الْقَدَمَ الْيُمْنَى، وَاسْتِقْبَالُهُ بِأَصَابِعِهَا الْقِبْلَةَ وَالْجُلُوسُ عَلَى الْيُسْرَى

Abdullah ibn Ömərin oğlu Abdullah atasından belə nəql etmişdir: "Sağ ayağını dik tutmaq və barmaqlarını qibləyə tərəf çevirmək və sol ayağın üstündə oturmaq namazın sünnələrindən biridir".[221]

**ŞƏRH:**

Namazda oturmanın fərqli şəkil və izahları olmaqla yanaşı ən münasib şəkli bu hədisdə qeyd olunmuşdur. Sağlamlığı ilə əlaqəli hər hansı problemi yoxdursa, sol

221. Nəsai, "Sünən" 1158; Əbu Davud, "Sünən" 958; İmam Malik, "Müvəttə", 51.

ayağının üzərinə oturmaq və sağ ayağını dik tutmaq rahatladıcı mahiyyət daşıyır. Bu oturuş şəklinə "iftiraş" da deyilir.

Oturuşda əllər budların üzərinə qoyulmalıdır. İbn Ömərdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) təşəhhüdə oturduğu zaman sol əlini sol dizinin, sağ əlini sağ dizinin, üstünə qoyardı. "Əlli üç" işarəsi edərək şəhadət barmağı ilə də işarə edərdi".[222]

Qadınlar isə, sol yanları üzərində oturaraq hər iki ayağını sağ tərəfdən çıxarmalıdır. Buna "təvərrük" deyilir. Ayağını sağ tərəfə çıxarmaqda çətinlik çəkən qadın, sol tərəfə də çıxara və ya ona rahat olan şəkildə otura bilər.

İlk oturma, yəni üç və ya dörd rükətli namazlarda ikinci rükətdən sonrakı oturuş ilə son oturuş arasında heç bir fərq yoxdur. Hər ikisində oturma şəkli eynidir.

### 2. Oturuşda hansı dualar oxunmalıdır?

**HƏDİS:**

عَنْ عَبْدِ اللَّهِ بْنَ مَسْعُودٍ، يَقُولُ: عَلَّمَنِي رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ التَّشَهُّدَ - كَفِّي بَيْنَ كَفَّيْهِ - كَمَا يُعَلِّمُنِي السُّورَةَ مِنَ الْقُرْآنِ «التَّحِيَّاتُ لِلَّهِ، وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

Abdullah ibn Məsuddan rəvayət edildiyinə görə o belə demişdir: "Rəsulullah (s.ə.s) ovuclarım Onun (s.ə.s)

222. Nəsai, "Sünən" 1159; Müslim, "Səhih" 580.

ovucları içində ikən "əttəhiyyatu" duasını Qurani-Kərimdən bir surə öyrədər kimi öyrətdi". Hz. Peyğəmbər (s.ə.s) belə buyurdu: "*ət-təhiyyətu lilləhi vəssaləvətu vəttayyibət. Əssələmu aleykə əyyuhən nəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu aleynə və alə ibədilləhis-salihin. Əşhədu ən-ləiləhə illəllah və əşhədu ənnə Muhammədən abduhu və rasuluh*".[223]

**ŞƏRH:**

Mühəddis Tirmizi təşəhhüd barəsində ən səhih hədisin İbn Məsuddan rəvayət edilən bu hədisin olduğunu söyləmişdir. Səhabə və tabeun böyüklərinin əksəriyyəti də bu hədisə əməl etmişdir.[224]

Təşəhhüdün səssiz şəkildə oxunması sünnədir.[225] Həmçinin təşəhhüddə sağ əlin şəhadət barmağını qaldırmaq da sünnədir. Bu barədə alimlər arasında ixtilaf yoxdur.

Abdullah ibn Zübeyrdən rəvayət edildiyinə görə: "Allah Rasulu (s.ə.s) təşəhüddə barmağı ilə (şəhadət barmağı ilə) işarə edər, ancaq barmağını hərəkət etdirməzdi".[226] Bu mövzuda qəbul edilmiş əsas görüşə görə təşəhhüddə tövhidə gəldikdə sağ əl yumulur işarə barmağı "Lə ilahə" deyərkən qaldırılır, "illəllah" deyərkən endirilir.[227] Ancaq

---

223. Buxari, "Səhih" 1202; 6265; Müslim "Səhih" 402.
Mənası: Bütün təriflər və (dil, bədən və mal ilə edilən) ibadətlər yalnız Allah üçündür. Ey məqamı uca olan Nəbi Muhamməd! Allahın mərhəməti, bərəkəti və salamı Sənə olsun. Salam və salamatlıq bizə və Allahın yaxşı qullarına olsun! Şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur, yenə şahidlik edirəm ki, Muhamməd Onun qulu və Rəsuludur.
224. Tirmizi "Sünən", 289. Əlbani də bu hədisin səhih olduğunu söyləmişdir.
225. Əbu Davud, "Sünən", 986.
226. Əbu Davud, "Sünən", 988.
227. Əli əl-Qari, "Mirqat əl-məfatih", Beyrut 2007, c. 2, s. 575.

barmaq qaldırmağın digər fərqli formaları da vardır ki, onlar da sünnə olaraq qəbul edilmişdir.

Üç və dörd rükətli namazlarda ikinci rükətdən sonra oturulur və təkcə "təhiyyat" duası oxunur. Hz. Aişədən rəvayət edildiyinə görə Allah Rasulu (s.ə.s) ilk iki rükətdə təşəhhüdə bir şey əlavə etməzdi.[228] Ancaq son oturuşda (qədeyi-axirə) "təhiyyat" duasından sonra başqa duaların (Hz. Peyğəmbərə salavatların) oxunması da tövsiyə edilmişdir. Bu baxımdan dua məqsədi ilə Peyğəmbərə (s.ə.s) salavat oxumaq sünnədir. Bəs salavat necə oxunur? Əbu Məsud əl-Bədrinin rəvayət etdiyinə görə: "Biz Səd ibn Übadənin yanında idik, bu vaxt Allah Rəsulu (s.ə.s) yanımıza gəldi. Bəşir ibn Səd: "Ya Rəsuləllah! Allah Sənə salavat gətirməyi əmr etdi. Yaxşı, necə salavat gətirməliyik?" – deyə soruşdu. Allah Rəsulu (s.ə.s) bir qədər səssiz dayandı. O qədər sükut etdi ki, öz-özümüzə: "Kaş soruşmayaydı," – dedim. Sonra Allah Rəsulu (s.ə.s): "*Siz belə salavat gətirin*: *"Allahummə salli alə Muhammədin və alə əli Muhamməd, kəmə salleytə alə əli İbrahim və bərik alə Muhammədin və alə ali Muhamməd, kəmə bəraktə alə ali İbrahim, innəkə hamidun məcid",* – dedi və ardınca da: "Salam da bildiyiniz kimidir", – buyurdu".[229] Odur ki, "Əttəhiyyatu" duasını oxuduqdan sonra bu şəkildə salavat çəkmək daha düzgün olar. Çünki salavat çəkmək həm savab əməldir, həm də günahların bağışlanmasına səbəbdir. Belə ki, Ənəs ibn Malikdən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Kim mənə bir dəfə salavat gətirərsə, Allah ona on dəfə salavat deyər, on günahı silinər və mərtəbəsi on dərəcə yüksəldilər*"[230].

---

228. İbn Əbu Şeybə, "Müsənnəf", 3021; Əbu Yala, "Müsnəd", 4373.
229. Müslim, "Səhih", 405; Buxari, "Səhih", 6360.
230. Nəsai, "Sünən", 1297; Beyhaqi, "Şuab əl-iman", 1554.

Bununla yanaşı başqa dualar da oxumaq olar. Məsələn Əbu Hüreyrədən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "Sizdən biriniz son təşəhhüdü bitirdikdən sonra Allaha bu dörd şeydən pənah aparsın:

1. Cəhənnəm əzabından,
2. Qəbir əzabından,
3. Ölü və canlıların fitnəsindən
4. Məsih Dəccalın fitnəsindən".[231]

Həmçinin Hz. Əbu Bəkr Siddiqin oxuduğu bu duanı da əlavə etmək olar. Belə ki, bir gün Hz. Əbu Bəkr Hz. Peyğəmbərdən (s.ə.s) namazda oxumaq üçün ona dua öyrətməsini istəyir. Hz. Peyğəmbər (s.ə.s) də ona belə deməsini söylədi[232]: "*Allahım! Mən nəfsimə çox zülm etdim. Günahları bağışlayan ancaq Sənsən. Məni bağışla və rəhm et! Şübhəsiz, Sən bağışlayan və mərhəmətlisən*".[233]

### 3. Namazda salam necə verilir?

**HƏDİS:**

عَنْ عَبْدِ اللَّهِ بْنَ مَسْعُودٍ أَنَّ النَّبِىَّ –صلى الله عليه وسلم– كَانَ يُسَلِّمُ عَنْ يَمِينِهِ وَعَنْ شِمَالِهِ حَتَّى يُرَى بَيَاضُ خَدِّهِ السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ

Abdullah ibn Məsuddan rəvayət edildiyinə görə "Rəsulullah (s.ə.s) namazda sağ və sol tərəfinə yanağı görünənə qədər dönərək "Əssələmu aleykum və rahmətul-

---

231. Müslim, "Səhih", 588; Əbu Davud "Sünən", 983.
232. اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلَا يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ، وَارْحَمْنِي إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيمُ
233. Buxari, "Səhih", 834; Müslim "Səhih", 2705.

lah, Əssələmu aleykum və rahmətullah”- deyərək salam verərdi”.[234]

**ŞƏRH:**

Namazın sonunda salamın verilməsi namazın bitdiyini göstərir. Belə ki, Hz. Əlinin rəvayət etdiyinə görə Hz. Peyğəmbər (s.ə.s): “*Namazın açarı təmizlik, haram edəni təkbir, halal edəni də salamdır*”,[235] - buyurmuşdur.

Hədisdən aydın olur ki, istər camaatla, istərsə də fərdi olsun namaz qılan hər bir müsəlman sonunda bir dəfə sağ, bir dəfə də sol tərəfinə salam verməlidir. Odur ki, hər iki tərəfə “əs-Sələmu aleykum  və rəhmətullah” deyərək salam vermək sünnədir. Fərqli şəkilləri olsa da, (əs-Sələmu aleykum, Sələmun aleykum) sünnəyə müvafiq olan salam şəkli qeyd edildiyi kimidir.

Salamda sağa və sola yönəlmənin həddi yanağın görünəcəyi qədərdir. Amr ibn Səd atasının belə dediyini rəvayət etmişdir: “Rəsulullahı yanağının ağı görünəcək şəkildə sağına və soluna salam verərkən gördüm”.[236]

Fiqh alimlərinə görə, sağ tərəfə verilən salam vacib, sol tərəfə verilən salam isə sünnədir.

---

234. Əbu Davud, “Sünən”, 996; İbn Macə, “Sünən”, 914.
235. Əbu Davud, “Sünən”, 61; Tirmizi, “Sünən”, 3.
236. Müslim, “Səhih”, 582.

## III. BEŞ VAXT NAMAZIN NAFİLƏLƏRİ

Allah tərəfindən fərz buyurulan beş vaxt namaz və vacib namazlardan əlavə qılınan namazlara nafilə namazlar deyilir. Hz. Peyğəmbər (s.ə.s) müxtəlif vaxtlarda, günlərdə nafilə namazlar qıldığı kimi, fərz namazlarına başlamadan və yaxud qıldıqdan sonra nafilə namazlar qılmışdır. Sünnə sayılan nafilələr Allah Rəsulunun (s.ə.s) daim qıldığı namazlardır. Rəsulullahın (s.ə.s) bəzən bunları tərk etməsinin səbəbi insanlara fərz olmadığını bildirmək idi.

Bir çox hədisdə nafilə namazın əhəmiyyəti açıq şəkildə bəyan edilmişdir. Məsələn bir qüdsi hədisdə belə buyurulmuşdur: "*Kim mənim vəli (xalis, xas) quluma düşmənçilik edərsə, Mən də ona qarşı hərb elan edərəm. Qulum fərz buyurduğum şeylərdən daha sevimli heç bir şeylə Mənə yaxınlaşa bilməz. Qulum (fərzlərə əlavə olaraq etdiyi) nafilə ibadətlərlə Mənə yaxınlaşar, nəhayət, Mən də onu sevərəm. Onu sevəndə də onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Belə bir qulun Məndən istədiyini şübhəsiz verərəm. Mənə sığınarsa, onu qoruyub himayə edərəm*".[237]

Nafilə namazlar o qədər əhəmiyyətlidir ki, qiyamət günündə Allah qullarını hesaba çəkərkən ilk sorğu-sual namazdan olacaqdır. Fərz namazlardakı əskiklər nafilə namazla ilə əvəz ediləcəkdir. Əbu Hüreyrədən rəvayət edilən hədisə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuş-

---

237. Buxari, "Səhih", 6502.

dur: "*Qiyamət günü qulun hesaba çəkiləcəyi ilk əməl namazıdır. Əgər namazı doğru olarsa, o kimsə qurtular və nicat tapar. Əgər namazı zay olarsa, o kimsə uğursuzluğa və bədbəxtliyə düçar olar. Əgər qulun fərz namazlarından bir şey naqis gələrsə, Allah buyurar: "Baxın qulumun nafilə namazları varmı?" (Əgər olarsa,) O namazlarla fərzlərdən qalan nöqsanlar tamamlanar. Sonra digər əməlləri də bunun kimi olar*".[238] Deməli, sünnə namazlar fərzlərdə buraxılan nöqsanları tamamlayıcı mahiyyət daşıyır. Bu namazlar həm də insanın diqqətinin fərz namaza yönəlməsini təmin edir.

Sünnə namazların rükətlərinin sayı belədir: sübh namazının iki rükət sünnəsi, günorta namazının dörd rükət ilk və iki rükət son sünnəsi, ikindi namazının dörd rükət sünnəsi, axşam namazının iki rükət sünnəsi və işa namazının dörd rükət ilk və iki rükət son sünnəsi.

Fərz namazlardan əvvəl və sonra qılınan sünnə namazlara "rəvatib" də deyilir. Bunlardan sübh, günorta, axşam namazları ilə yatsı namazının son sünnəsi "müəkkəd",[239] ikindi və işa namazlarından əvvəl qılınan sünnələr isə "qeyri-müəkkəd"[240] sünnə və ya müstəhəb, məndub namazlar adlanır.

---

238. Tirmizi, "Sünən", 413; Nəsai, "Sünən", 466.
239. Müəkkəd sünnə Hz. Peyğəmbərin (s.ə.s) daim qıldığı, nadir hallarda tərk etdiyi sünnə namazlardır. Bunlar sübh namazından əvvəl qılınan iki rükət, zöhr namazından öncə qılınan dörd və sonra qılınan iki rükət, məğrib və işa namazlarından sonra qılınan iki rükət sünnə namazlarıdır.
240. Hz. Peyğəmbərin (s.ə.s) çox vaxt qıldığı, ancaq bəzən tərk etdiyi sünnə namazlardır. Bunlar əsr və işa namazından öncə qılınan sünnələrdir. (Bu namazlarla əlaqəli məlumat irəlidə veriləcəkdir.)

### A. Sübh namazının sünnəsi

**HƏDİS:**

عَنْ عَائِشَةَ، عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، قَالَ: «رَكْعَتَا الْفَجْرِ خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا

Hz. Aişədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Sübh namazının iki rükət sünnəsi dünya və dünyada olan hər şeydən daha xeyirlidir*[241]",

**ŞƏRH:**

Nafilə namazlar arasında Hz. Peyğəmbərin (s.ə.s) ən çox dəyər verdiyi namazların başında sübh namazının iki rükət sünnəsi gəlir. Hz. Peyğəmbər (s.ə.s) hədislərin birində: "*Sizi atlar qovsa da sübh namazının iki rükət sünnəsini tərk etməyin*"[242], – deyərək buna diqqət cəlb etmişdir.

Digər nafilə (sünnə) namazlardan fərqli olaraq əgər müəyyən səbəblərdən sübh namazı qılınmazsa, kərahət vaxtına qədər, yəni zöhr namazına təqribən qırx beş dəqiqə qalana qədər sünnəsi ilə bərabər qəza edilir. Belə ki, Allah Rəsulu (s.ə.s) əshabı ilə Xeybər qəzvəsindən dönərkən yolda istirahət etmiş və sübh namazına qalxa bilməmişdi. Hz. Peyğəmbər (s.ə.s) oyandığı zaman günəş doğulandan sonra, öncə iki rükət (sünnə) namaz qılıb sonra fərzi qıldırdığı nəql edilmişdir.[243] Eyni zamanda bir şəxs sübh namazının sünnəsini qılmadan imam fərz namazına başlayarsa, ikinci rükətdə fərzinə çatacaqsa sünnəni qılmalıdır. Əgər fərzin ikinci rükətinə çatmayacağını anlayarsa, sünnəni tərk edərək imama tabe olar, lakin fərzdən sonra sünnəni qəza etməz.

---

241. Müslim, "Səhih", 725; Nəsai, "Sünən", 1759.
242. Əbu Davud, "Sünən", 1258.
243. Əbu Davud, "Sünən", 435-444.

### B. Zöhr namazının sünnələri

### 1. Zöhr namazının ilk sünnəsi neçə rükətdir?

**HƏDİS:**

عَنْ قَابُوسَ، عَنْ أَبِيهِ، قَالَ: أَرْسَلَ أَبِي إِلَى عَائِشَةَ: أَيُّ صَلاَةِ رَسُولِ اللهِ صلى الله عَليهِ وسَلمَ كَانَ أَحَبَّ إِلَيْهِ أَنْ يُوَاظِبَ عَلَيْهَا؟ قَالَتْ: كَانَ يُصَلِّي أَرْبَعًا قَبْلَ الظُّهْرِ، يُطِيلُ فِيهِنَّ الْقِيَامَ، وَيُحْسِنُ فِيهِنَّ الرُّكُوعَ وَالسُّجُودَ

Qabus atası Əbül-Məharikdən belə rəvayət nəql etmişdir:

Atam Hz. Aişəyə xəbər göndərərək soruşdu ki, Hz. Peyğəmbərin (s.ə.s) daim qılmaqdan xoşlandığı (sünnə) namaz hansıdır? Hz. Aişə belə dedi: "Rəsulullah (s.ə.s) zöhr namazından əvvəl dörd rükət qılardı. Qiyamını uzun tutardı. Rüku və səcdələrinə də etina göstərərdi".[244]

**ŞƏRH:**

Bu rəvayət Hz. Peyğəmbərin (s.ə.s) daim zöhr namazından əvvəl dörd rükət sünnə qıldığına dəlildir. Əbu Davudun rəvayət etdiyi hədisə görə, kim zöhrdən əvvəl qılınan bu namazı mühafizə edərsə (daim qılarsa), Allah ona cəhənnəm alovunu haram edər.[245]

Qılınan bu dörd rükət sünnə namazı bir salam ilə, yəni ikinci rükətdən sonra qalxaraq üç və dördüncü rükətləri qılmaqla yerinə yetirilmişdir. Belə ki, Əbu Əyyub əl-Ənsaridən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s)

---

244. İbn Macə, "Sünən", 1156;
245. Əbu Davud, "Sünən", 1269.

günorta vaxtında fərz namazından əvvəl dörd rükət namaz qılardı və dörd rükətin arasında salam verməzdi.[246]

Əgər müəyyən maneələrə və yaxud imamın fərz namazına başlaması kimi səbəbə görə zöhr namazının ilk dörd rükəti vaxtında qılınmazsa, zöhr namazının fərzi və son sunnəsi qılındıqdan sonra qəza edilər. Belə ki, Hz. Aişədən rəvayət edildiyinə görə, o belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s) zöhr namazının ilk sünnəsini qıla bilmədikdə onu zöhrün fərzindən sonra qılınan iki rükət namazdan sonra qılardı".[247] Bu da onu göstərir ki, fərz namazından əvvəl və yaxud sonra qılınan sünnələrə Hz. Peyğəmbər (s.ə.s) çox dəyər verirdi. Eyni zamanda hədisdən belə başa düşülür ki, sözügedən namazın vaxtı çıxmadan qılınmayan sünnə qılına bilər. Əsr namazı isə bundan istisnadır.

**2. Zöhr namazının son sünnəsi**

**HƏDİS:**

عَنْ عَلِيٍّ, قَالَ: كَانَ النَّبِيُّ صلى الله عَليه وسَلم يُصَلِّي قَبْلَ الظُّهْرِ أَرْبَعًا وَبَعْدَهَا رَكْعَتَيْنِ

Hz. Əlidən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) zöhr namazının fərzindən əvvəl dörd, sonra da iki rükət namaz qılardı.[248]

**ŞƏRH:**

Tirmizi bu hədisin dərəcəsinin "həsən" olduğunu qeyd etmişdir. Eyni zamanda elm əhlinin əksəriyyəti bu hədisə əməl etmişdir.

246. İbn Macə, "Sünən", 1157.
247. İbn Macə, "Sünən", 1158; Tirmizi, "Sünən", 426.
248. Tirmizi, "Sünən", 424.

Zöhr namazının son sünnəsinin əhəmiyyətli olduğunu göstərən bir neçə rəvayət vardır. Bu rəvayətlərin ümumi məzmununa nəzər yetirdikdə Hz. Peyğəmbərin (s.ə.s) əsr namazını qıldıqdan sonra iki rükət namaz qıldığı müşahidə edilir. Hz. Peyğəmbərin (s.ə.s) xanımları vasitəsi ilə qılınan bu namazın müəyyən məşğuliyyətlər (İslamı qəbul etmək üçün gələn qəbiləyə müəyyən məlumatların verilməsi) səbəbi ilə Hz. Peyğəmbərin (s.ə.s) qıla bilmədiyi zöhr namazının son sünnəsi olduğu müəyyən olur.[249] Yeri gəlmişkən onu da qeyd edək ki, bu rəvayət zöhr namazının son rükətinin önəmini göstərməklə yanaşı, alimlər ikindi namazından sonra nafilə namazının qəzasının qılınmasını "Xəsaisun-nəbi" olduğunu, yəni sadəcə Hz. Peyğəmbərə (s.ə.s) məxsus olduğunu ifadə etmişlər.[250]

İmam Təhavinin qeyd etdiyi rəvayətdə hədisin davamında bu əlavələr qeyd edilmişdir: Ümmü Sələmə "Ya Rəsuləllah! Bu iki rükətlik namazı biz də qəza edə bilərik mi? - deyə soruşmuş, Hz. Peyğəmbər (s.ə.s) də ona "*Xeyr*"- deyə cavab verrmişdir.[251] Beləliklə bu rəvayətlə Hz. Peyğəmbər (s.ə.s) günorta qılınan iki rükət namazı əsrdən sonra qılmağı qadağan etmişdir. Buna əsasən alimlər ikindi namazından sonra nafilə namazı qılınmaz demişlər.[252]

---

249. Rəvayət üçün bax. Əbu Davud, "Sünən", 1273.
250. Yeniel Necati, Kayapınar Hüseyin, "Sünen-i Ebu Davud Tercüme ve Şerhi", c. 5, s. 34.
251. Təhavi, "Şərhu məanil-asar", 1837.
252. Təhavi, "Şərhu məanil-asar", c. 1, s. 306.

## C. Əsr namazının sünnəsi

**HƏDİS:**

عَنِ ابْنِ عُمَرَ ، أَنَّ النَّبِيَّ صَلَّى اللّٰهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ : رَحِمَ اللّٰهُ امْرَأً صَلَّى قَبْلَ الْعَصْرِ أَرْبَعًا

Abdullah ibn Ömərdən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "Əsr namazının fərzindən əvvəl dörd rükət namaz qılana Allah rəhm etsin."[253]

**ŞƏRH:**

Əsr namazının ilk sünnəsi qeyri-müəkkəddir. Ancaq Peyğəmbər (s.ə.s) onu qılana xüsusi müjdələrin olduğunu xəbər vermişdir. Bunlardan biri də bu namazı qılana Allahın rəhmət və mərhəməti ilə müamilə etməsidir. Odur ki, əsr namazından əvvəl qılınan sünnəni tərk etmək, Allahın o namaza görə quluna bəxş edəcəyi rəhmət nəzərindən məhrum qalmaq deməkdir. Həqiqi mömin o kəsdir ki, bu cür fürsətləri fövtə verməsin. Gücü nisbətində ondan faydalansın. Qeyd olunan hədis buna təşviq edir.

Bu namazın fəziləti ilə əlaqəli Ümmü Həbibədən rəvayət edilən hədis çox diqqət çəkicidir. Rəvayətdə belə buyurulur: "Hər kim əsr namazından əvvəl qılınan dörd rükət namazda daim olarsa bunun müqabilində Allah ona cənnətdə bir ev (köşk) verər".[254]

Xeyirdə yarışan müsəlmanlar bu hədislərə əməl etmiş və bundan sonra da edəcəklər. Çünki hüzur Hz. Peyğəmbərin (s.ə.s) təşviq və tövsiyələrinə səmimi-qəlbdən sarılmaqdadır.

---

253. Timizi, "Sünən", 430; Əbu Davud, "Sünən", 1271; Əhməd ibn Hənbəl, "Müsnəd", 5980.
254. Əbu Yala, "Müsnəd", 7137.

Əsr namazından əvvəl qılınan dörd rükət sünnə namazı bir salamla qılınır. Belə ki, Hz. Əlinin rəvayət etdiyinə görə, Rəsulullah (s.ə.s) əsr namazından əvvəl dörd rükət namaz qılardı. Hər iki namazı (ilk iki rükəti ilə son iki rükətini)[255] mələklərə, peyğəmbərlərə və onlara tabe olanlara (saleh bəndələrə) salam verərək ayırardı.[256]

Hədis alimi Tirmizi hədisin "həsən" olduğunu qeyd etdikdən sonra bu izaha yer vermişdir: "İshaq ibn İbrahim bu hədisə əsaslanaraq əsr namazının (dörd rükət) sünnəsini tək salamla qılmışdır". Hər iki namazı mələklərə, peyğəmbərlərə və onlara tabe olanlara salam verərək ayırardı" ifadəsinin mənası aralarındakı təşəhhüddür. Yəni ilk iki rükəti ilə son rükətləri təşəhhüd ilə bir-birindən ayırırdı.

Əsr namazından sonra nafilə namazı qılmaq məkruh sayılmışdır. Hz. Əli belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s) sübh və əsr namazları istisna olmaqla bütün fərz namazlardan sonra iki rükət namaz qılardı".[257] Təhavi bu barədə gələn hədislərin mütəvatir dərəcəsinə çatdığını söyləmiş və səhabənin də buna əməl etdiklərini qeyd etmişdir.[258]

---

255. İbn Macə, "Sünən", 1161.
256. Tirmizi, "Sünən", 429.
257. Əbu Davud, "Sünən", 1275.
258. Təhavi, "Şərhu məanil-asar", 1824.

**D. Axşam namazının sünnəsi**

**HƏDİS:**

عَنْ عَائِشَةَ، قَالَتْ: كَانَ النَّبِيُّ صَلى الله عَليهِ وسَلمَ يُصَلِّي الْمَغْرِبَ، ثُمَّ يَرْجِعُ إِلَى بَيْتِي, فَيُصَلِّي رَكْعَتَيْنِ

Hz. Aişədən rəvayət edildiyinə görə, o, belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s) məğrib namazını qıldıqdan sonra otağıma gələr və iki rükət (sünnə) qılardı".[259]

**ŞƏRH:**

Məğrib namazından sonra qılınan iki rükət namaz müəkkəd sünnələrdəndir. Yəni Peyğəmbərimizin (s.ə.s) tərk etmədiyi sünnə namazıdır.

Hədisdə diqqət çəkən xüsuslardan biri də, Hz. Peyğəmbərin (s.ə.s) bu namazı evində qılmasıdır. Hz. Peyğəmbər (s.ə.s) evlərdə namaz qılmağı xüsusi ilə tövsiyə etmişdir. Bu namazlar sadəcə vaxt namazların sünnəsi deyil, "düha", "şükür" kimi nafilə namazları da evlərdə qılına bilər. Çünki bu namazların evdə qılınması riyakarlıqdan uzaqlaşdırdığı kimi, ixlas və səmimiyyəti də artırır. Həmçinin evləri bərəkətləndirir. Bir rəvayətində Hz. Peyğəmbər (s.ə.s): "Evlərinizdə namaz qılın. Oranı qəbiristanlığa çevirməyin",[260] - deyərək bu məsələnin əhəmiyyətinə ayrıca diqqət çəkmişdir.

İbn Ömər də axşam namazından sonra sünnə namazını Hz. Peyğəmbərlə (s.ə.s) bərabər onun evində qıldığını rəvayət etmişdir.[261] Rəvayətlərə nəzər yetirdikdə Hz. Peyğəmbərin (s.ə.s) sünnə namazlarını əksərən evin-

259. İbn Macə, "Sünən", 1164
260. Müslim, "Səhih", 1770.
261. Tirmizi, "Sünən", 432.

də qıldığı görünür. Ələlxüsus da məğrib və işa namazının sünnəsini. Dövrün şərtlərini və bu namazların qaranlıq vaxta təsadüf etməsini diqqətə alsaq günümüzdə istəyənlərin bu namazları evlərdə qılmaları məqsədəuyğun olar. Həmçinin Hz. Peyğəmbərin (s.ə.s) evinin yaxın olması da buna səbəb təşkil edən amillərdən biri kimi qəbul edilə bilər. Uzaq yerlərdən gələnlərin sünnələri məsciddə deyil evlərində qılmalarına həvəs göstərməsi onları bu namazlardan məhrum edə bilər. Bu baxımdan alimlər sünnə namazlarını evlərdə qılınmasının məndub[262] olduğunu söyləmişlər.

Axşam namazının fərzindən əvvəl isə sünnə və yaxud nafilə namaz qılınmır. Dörd xəlifə başda olmaqla səhabələrin əksəriyyətinin məğrib namazının fərzindən əvvəl namaz qılmadıqları rəvayət edilmişdir.[263] İbn Ömərə bu namaz (məğribdən əvvəl qılınan iki rükət) haqqında soruşduqda belə cavab vermişdi: “Mən Rəsulullah (s.ə.s) dövründə nə bu namazı qılana, nə də əsrdən sonra iki rükət namaz qılmağa icazə verənə təsadüf etmədim”.[264] Hz. Peyğəmbərin (s.ə.s) “*Məğrib namazı istisna olmaqla iki azan (azan və iqamə) arasında namaz vardır*”[265] rəvayətini nəzərə alsaq, fərzdən əvvəl nafilə namaz qılınmaması məqsədə müvafiqdir.

262. Edilməsi xoş görülən, ancaq tərk edilməsində cəza və ya töhmət olmayan əməllər.
263. Yeniel Necati, Kayapınar Hüseyin, “Sünen-i Ebu Davud Tercüme ve Şerhi”, c. 5, s. 52.
264. Əbu Davud, “Sünən” 1284.
265. Beyhəqi, “Sünən” 4272.

### E. İşa namazının sünnələri

### 1. İşa namazının ilk sünnəsi

**HƏDİS:**

عَنْ عَبْدِ اللَّهِ بْنِ مُغَفَّلٍ، قَالَ: قَالَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلاَةٌ، بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلاَةٌ»، ثُمَّ قَالَ فِي الثَّالِثَةِ: لِمَنْ شَاءَ

Abdullah ibn Müğəffəldən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s): "*Hər azan və iqamə arasında (sünnə) namaz var*", – dedi və bunu üç dəfə təkrar etdi. Üçüncü dəfə təkrar edəndə: "*Qılmaq istəyənə*", - deyə əlavə etdi."[266]

**ŞƏRH:**

İşa namazından əvvəl namaz qılınması ilə əlaqəli mötəbər mənbələrdə birbaşa hədis olmasa da, yuxarıda qeyd olunan rəvayət işa namazının fərzindən əvvəl namaz qılına biləcəyinə dəlil təşkil edir. Alimlər bu rəvayət əsasında əməl etmişlər.

Fiqh alimləri işa namazından əvvəl qılınan dörd rükət namazın qeyri-müəkkəd sünnə olduğunu ifadə etmişlər. Hədisdə qeyd olunan "qılmaq istəyənə" ifadəsi bunun göstəricisidir. Yəni Peyğəmbərimizin (s.ə.s) hərdən qılmağı tərk etdiyi namazdır.

Hədisdə qeyd olunan أَذَانَيْنِ (əzaneyn) kəlməsi azan və iqamə olaraq izah edilmişdir. Buna ərəb dili qrammatikasında "təğlib"[267] deyilir. Məsələn ərəb dilində Günəş və

---

266. Buxari, "Səhih", 627; Müslim, "Səhih", 838; Əbu Davud, "Sünən", 1283.

267. Təğlib belə edilir: Aralarında bənzərlik olan iki varlıqdan birisinin hər hansı bir sifəti/vəsfi və yaxud adı təsniyə formasına salınaraq hər

Ay üçün "qamareyn" (iki ay) ifadəsindən istifadə edilir. Çünki belə istifadə dil və danışıq üçün daha rahatdır.

Hədisdə qeyd olunan "namaz" nafilə namazdır. Çünki fərz namazı qılmaq istəyə bağlı deyil, Allahın açıq əmridir. Hədisdə diqqətimizi çəkən bir başqa xüsus da "namaz vardır" əmr mənasında istifadə edilən xəbər cümləsidir. Odur ki, bu ifadə "azan ilə iqamə arasında nafilə namaz qılın" mənasına gəlir.[268]

Xülasə, bu hədisə əsasən alimlər işa namazından əvvəl dörd rükət namazın qılınmasını müstəhəb qəbul etmişlər. Bu dörd rükətdən ilk iki rükəti sünnə, son iki rükəti isə məndub olaraq dəyərləndirilmişdir.

### 2. İşa namazının son sünnəsi

**HƏDİS:**

عَنْ أُمِّ حَبِيبَةَ, قَالَتْ: قَالَ رَسُولُ اللهِ صلى الله عَليه وسَلم: مَنْ صَلَّى فِي يَوْمٍ وَلَيْلَةٍ ثِنْتَيْ عَشْرَةَ رَكْعَةً بُنِيَ لَهُ بَيْتٌ فِي الجَنَّةِ: أَرْبَعًا قَبْلَ الظُّهْرِ, وَرَكْعَتَيْنِ بَعْدَهَا, وَرَكْعَتَيْنِ بَعْدَ المَغْرِبِ, وَرَكْعَتَيْنِ بَعْدَ العِشَاءِ, وَرَكْعَتَيْنِ قَبْلَ صَلاَةِ الغَدَاةِ

Ümmü Həbibədən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Kim hər gün on iki rükət (sünnə) namazı qılarsa, Allah onun üçün cənnətdə bir köşk verər. Bunlar zöhrdən əvvəl dörd, sonra iki, məğrib namazından sonra iki, işa namazından sonra iki və sübh namazından əvvəl iki rükətdir*".[269]

---

ikisi üçün istifadə edilir.

268. Yeniel Necati, Kayapınar Hüseyin, "Sünen-i Ebu Davud Tercüme ve Şerhi", c. 5, s. 56.

269. Tirmizi, "Sünən", 415; İbn Macə, "Sünən", 1141. Digər rəvayətlər üçün bax. Buxari, "Səhih", 1180; Tirmizi, "Sünən", 414; İbn

**ŞƏRH:**

İşa namazının fərzindən sonra qılınan iki rükət sünnə namazı müəkkəd sünnələrdəndir. Hədisdə qeyd olunan sünnə namazların hamısı müəkkəd sünnədir. Qeyri-müəkkəd sünnə hökmündə olan sünnə namazları isə əsr və işa namazından əvvəl qılınan dörd rükət namazlardır.

Hz. Peyğəmbər (s.ə.s) sünnə namazlarına o qədər əhəmiyyət vermişdir ki, onları qılana və əhəmiyyət verənə cənnətdə mükafatlar veriləcəyini müjdələmişdir. Eyni zamanda unutmayaq ki, müəyyən səbəblərə görə tam qılınmayan və yaxud nöqsan olan fərz namazlarının əskikləri sünnələr ilə tamamlanacaq.

Hər bir müsəlman Hz. Peyğəmbərin (s.ə.s) bütün sünnələrinə tabe olmağa çalışmalı, ələlxüsus namazla əlaqəli sünnələrini əhya etmək üçün əlindən gələni əsirgəməməlidir. Çünki sünnələr Hz. Peyğəmbərə (s.ə.s) olan sevgi, məhəbbət və bağlılığın göstəricisi olduğu kimi, ibadətləri də tamamlayan və mükəmmələşdirən mahiyyət daşıyır. Sünnələrin tərk edilməsi fərzlərə olan qayğının azalması, hətta bir müddət sonra tərk edilməsi ilə nəticələnir. Odur ki, sünnə namazları üzərimizə fərz olan vaxt namazlarını sağlamlaşdıran dirəklərdir.

---

Macə, “Sünən”, 1140; Nəsai, “Sünən”, 1488; Əhməd ibn Hənbəl, “Müsnəd”, 5417.

## IV. DİGƏR NAMAZLAR

### A. Təraveh namazı

**HƏDİS:**

أَنَّ أَبَا هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ لِرَمَضَانَ: مَنْ قَامَهُ إِيمَانًا وَاحْتِسَابًا، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ

Əbu Hüreyrədən rəvayət edildiyinə görə o belə demişdir: Mən Rəsulullahı (s.ə.s) Ramazan haqqında belə deyərkən eşitdim: "*Kim inanaraq və savabını Allahdan gözləyərək ramazan ibadətini yerinə yetirərsə, onun keçmiş günahları bağışlanar*".[270]

**ŞƏRH:**

Təraveh ərəb dilində "tərvihə" sözünün cəmi olub "rahatlamaq, dincəltmək" deməkdir. Ramazan ayında yatsı/işa namazından sonra vitr namazından əvvəl qılınan sünnə namazdır. Bu namazın hər dörd rükətinin son oturuşu ilk dövrdə "tərvih" adlandırılmışdır. İyirmi rükət qılınan təraveh namazı on salam (təhiyyat) və beş tərvihədən (dincəlməkdən) ibarətdir.

---

270. Buxari, "Səhih", 2008; Müslim, "Səhih", 759; Əbu Davud, "Sünən", 1371; Nəsai, "Sünən", 1602.

Təraveh namazı orucun yox, Ramazan ayının sünnəsidir. Odur ki, oruc tuta bilməyən xəstə və yaxud səfərdə olanlar üçün də təraveh namazını qılmaq sünnədir. Həmçinin Ramazan ayından başqa günlərdə oruc tutanlar təraveh namazı qıla bilməzlər.

Hədisdə qeyd olunan "Ramazan ibadəti" ifadəsinin mənası Ramazan ayına məxsus olan məhz təraveh namazıdır. Bir çox rəvayətdə ramazan ayına məxsus bu namazın qılınması bağışlanma səbəbi olduğu ifadə edilmişdir. Bağışlanma mövsümünü xüsusilə ibadətlərlə keçirmək hər bir müsəlmana Allah tərəfindən bəxş edilmiş bir nemət və fürsətdir. Bu mənada bir rəvayətdə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Allah Ramazan ayında orucu fərz buyurdu mən də qiyamını (təraveh namazını) sünnə etdim. Bundan sonra kim sırf Allah üçün oruc tutar və gecələrini təravehlə əhya edərsə, anasından yeni doğulmuş kimi günahlardan paklanmış olar*".[271]

### 1. Təraveh namazı neçə rükətdir?

**HƏDİS:**

عَنِ ابْنِ عَبَّاسٍ ؛ أَنَّ رَسُولَ اللهِ صَلَّى الله عَلَيْهِ وَسَلَّمَ كَانَ يُصَلِّي فِي رَمَضَانَ عِشْرِينَ رَكْعَةً وَالْوِتْرَ

İbn Abbasdan rəvayət edildiyinə görə, Rasulullah (s.ə.s) Ramazan ayında iyirmi rükət və vitr namazını qılardı.[272]

**ŞƏRH:**

Təraveh namazı əsasən səhabələrin tətbiqatı ilə rəvayət edilmişdir. Məlum olduğu kimi səhabənin ibadət-

271. İbn Macə, "Sünən", 1328.
272. İbn Əbu Şeybə, "Müsənnəf", 7774.

lər məsələsindəki tətbiqatları Hz. Peyğəmbərdən (s.ə.s) müşahidə etdiklərinə görə "hökmən mərfu", yəni Hz. Peyğəmbərdən (s.ə.s) rəvayət edilmiş kimi qəbul edilir. Bu mənada təraveh namazı ilə əlaqəli çoxlu səhabə tətbiqatı onun Hz. Peyğəmbərin (s.ə.s) tətbiqatı olduğunu göstərir.

Übey ibn Kəb Mədinə əhlinə ramazan ayında iyirmi rükət namaz qıldırmışdır. Həmçinin Hz. Əli, Hz. Ömər və digər səhabələrin ramazan ayındakı ibadətlərinə nəzər yetirdikdə iyirimi rükət qıldıqlarını müşahidə edirik. [273] Saib ibn Yeziddən rəvayət edildiyinə görə o belə demişdir: "Biz Hz. Ömərin dövründə iyirmi rükət təraveh və (sonra da) vitr namazı qılardıq".

Cümhura görə (əksər alimlərə görə) təraveh namazı, iyirmi rukətdir.[274] Nə səhabələr, nə də sonrakı dövrdəki alimlər təraveh namazının iyirmi rükət olmasına etiraz etməmişlər. Hal-hazırda da bir çox İslam ölkəsində tətbiqat bu şəkildə davam edir.

Onu da qeyd etmək lazımdır ki, təraveh namazı nafilə namaz olduğuna görə fərz və ya vacib namaz kimi olduğunu düşünməmək lazımdır. Odur ki, yorğunluq, əhəmiyyətli məşğuliyyət kimi səbəblərdən təraveh namazını səkkiz, on, on iki, on dörd, on altı və yaxud on səkkiz rükət qılınsa, yenə də sünnə yerinə yetirilmiş olar. Ancaq imkan daxilində camaatla qılınmasına səy göstərmək lazımdır.

---

273. İbn Əbu Şeybə, "Müsənnəf", 7773; 7764; 7766.

274. Akyüz, e.a.ə, c. 2, s. 241. Ayrıca Hənəfi məzhəbinin görüşü üçün bax. Səraxsi, "Məbsut", c.2, s.144; İbn Abidin, "Rəd əl-Muxtar", c. 2, s. 45; Şafei məzhəbinin görüşü üçün bax. Şihabuddin ər-Rəmli, "Nihayə əl-muhtac", c. 2, s. 126; Hənbəli məzhəbinin görüşü üçün bax. İbn Qüdamə, "Müğni", c. 1, s. 834; Maliki məzhəbində isə iyirmi və otuz altı rükət qılınması şəklində iki fərqli görüş var. Ancaq bu məzhəbə aid kitablarda təraveh namazının, əsasən, iyirmi rükət olduğu qeyd edilir. İbn Ruşd, "Bidayə əl-Müctəhid", c. 1, s.166.

**2. Təraveh namazını təkbaşına qılmaq olar?**

**HƏDİS:**

عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَبْدٍ القَارِيِّ، أَنَّهُ قَالَ: خَرَجْتُ مَعَ عُمَرَ بْنِ الخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ، لَيْلَةً فِي رَمَضَانَ إِلَى المَسْجِدِ، فَإِذَا النَّاسُ أَوْزَاعٌ مُتَفَرِّقُونَ، يُصَلِّي الرَّجُلُ لِنَفْسِهِ، وَيُصَلِّي الرَّجُلُ فَيُصَلِّي بِصَلاَتِهِ الرَّهْطُ، فَقَالَ عُمَرُ: «إِنِّي أَرَى لَوْ جَمَعْتُ هَؤُلاَءِ عَلَى قَارِئٍ وَاحِدٍ، لَكَانَ أَمْثَلَ» ثُمَّ عَزَمَ، فَجَمَعَهُمْ عَلَى أُبَيِّ بْنِ كَعْبٍ، ثُمَّ خَرَجْتُ مَعَهُ لَيْلَةً أُخْرَى، وَالنَّاسُ يُصَلُّونَ بِصَلاَةِ قَارِئِهِمْ، قَالَ عُمَرُ: «نِعْمَ البِدْعَةُ هَذِهِ، وَالَّتِي يَنَامُونَ عَنْهَا أَفْضَلُ مِنَ الَّتِي يَقُومُونَ» يُرِيدُ آخِرَ اللَّيْلِ وَكَانَ النَّاسُ يَقُومُونَ أَوَّلَهُ

Əbdürrəhman ibn Əbdulqari belə demişdir: Ramazan ayının bir gecəsində Hz. Ömər ilə məscidə getdim. Məsciddə insanlar dağınıq halda, kimi fərdi şəkildə, kimiləri də namaz qılan birinə tabe olaraq təraveh namazlarını qılırdılar. Bunu görən Hz. Ömər: “Bu insanları bir imamın arxasında toplasam daha doğru olar” - deyir və onları Übey ibn Kəbin arxasında cəm edir.

Başqa bir gecə yenə Hz. Ömərlə məscidə getdim. İnsanlar (təraveh) namazını imama tabe olaraq qılırdılar.

Bunu görən Hz. Ömər belə dedi: “Bu necə də gözəl bir (bidət) tətbiqat oldu”. Sonra “Ancaq namazı gecənin sonuna buraxanlar indi qılanlardan daha fəzlilətlidir”,-

dedi. Bununla namazı gecənin sonunda qılmağı nəzərdə tuturdu. İnsanlar isə gecənin əvvəlində qılırdılar.[275]

**ŞƏRH:**

Həzrət Ömərin təraveh namazını 20 rükət olaraq camaatla qıldırması birlik və bərabərliyi qorumaq məqsədini daşıyırdı. Çünki onun bu tətbiqatından əvvəl təraveh namazı məsciddə fərdi və ayrı-ayrı qruplar şəklində qılınırdı. Məşhur fiqh alimi İbn Abidin təravehin şərqdə də, qərbdə də 20 rükət qılındığını qeyd edir.

Rəvayətdə Hz. Ömərin "gözəl bidət" ifadəsini işlətməsinin səbəbi təraveh namazının Hz. Peyğəmbər (s.ə.s), Hz. Əbu Bəkr dövründə müntəzəm camaatla qılınmadığıdır. Ayrıca "gözəl bidət" ifadəsini "gözəl yenilik" kimi başa düşmək lazımdır.

Hz. Peyğəmbər (s.ə.s) bəzi əməlləri möminlər fərz sanmasınlar deyə tərk etmiş və yaxud onların görmədiyi yerlərdə yerinə yetirmişdir. Çünki ona tabe olan səhabə hər bir addımını və davranışlarını özlərinə nümunə seçir və onu tərgitməməyə çalışırdılar. Bu əməllərdən biri də təraveh namazıdır. Qeyd ediləcək rəvayət bunu deməyə əsas verir. Belə ki, Hz. Aişə rəvayət edir ki, Ramazan gecələrindən bir gecə Hz. Peyğəmbər (s.ə.s) məsciddə təraveh namazı qıldı. İnsanlar da ona tabe olaraq namazı qıldılar. İkinci gecə yenə Hz. Peyğəmbər (s.ə.s) məsciddə (təraveh) namazını qıldı. O gecə camaat daha da çoxaldı. Növbəti üçüncü və dördüncü gündə yenə camaat toplandı, ancaq Hz. Peyğəmbər (s.ə.s) məscidə çıxmadı. Səhər Hz. Peyğəmbər (s.ə.s) camaata belə dedi: "*Gecə toplandığınızı gördüm. Ancaq təraveh namazının sizə fərz buyurulmasından çəkindiyim üçün sizə o namazı qıldırmadım*".[276]

---

275. Buxari, "Səhih" 1906.
276. Buxari, "Səhih", 1908; Əbu Davud, "Sünən", 1373.

Rəvayətlərdən göründüyü kimi hər nə qədər təraveh namazı nafilə namazlardan biri olsa da, camaatla qılınması tövsiyə edilən və əsrlər boyu bu şəkildə tətbiq edilən bir namazdır. Hər hansı bir üzrü olmayanın imkan daxilində camaatla qılması məqsədə müvafiqdir. Ancaq üzrü olanlar da fərdi olaraq qıla bilərlər.

### B. Vitr namazı

Vitr sözü ərəb dilində "tək" mənasına gəlir. إِنَّ اللهَ وِتْرٌ، يُحِبُّ الْوِتْرَ (innallahə vitrun yuhibbul vitra) "Allah təkdir və təki sevər"[277] mənasındakı hədisdə qeyd olunan vitr kəlməsi də bu mənada işlədilmişdir.

İslam ədəbiyyatında beş vaxt fərz namazlarından sonra gecə qılınan tək rükətli namazdır. Yəni işa namazından sonra iki rükət namaza bir rükət əlavə edilərək üç rükət (vitr-tək) şəklində qılınan namazdır.[278] Alimlər vitr namazını işa namazının bir hissəsi yox, ayrı namaz kimi qəbul edirlər.

### 1. Vitr nə vaxt qılınmalıdır?

### HƏDİS:

عَنْ جَابِرٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ خَافَ أَنْ لَا يَقُومَ مِنْ آخِرِ اللَّيْلِ فَلْيُوتِرْ أَوَّلَهُ، وَمَنْ طَمِعَ أَنْ يَقُومَ آخِرَهُ فَلْيُوتِرْ آخِرَ اللَّيْلِ، فَإِنَّ صَلَاةَ آخِرِ اللَّيْلِ مَشْهُودَةٌ، وَذَلِكَ أَفْضَلُ

---

277. Buxari, "Səhih", 6410; Müslim, "Səhih", 2677.
278. Erdoğan, Mehmet, "Fıkıh ve Hukuk Terimleri Sözlüği", İstanbul 2005, s. 606.

Cabirdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Kim gecə oyanacağından əmin deyilsə vitr namazını gecənin əvvəlində (işa namazının arxasınca) qılsın. Gecə qalxa biləcəyindən əmin olan isə onu gecənin sonunda qılsın. Çünki gecənin sonunda qılınan namaz şahidlidir, həm də daha fəzilətlidir*".[279]

**ŞƏRH:**

Hz. Peyğəmbər (s.ə.s) vitr namazını gecənin sonunda, yəni gecə (təhəccüd) namazını da qıldıqdan sonra qılmağı xoşlayırdı. İbn Ömərdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) "Gecə qıldığınız sonuncu namaz vitr olsun"[280] - deyərək günün son qılınan namazın vitr namazı olmasını tövsiyə etmişdir. Ancaq gecə oyana bilməmə ehtimalı nəzərə alınaraq ilk vaxtda, yəni işa namazını qıldıqdan dərhal sonra qılına biləcəyi də bildirilmişdir. Odur ki, gecə oyana biləcəyindən əmin olmayan şəxs, onu işa namazından sonra qılmalıdır. Əgər vitr namazı işa namazından əvvəl qılınarsa vaxtı girmədən qılındığına görə yenidən qılınmalıdır.

Vitr namazının vaxtı sübh namazının vaxtına qədərdir. Xaricə ibn Huzaqənin rəvayət etdiyinə görə, bir gün Rəsulullah (s.ə.s) onların yanına gəlmiş və belə demişdir: "*Allah sizə bir namaz daha (əlavə) hədiyyə etmişdir. O elə bir namazdır ki, qırmızı dəvələrdən daha dəyərli və xeyirlidir. Bu vitr namazıdır. Allah onu işa ilə fəcr (sübh) arasına qoydu*".[281] Hakim "Müstədrək" əsərində bu rəvayətin səhih olduğunu qeyd etmişdir. Başqa bir rəvayətdə də Hz. Peyğəmbər (s.ə.s) "*Vitr namazını gecə ilə dan yeri ağarana qədər qılın!*"[282] - buyurmuşdur.

279. Müslim, "Səhih", 755.
280. Buxari, "Səhih", 998; Müslim, "Səhih", 751.
281. Əbu Davud, "Sünən" 1418; Tirmizi, "Sünən" 452.
282. İbn Macə, "Sünən" 1189; Müslim, "Səhih" 749; Tirmizi, "Sünən" 468.

## 2. Vitr namazının hökmü nədir?

**HƏDİS:**

عَنْ عَبْدِ اللهِ بْنِ بُرَيْدَةَ، عَنْ أَبِيهِ، قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صلى الله عَلَيهِ وَسَلمَ يَقُولُ الْوِتْرُ حَقٌّ، فَمَنْ لَمْ يُوتِرْ فَلَيْسَ مِنَّا، الْوِتْرُ حَقٌّ، فَمَنْ لَمْ يُوتِرْ فَلَيْسَ مِنَّا، الْوِتْرُ حَقٌّ، فَمَنْ لَمْ يُوتِرْ فَلَيْسَ مِنَّا

Abdullah ibn Büreydənin atasından rəvayət etdiyinə görə Hz. Peyğəmbər (s.ə.s) üç dəfə təkrarlayaraq belə buyurmuşdur: "*Vitr haqdır. Kim vitri qılmazsa bizdən deyildir*".[283]

**ŞƏRH:**

Vitr namazını qılmaq vacib əməllərdəndir.[284] Həsən əl-Bəsri və Təhavi kimi alimlər vitr namazının hökmünün vacib olduğu barəsində İslam alimləri arasında icma olduğunu söyləmişlər. Hz. Peyğəmbər (s.ə.s) vəfat edənə qədər bu namazı heç tərgitməmişdir. Vitr namazını qılmağı tərgidənlər barəsində rəvayət edilmiş xəbərdarlıq məzmunlu hədislər onun hökmünün vacib olduğunu göstərən ən önəmli dəlillərdir.

Alimlər vitrin vacib olduğunu göstərən dəlillər arasında Abdullah İbn Ömərdən rəvayət edilən bu hədisi də göstərirlər: "*Allah sizə (fərzlərdən əlavə) bir namaz da əlavə etmişdir. Bu namaz vitr namazıdır*".[285]

283. Əbu Davud, "Sünən", 1419; Beyhaqi, "Sünən əl-kübra", 4251.
284. Əbu Hənifədən başqa, səhabələrdən Abdullah ibn Məsud, Hüzeyfə ibn Yəman, tabeun nəslindən İbrahim ən-Nəxəi, Səid ibn Müsəyyəb və Mücahid ibn Cabir kimi alimlər vitr namazının vacib olduğunu ifadə etmişdirlər. (Bax. Erdem, Sami, "Vitr", Diyanet Vakfi İslam Ansiklopedisi, c. 43, s. 111-113.)
285. Əhməd ibn Hənbəl, "Müsnəd", 6547; 22148.

Bundan əlavə, qıla bilməyən kimsələrin onu qəza etməsi də hökmünün vacib olduğunun isbatıdır. Odur ki, vitr namazını qıla bilməyən, onu kərahət vaxtından başqa vaxtda qəza etməlidir. Bu məsələ barəsində çoxlu rəvayətlərin olması həm vitrin önəmini göstərir, həm də müxtəlif səbəblərdən (qəsdən və tənbəllik kimi səbəblər istisna olmaqla) onu qıla bilməyənlərin sonra qıla biləcəyini xəbər verir. Əbu Səid əl-Xudridən gələn rəvayətə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Kim vitr namazını qılmadan yatıb oyana bilməzsə onu səhər, unudaraq qılmayıbsa xatırladığı zaman qılsın*".[286] Deməli, yatıb qalan oyananda, unudan kimsə də xatırlayanda vitr namazını qəza etməlidir.

### 3. Vitr namazı neçə rükətdir?

**HƏDİS:**

عَنْ أَبِى سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ أَنَّهُ سَأَلَ عَائِشَةَ كَيْفَ كَانَتْ صَلاَةُ رَسُولِ اللَّهِ صلى الله عليه وسلم فِى رَمَضَانَ قَالَتْ مَا كَانَ رَسُولُ اللَّهِ صلى الله عليه وسلم يَزِيدُ فِى رَمَضَانَ وَلاَ فِى غَيْرِهِ عَلَى إِحْدَى عَشْرَةَ رَكْعَةً يُصَلِّى أَرْبَعًا فَلاَ تَسْأَلْ عَنْ حُسْنِهِنَّ وَطُولِهِنَّ ثُمَّ يُصَلِّى أَرْبَعًا فَلاَ تَسْأَلْ عَنْ حُسْنِهِنَّ وَطُولِهِنَّ ثُمَّ يُصَلِّى ثَلاَثًا فَقَالَتْ عَائِشَةُ فَقُلْتُ يَا رَسُولَ اللَّهِ أَتَنَامُ قَبْلَ أَنْ تُوتِرَ فَقَالَ « يَا عَائِشَةُ إِنَّ عَيْنَىَّ تَنَامَانِ وَلاَ يَنَامُ قَلْبِى

Əbu Sələmə ibn Abdurrahman Hz. Aişəyə (r.a) Hz. Peyğəmbərin (s.ə.s) Ramazan ayındakı namazının necə olduğunu soruşmuş o da belə cavab vermişdir: "Rəsulullah nə ramazanda, nə də ramazandan başqa vaxtı on bir rükətdən artıq namaz qılmamışdır. Belə ki, dörd rükət namaz qı-

286. İbn Macə, "Sünən", 1188.

lardı onun gözəlliyini və uzunluğunu soruşma. Sonra yenə dörd rükət namaz qılardı. Namazın uzunluğu və gözəlliyi elə heyranedici idi ki, heç soruşma. Sonra üç rükət (vitr namazı) qılardı. Hz. Aişə Ona (s.ə.s) "Ya Rəsuləllah vitr qılmadan əvvəl yatırsan?" - deyə soruşduqda: "*Ya Aişə! Mənim gözlərim yuxulayır, ancaq qəlbim yox*" - deyə cavab vermişdir.[287]

**ŞƏRH:**

Vitr namazı axşam namazı kimi tək salamla[288] qılınan üç rükətlik bir namazdır. Hz. Aişədən rəvayət edilən: "Allahın Rəsulu (s.ə.s) vitr namazının ilk iki rükətində salam verməzdi"[289] hədisi də vitr namazının üç rükət olduğunu göstərir. Axşam namazından fərqi ondan ibarətdir ki, üçüncü rükətində "Fatihə" surəsindən sonra zəmmi surə oxunur. Həmçinin vitr namazını bir rükət qılmaq doğru deyildir.

Vitr namazının üç rükətdən ibarət olduğunu göstərən bir başqa dəlil Übey ibn Kəbdən rəvayət olunan bu hədisdir. Onun rəvayət etdiyinə görə Hz. Peyğəmbər (s.ə.s) vitr namazının birinci rükətində "Əla", ikinci rükətində "Kafirun" və üçüncü rükətində isə "İxlas" surələrini oxuyar[290] və salamı ən sonunda, yəni üçüncü rükəti qıldıqdan sonra verərdi.[291] İbn Ömərdən də eyni məzmunda hədis rəvayət edilmişdir.[292] Bu rəvayətlərdə də göründüyü kimi Hz. Peyğəmbər (s.ə.s) vitr namazını üç rükət qılmışdır. Eyni

---

287. Buxari, "Səhih", 1147; 2013; Müslim, "Səhih", 738; Əbu Davud, "Sünən", 1341.
288. Hz. Aişədən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s) vitrin ilk iki rükətində salam verməzdi. (Nəsai, "Sünən", 1698; Beyhaqi, "Sünən", 4592.)
289. Nəsai, "Sünən", 1698; Təhavi, "Şərhu məanil-asar", 1631.
290. Əbu Davud, "Sünən", 1423; İbn Macə, "Sünən", 1171; Darimi, "Sünən", 1089.
291. Nəsai, "Sünən", 1701.
292. İbn Macə, "Sünən", 1172.

zamanda Hz. Peyğəmbərin (s.ə.s) vitr namazını qılarkən sadəcə sonunda, yəni üçüncü rükətindən sonra salam verdiyini göstərən rəvayətlər də bu namazın üç rükət olduğunu göstərir.[293]

### 4. Vitr namazında hansı dua oxunmalıdır?

### HƏDİS:

عَنْ عَطَاءٍ عَنْ عُبَيْدِ بْنِ عُمَيْرٍ قَالَ: صَلَّيْتُ خَلْفَ عُمَرَ رَضِيَ
اللهُ عَنْهُ صَلَاةَ الْغَدَاةِ فَقَنَتَ فِيهَا بَعْدَ الرُّكُوعِ وَقَالَ فِي قُنُوتِهِ:
«اللهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَنَسْتَغْفِرُكَ (وَنَسْتَهْدِيكَ وَنُؤْمِنُ بِكَ
وَنَتُوبُ إِلَيْكَ وَنَتَوَكَّلُ عَلَيْكَ) وَنُثْنِي عَلَيْكَ الْخَيْرَ كُلَّهُ وَنَشْكُرُكَ
وَلَا نَكْفُرُكَ وَنَخْلَعُ وَنَتْرُكُ مَنْ يَفْجُرُكَ اللهُمَّ إِيَّاكَ نَعْبُدُ وَلَكَ
نُصَلِّي, وَنَسْجُدُ وَإِلَيْكَ نَسْعَى وَنَحْفِدُ نَرْجُو رَحْمَتَكَ وَنَخْشَى
عَذَابَكَ إِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ

Ətanın Ubeyd ibn Umeyirdən rəvayət etdiyinə görə o belə demişdir: Bir gün Hz. Ömərin arxasında sübh namazını qıldım. O, rükudan sonra qunut duasını oxudu və belə dedi:

**Allahummə innə nəstəinukə və nəstəğfirukə (və nəstəhdikə və numinu bikə və nətubu ileyk. Və nətəvəkkəlu aleykə və)[294] nusni aleykəl xayra kullə-**

293. Hz. Aişənin rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s) vitri ən sonunda salam verərək üç rükət qılardı. Möminlərin əmiri Hz. Ömər də vitr namazını bu şəkildə qılırdı. Hətta Mədinə əhli vitr namazını ondan öyrənmişdilər. (Hakim, "Müstədrək", 1140). Həmçinin bax. Təhavi, "Şərhu məanil-asar", c. 1 s. 293.

294. Mötərizədəki əlavə üçün Əli əl-Müttəqi, "Kənzul-ummal", 21969; Əli əl-Qari, "Fəthu Bab əl-İnayə bi şərhi ən-Niqayə", c.1, s. 383, Ayrıca bax. İbn Macə "Sünən", (tərcümə və şərh edən Haydar Hatipoğlu), İstanbul 2012, c.3, s. 537-538.

**hu nəşkurukə və lə nəkfurukə və nəxləu və nətruku mən yəfcuruk.**

**Allahummə iyyəkə nəbudu və ləkə nusalli və nəscudu və ileykə nəsa və nəhfidu. Nərcu rahmətəkə və nəxşə azəbəkə innə azəbəkə bil-kuffəri mulhiq.** [295]

Mənası:

Allahım, Səndən yardım, hidayət və bağışlanma istəyirik. (Sənə iman edir, Sənə tövbə edər, Sənə güvənib sığınırıq). Hər xeyirlə Zatı-pakını tərif, nemətlərinə şükür edirik. Əsla Sənə (inkar ilə) küfr etmərik və Sənə üsyan edənlərdən uzaq olarıq.

Allahım, ancaq Sənə ibadət edir, sadəcə sənin üçün namaz qılır və səcdə edirik. Yalnız Sənin üçün çalışırıq. Rəhmətini umur, əzabından da qorxuruq. Çünki Sənin əzabın kafirlər üçündür.

**ŞƏRH:**

Vitr namazının son rükətində zəmmi surədən sonra əlləri qaldırıb təkbir gətirmək və "Qunut" dualarını oxumaq vacibdir. Qunut ayaqda durmaq, itaət etmək, ibadət etmək mənalarına gəlir.

Vitrdə oxunan bu dua Allahı tərif edən kəlmələrdən ibarətdir. Fərqli şəkilləri olmaqla yanaşı məsləhət görüləni Hz. Ömərdən nəql edilən, yuxarıda qeyd edilən formasıdır.

Kim vitr namazının üçüncü rükətində qunut duasını oxumağı unudarsa, namazın sonunda səhv səcdəsi etməlidir. Çünki qunut oxumaq vacib əməllərdən biridir.

---

295. Təhavi, "Şərhu məanil-asar", 1475.

Qunut duasını bilməyənlər "Rabbənə atinə" dualarını oxuya bilər. Bunu da bilməyənlər "Allahumməğfirli" (Allahım məni bağışla) deyərək dua edə bilər.[296]

**5. Qunut duaları nə vaxt oxunmalıdır?**

**HƏDİS:**

عَنْ أُبَيِّ بْنِ كَعْبٍ، أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، «كَانَ يُوتِرُ فَيَقْنُتُ قَبْلَ الرُّكُوعِ

Übey ibn Kəbdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) vitri (üç rükət) qılar, qunut dualarını da rükudan əvvəl oxuyardı[297]".

**ŞƏRH:**

Vitr namazında qunut duaları üçüncü rükətdə zəmmi surə oxuduqdan sonra oxunur. Bir adam Ənəs ibn Malikə belə soruşur: "Qunut qiraətdən sonradır yoxsa rükudan sonra? Ənəs ona: "Qiraət bitdikdən sonradır"- deyə cavab verir.[298]

Qunut duası oxunduqdan sonra rükuya gedilir. Əlqamədən rəvayət edildiyinə görə İbn Məsud və Hz. Peyğəmbərin (s.ə.s) səhabələri vitr namazında qunut duasını rükudan əvvəl oxuyardılar".[299]

Vitr namazı fərdi qılınsa da, imamla qılınsa da qunut duaları gizli, yəni səssiz oxunmalıdır.

---

296. əl-Kəsani, "Bədai əs-sənai", Beyrut 1986, c. 1, s. 274.
297. İbn Macə, "Sünən", 1182; Nəsai, "Sünən", 1681.
298. Buxari, "Səhih", 4088; 4092.
299. İbn Əbu Şeybə, "Musənnəf", 6911; Təbərani, "Möcəm əl-kəbir", c.9, s. 284.

### 6. Vitr namazında dua oxuyarkən əllər qaldırılmalıdır mı?

**HƏDİS:**

عَنْ إِبْرَاهِيمَ، أَنَّهُ قَالَ تُرْفَعُ الْأَيْدِي فِي سَبْعَةِ مَوَاطِنَ: فِي افْتِتَاحِ الصَّلَاةِ، وَافْتِتَاحِ الْقُنُوتِ فِي الْوِتْرِ، وَفِي الْعِيدَيْنِ، وَعِنْدَ اسْتِلَامِ الْحَجَرِ، وَعَلَى الصَّفَا وَالْمَرْوَةِ، وَعَرَفَاتٍ، وَجُمَعٍ، وَعِنْدَ الْجَمْرَتَيْنِ

İbrahim ən-Nəxəidən rəvayət edildiyinə görə, ancaq bu yeddi yerdə əllər qaldırıla bilər:

1. İftitah təkbirində
2. Vitr namazında qunut duası oxumaq üçün təkbir gətirəndə
3. Bayram namazlarında
4. Həcərul-əsvədə salam verəndə
5. Səfa və Mərvə təpəsinə çıxarkən
6. Ərəfatda
7. Cəmdə və iki cəmrəyə daş atarkən.[300]

**ŞƏRH:**

Vitr namazında üçüncü rükətdə zəmmi surədən sonra iftitah təkbirindəki kimi təkbir gətirilir, sonra əllər yenidən bağlanaraq qunut duaları oxunur.[301] Dua oxunarkən əllərin qaldırıb səmayə sarı açılmasına ehityac görülməmişdir.[302]

---

300. Əbu Yusuf, "Kitab əl-Asar", Beyrut tarixsiz, 100; Təhavi, "Şərhu məanil-asar", 3825.
301. əl-Kasani, "əl-Bədi", c. 1, s. 274.
302. Şafei və Hənbəli alimlər qunut duası oxuyarkən əllərin sinə xəttinə qədər qaldırılmasını sünnə saymışlar. Ayrıca Hənbəlilər qunut

## C. Cümə namazı

**HƏDİS:**

عَنْ حَفْصَةَ، زَوْجِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «رَوَاحُ الْجُمُعَةِ وَاجِبٌ عَلَى كُلِّ مُحْتَلِمٍ

Hz. Peyğəmbərin (s.ə.s) xanımı Həfsə anamızdan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "Həddi - büluğ yaşına çatan hər müsəlmana cümə namazı(na getmək) fərzdir".[303]

**ŞƏRH:**

Cümə günü müsəlmanlara məxsus mübarək bir gündür. Şənbə günləri yəhudilər, bazar günləri xristianlar cümə günü də müsəlmanlar üçün mübarək gün kimi təyin edilmişdir. Uca Allah aylardan Ramazanı, gecələrdən Qədr gecəsini, yer üzündə Məkkəni, insanlardan Hz. Muhammədi (s.ə.s) seçdiyi kimi günlərdən də cümə gününü fəzilətli etmişdir.

Hz. Peyğəmbər (s.ə.s) bir hədisində üzərinə günəşin doğduğu ən xeyirli günün cümə günü[304] olduğunu bildirmişdir. Həmçinin müxtəlif hədislərdə Hz. Adəmin cümə günü yaradıldığı, həmin gün cənnətdən çıxarıldığı və qiyamətin də məhz cümə günü qopacağı xəbər verilmişdir.[305] Cümə namazına gedənin növbəti cüməyə qədər

---

duası oxunduqdan sonra əllərini üzlərinə çəkərlər. (Koçak, Muhsin, "Kunut", DİA, XXVI, 380.

303. Nəsai, "Sünən", 1371.

304. Əbu Davud, "Sünən", 1046.

305. Müslim, "Səhih", 854.

günahlarının bağışlanacağı bildirilmişdir.[306] Bu gündə elə bir vaxt var ki, o vaxt edilən dualar müstəcəb olur.[307]

Allah müsəlmanları beş vaxt namaz və cümə günü qılınan cümə namazından məsul tutmuşdur. Cümə namazı zöhr vaxtında camaatla qılınan iki rükətlik namazdır. Qurani-Kərimdə cümə namazı xüsusilə qeyd edilmişdir. Odur ki, cümə namazı (müəyyən edilmiş şərtlərə cavab verən) möminlər üçün fərzdir. "**Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı anmağa tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir**!"[308] ayəsi, Tariq ibn Şihabdan rəvayət edilən: *"Kölə (qul), qadın, uşaq və xəstə istisna olmaqla bütün müsəlmanlara camaatla cümə namazını qılmaq fərzdir*"[309] və yuxarıda qeyd olunan hədis[310] cümə namazının fərz olduğunu göstərən dəlillərdən bəziləridir.

Hz. Peyğəmbər (s.ə.s) üzrlü səbəbdən cümə namazına gedə bilməyənlərə imkanı nisbətində sədəqə verməyi

306. "*Hər kim gözəl şəkildə dəstəmaz alıb cümə namazı üçün məscidə gələr və diqqətli şəkildə xütbəni dinləyərsə, iki cümə arasındakı və əlavə olaraq daha üç günün günahları əfv olunar. Kim xütbə oxunarkən səmimi-qəlbdən dinləməz, dəyərsiz işlərlə məşğul olarsa, boş və mənasız iş görmüş olar*". (Əbu Davud, "Sünən", 1050)
307. "*Cümə günündə elə bir an var ki, bir müsəlman namaz qıldığı halda o vaxta rast gələr və Allahdan nə istəyərsə Allah mütləq onu verər. Rəsulullah (s.ə.s) bu vaxtın çox qısa olduğunu bildirmək üçün əli ilə işarə edirdi*".) Buxari, "Səhih", 935; Müslim, "Səhih", 852; Əbu Davud, "Sünən", 1049.
308. Cumuə, 62/9.
309. Əbu Davud, "Sünən", 1067. (Alimlər bəzi rəvayətlər və qiyas kimi fiqhi hökm çıxarma (istinbat) metodlarından istifadə edərək hədisdəki şərtlərə bəzi şərtlər də əlavə etmişlər. Bunların əsasları belədir: Müsəlman olmaq, ruhi xəstə olmamaq, həddi-büluğa çatmaq, kişi olmaq, azad olmaq, səfərdə olmamaq, ciddi xəstəliyi (kor, yataq xəstəsi) olmamaq).
310. "Həddi-büluğ yaşına çatan hər müsəlmana cümə namazı(na getmək) fərzdir".

tövsiyə etmiş,[311] səbəbsiz[312] və ya əhəmiyyət vermədən üç dəfə (ard-arda) cümə namazına getməyənin qəlbinin möhürlənəcəyini xatırlatmışdır.[313]

Cümə namazının fərzi iki rükətdir. Hz. Ömər belə demişdir: "Hz. Peyğəmbərin (s.ə.s) dilindən sabit olduğuna görə (dörd rükətli) fərz namaz səfərdə iki rükətdir. Cümə namazı da iki rükətdir. Həmçinin bayram namazları da iki rükətdir. Bu tamamıdır, azaltma deyil".[314]

### 1. Cümə namazının fərzindən əvvəl namaz var mı?

Cümənin iki rükət fərzindən əvvəl dörd və sonra qılınan dörd rükət sünnə ilə əlaqəli rəvayətləri belə qeyd edə bilərik:

**HƏDİS:**

عَنْ إِبْرَاهِيمَ: أَنَّ عَبْدَ اللهِ بْنَ مَسْعُودٍ، رَضِيَ اللهُ عَنْهُ كَانَ يُصَلِّي قَبْلَ الْجُمُعَةِ أَرْبَعًا وَبَعْدَهَا أَرْبَعًا , لَا يَفْصِلُ بَيْنَهُنَّ بِتَسْلِيمٍ

İbrahimdən rəvayət edildiyinə görə Abdullah ibn Məsud cümə namazının fərzindən əvvəl dörd, sonra da dörd rükət namaz qılar[315] və aralarını salam ilə ayırmazdı".[316]

---

311. "Səbəbsiz cüməni tərk edən bir dinar, yoxdursa yarım dinar sədəqə versin". Əbu Davud, "Sünən", 1053; İbn Macə, "Sünən", 1128.
312. İbn Macə, "Sünən", 1126.
313. "*Kim əhəmiyyət verməyərək cümə namazını üç dəfə tərk edərsə, qəlbi möhürlənər*". (İbn Macə, "Sünən", 1125; Əbu Davud, "Sünən", 1052).
314. İbn Macə, "Sünən", 1064.
315. Tirmizi, "Sünən", 523.
316. İmam Təhavi, "Şərhu məanil-asar", 1970.

**ŞƏRH:**

İbn Macənin kitabında qeyd etdiyi Abdullah ibn Abbasdan rəvayət edilən hədisdə belə deyilir: “Rəsulullah (s.ə.s) cümə günü fərz namazından əvvəl dörd rükət namaz qılardı. Bu dörd rükətin arasını salamla ayırmazdı”.[317] Yuxarıda qeyd olunan Abdullah ibn Məsudun tətbiqatını Abdullah ibn Abbasdan rəvayət olunan bu hədislə bərabər incələdikdə cümə namazından əvvəl sünnə namazının qılındığı məlum olur. Abdullah ibn Məsudun davranışı da bu rəvayət əsasında formalaşdığı görülür. Yəni Abdullah ibn Məsudun davranışını ibadətlər barəsindəki bir davranış olduğuna görə, hökmən mərfu[318] olaraq dəyərləndirmək mümkündür. Hz. Əli də cümənin fərzindən əvvəl Hz. Peyğəmbərin (s.ə.s) dörd rükət namaz qıldığını rəvayət etmişdir.[319]

Əbu Davud “Sünən” adlı əsərində Nafedən nəql edərək bu rəvayətə yer verir: “İbn Ömər cümənin fərzindən əvvəl namazı uzadır sonra isə evində iki rükət namaz qılardı. Rəsulullahın (s.ə.s) da belə etdiyini deyərdi”.[320] Deməli, İbn Ömər cümənin fərzindən əvvəl uzun namaz qılmışdır. Cümədən öncə sünnə namazının qılınacağına bu rəvayət də dəlil təşkil edir.

---

317. İbn Macə, “Sünən”, 1129
318. Bir səhabənin Hz. Peyğəmbərdən (s.ə.s) öncə gəlmiş peyğəmbərlərə aid və ya gələcəkdə baş verəcək hadisələrlə əlaqəli, yaxud da bir əməli edənə savab və ya əzab vəd edən mövzular haqqında verdiyi xəbərlərə “hökmən mərfu” deyilir. Bu növ mövzular haqqında məlumatı bir səhabə ancaq Peyğəmbərdən (s.ə.s) öyrənə bilər. Məhz buna görə də bu növ hədislər də mərfu hədislər olaraq qəbul edilir. Səhabə, bu cür sözləri və ya hərəkətləri Rəsulullahın etdiyini görmüşdür. Ancaq o sözü və ya hərəkəti hədis olaraq rəvayət edərkən Rəsulullahdan eşitdiyini və ya gördüyünü qeyd etməyə ehtiyac hiss etmir.
319. Təbərani, “Möcəm əl-övsat” 1617.
320. Əbu Davud, “Sünən”, 1128.

Əbu Hüreyrənin Hz. Peyğəmbərdən (s.ə.s) rəvayət etdiyi "*Kim ki, qüsl alar sonra cümə namazına gedər və təqdir olunduğu qədər namaz qılar, xətibi canı-könüldən dinləyər və onunla bərabər (fərz) namazını qılarsa, o şəxsin o cümə ilə növbəti cümə və əlavə üç günlük günahları bağışlanar*"[321] hədisinə əsasən alimlər xütbədən əvvəl nafilə namaz qılmağın müstəhəb əməl olduğunu söyləmişlər. Cümhurun görüşünün də bu şəkildə olduğu qeyd edilmişdir.[322]

Cümə namazından əvvəl sünnə namazı qılınacağına dair dəlil təşkil edən bir digər hədis Buxari və Müslimin Abdullah ibn Müğəffəldən rəvayət etdikləri "hər iki azan (azan və iqamə) arasında namaz vardır"[323] hədisidir.

Xülasə, cümə namazının fərzindən əvvəl qılınan dörd rükətlik namaz müəkkəd sünnədir. Buna görə də fiqh alimləri cümə namazının zöhr namazının yerinə qılınan namaz olduğuna görə fərzindən əvvəl dörd rükət sünnə qılınmalı olduğu fikrindədirlər. Yəni cümə ilə zöhr namazını bir-birindən ayırmamağı qeyd edirlər.[324]

### 2. Cümə namazının son sünnəsi neçə rükətdir?

**HƏDİS:**

عنْ أَبي هُريرةَ رضِيَ اللَّه عَنْهُ قالَ: قال رسولُ اللَّهِ صَلّى اللهُ عَلَيْهِ وسَلَّم: إذا صَلَّى أَحدُكُمُ الجُمُعَةَ ، فَلْيُصَلِّ بعْدَهَا أَرْبعاً

---

321. Müslim, "Səhih", 857.
322. Nəvəvi, "əl-Minhac fi şərhi səhih Müslim ibn Həccac", Müəssisə əl-Qurtuba 1994, c. 6, s. 209.
323. Buxari, "Səhih", 627; Müslim, "Səhih", 838.
324. Zəfər Təhanəvi, "İlaus-sünən", Pakistan 1415, c. 7, s. 15.

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Biriniz cümənin fərzini qıldıqdan sonra dörd rükət də qılsın*".[325]

**ŞƏRH:**

Cümə namazının fərzindən sonra qılınan sünnə namazı müəkkəd sünnələrdəndir. Bu namaz tək salamla, yəni dörd rükətin tamamı bir salamla qılınır.

Hz. Peyğəmbər (s.ə.s) cümənin fərzindən sonra iki və yaxud dörd rükət qıldığı, hətta dörd rükəti tövsiyə etdiyinə dair rəvayətlər vardır. Əbu Hüreyrədən rəvayət edildiyinə görə Hz. Peyğəmbər (s.ə.s) cümədən sonra nafilə namaz qılmaq istəyənlərə belə buyurmuşdur: "*Cüməni qıldıqdan sonra namaz qılmaq istəyən dörd rükət qılsın*". Rəvayətin davamında "*Əgər təcili işi varsa iki rükətini məsciddə qılsın, digər iki rükətini də sonra qılsın*"[326] əlavəsi yer alır. Odur ki, müəyyən səbəbdən dörd rükət qıla bilməyənə ikiyə bölərək dörd qılmaq tövsiyə edilmişdir. Abdullah ibn Məsud da Kufəyə gəldiyi zaman insanlara cümə namazından sonra dörd rükət qılmağı öyrətmişdir.[327] Hz. Əli (r.a) Hz. Peyğəmbərin (s.ə.s) cümə namazından sonra dörd rükət namaz qıldığını rəvayət etmişdir.[328]

Bununla yanaşı İbn Ömərdən rəvayət edilir ki, Hz. Peyğəmbər (s.ə.s) cümənin fərzindən sonra evinə keçmədən namaz qılmazdı. Evində iki rükət qılardı.[329] Hz. Peyğəmbərin (s.ə.s) məsciddə namaz qıldırdıqdan sonra orda sünnə namazı qılmamasının səbəbi, onu namaz qılarkən görənlərin bu namazı vacib qəbul etmə ehtimalı-

325. Müslim, "Səhih", 881; Tirmizi, "Sünən", 523; Əbu Davud, "Sünən", 1131.
326. Müslim, "Səhih", 881.
327. İbn Əbu Şeybə, "Müsənnəf", 5369.
328. Təbərani, "Möcəm əl-övsat", 1617.
329. İbn Macə, "Sünən", 1131.

dır. Beləliklə, insanlar sözügedən namazın qılınmasının mütləq olduğunu düşünəcək və özlərini buna məcbur edəcəklər. Ümmətinə çətinlik yükləməkdən çəkinən Hz. Peyğəmbər (s.ə.s) bu anlayışına əsasən sünnə namazlarını əksəriyyətlə evində qılmış və belə tövsiyə etmişdir.[330] Ancaq bu məsələdə məcburiyyət yoxdur.

Cümənin fərzindən sonrakı sünnə namazını evində qılma imkanı olanlar, Hz. Peyğəmbərin (s.ə.s) sünnəsinə tabe olaraq bu namazı evində qılması məsləhətdir. Ancaq evində qıla bilməyəcək kimsə məsciddə qılmalıdır. Günümüzdə dəyişən şərtlər və məcburiyyətlər buna əsas verir. Tarixən tətbiqat da bu şəkildə davam etmişdir.

Bu iki rəvayəti birləşdirən bəzi alimlər əgər cümədən sonra qılınan namaz məsciddə qılınacaqsa dörd, evdə qılınacaqsa iki qılına bilər demişlər.

Görkəmli alim Nəvəvi bu mövzuya belə izah gətirmişdir: "Hz. Peyğəmbər (s.ə.s) bəzən cümənin fərzindən sonra iki rükət qılaraq bu namazın ən azı iki rükət olduğunu göstərmək istəmişdir. Ancaq Hz. Peyğəmbər (s.ə.s) əksəriyyətlə dörd rükət qılmışdır. Çünki bizə bunu tövsiyə edən və bizi təşviq edən məhz Odur (s.ə.s).[331]

---

330. "*Ey İnsanlar! Evinizdə namaz qılın. Bilin ki, fərz namaz istisna olmaqla namazların ən məqbulu insanın öz evində qıldığı namazdır*". (Buxari, "Səhih", 731)
331. Hatipoğlu, Haydar, "Süneni İbn Mace Tercemesi ve Şerhi", c. 3, s. 469.

### 3. Cümə namazının bir rükətinə yetişən nə etməlidir?

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ, قَالَ: قَالَ رَسُولُ اللهِ صلى الله عَلَيهِ وَسَلَمَ: مَنْ أَدْرَكَ رَكْعَةً مِنَ الصَّلاَةِ, فَقَدْ أَدْرَكَ الصَّلاَةَ

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Kim namazın bir rükətinə yetişərsə bütün namaza yetişmiş sayılır*".[332]

**ŞƏRH:**

Bu hədisdə bütün namazlar nəzərdə tutulmuşdur. Odur ki, cümə namazı da bu hədisin əhatəsinə daxil edilmişdir. Bəzi alimlər isə ələlxüsus cümə namazı nəzərdə tutulduğunu qeyd etmişlər. Məsələn Beyhəqi, Darəqutni, Əbu Davud, İbn Macə kimi alimlər qeyd olunan hədisi "Cümə namazının bir rükətinə yetişən kimsə" başlığının altında qeyd etmişlər.

Əbu Hüreyrədən nəql edilən: "Cümə namazının bir rükətinə yetişən ona bir rükət də əlavə etsin" [333] hədisi də bir rükətə yetişənin onu imamın salamından sonra bir rükət qılaraq ikiyə tamamlaması tələb edilmişdir. Odur ki, cümə namazının bir rükətinə çatan cümə namazına çatmış sayılır və əlavə olaraq zöhr namazı qılmasına ehtiyac yoxdur.

Cümə namazının sonunda, yəni təşəhhüdə yetişən biri ilə əlaqəli alimlər arasında müəyyən ixtilaflar vardır. Əbu Hənifə, Əbu Yusif kimi alimlərin də yer aldığı fəqih-

---

332. Buxari, "Səhih", 580; Müslim, "Səhih", 607; Əbu Davud, "Sünən", 1121; İbn Macə, "Sünən", 1121.
333. İbn Macə, "Səhih", 1122.

lərin görüşünə görə təşəhhüdə yetişən biri namazın tamamına yetişmiş sayılır. İmam salam verdikdən sonra qalxar və iki rükətini tamamlayar. Buna əsas kimi də Buxari və Müslimdə qeyd olunan bu hədis dəlil göstərilir: "*Yetişdiyinizi qılın, yetişə bilmədiyinizi sonra tamamlayın*".[334]

Xülasə, təşəhhüdə imama yetişən kimsə cümə namazı üçün niyyət edər və salamdan sonra təkbaşına namazı iki rükətə tamamlayar. Beləliklə, qıldığı namaz da cümə namazı sayılar.

334. Buxari, "Səhih", 635; Müslim, "Səhih", 602.

### D. Səfər namazı

**HƏDİS:**

عَنْ عُمَرَ، قَالَ: «صَلَاةُ السَّفَرِ رَكْعَتَانِ، وَصَلَاةُ الْجُمُعَةِ رَكْعَتَانِ، وَالْفِطْرُ وَالْأَضْحَى رَكْعَتَانِ، تَمَامٌ غَيْرُ قَصْرٍ عَلَى لِسَانِ مُحَمَّدٍ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ

Hz. Ömər belə demişdir: "Səfər namazı iki rükətdir. Cümə və bayram namazı da iki rükətdir. Bunlar tamdır. Hz. Peyğəmbərin (s.ə.s) dili (təşəbbüsü) ilə qısaldılmamışdır".[335]

**ŞƏRH:**

Bir şəxsin hər hansı bir səbəbdən daimi yaşadığı yerdən başqa bir yerə getməsinə  və ya getmək üçün yola çıxmasına "səfər", yola çıxmış adama da "səfəri" deyilir. Səfər ümumiyyətlə məşəqqət və əziyyətli olduğu üçün səfərdə olan şəxslərə namaz, oruc kimi ibadətlərdə bəzi güzəşt və imtiyazlar verilmişdir. Səfərdə ikən dörd rükətlik fərz namazını iki rükət olaraq qılmaq da bu ikramdan biridir. Bu məsələdə dəlil göstərilən rəvayətlərdən biri də Abdullah İbn Abbasın rəvayət etdiyi hədisdir. Onun dediyinə görə: "Uca Allah Peyğəmbərin (s.ə.v) dili ilə namazları dörd rükət, səfərdə iki, qorxu halında isə bir rükət olaraq fərz buyurdu".[336]

Səfərdə namazı qısaldaraq qılmaq Allahın bəndələrinə sədəqəsi, ikram və rəhmətidir. Əbu Yəlanın sualına Hz. Ömərin verdiyi cavab bizə bu məsələdə müəyyən aydınlıq gətirir. Əbu Yəla soruşur ki, "Ya Ömər Uca Allah Qurani-Kərimdə: "**Yer üzündə səfərə çıxdığınız**

335. İbn Macə, "Sünən", 1064.
336. Əbu Davud, "Sünən", 1247; İbn Macə, "Sünən", 1068.

**zaman, əgər kafirlərin sizə zərər yetirəcəklərindən qorxsanız, namazı qısaltmağınız sizə günah deyil**”[337] - buyurmuşdur. Ancaq bu gün insanlar təhlükədə deyil və zərərə məruz qalma qorxusu da yoxdur. Bu vəziyyətdə namazın qısa qılınması barəsində fikrin nədir?” Hz. Ömər də ona: “Sənin heyrət etdiyin bu məsələ barəsində mən də heyrət etmiş və Hz. Peyğəmbərə (s.ə.s) sənin soruşduğun sualı soruşmuşdum. Rəsulullah (s.ə.s) mənə belə cavab vermişdi: “*Bu Allahın sizə verdiyi bir sədəqədir. Odur ki, Allahın sədəqəsini qəbul edin*”.[338] Alimlər “Allahın sədəqəsidir, onu qəbul edin” ifadəsinin əmr olduğunu bildirmiş və səfərdə namazın qısa qılınmasının vacib olduğunu söyləmişlər. Çünki səfər namazı “əzimət”dir.[339] Odur ki, yolçu bunu bilərək tam qılarsa, məqsədə müvafiq iş görməmiş sayılır və qıldığı son iki rükəti nafilə namazı hökmündə olur.

Hz. Peyğəmbər (s.ə.s) də, səfərə çıxan səhabələr də onunla birlikdə namazları qısaldaraq qılmışdır. Belə ki, Abdullah ibn Ömərdən (r.a) nəql edilən bir rəvayətdə buyrulur ki: “Rəsulullah (s.ə.s) ilə birlikdə bir neçə səfərdə iştirak etdim. O (s.ə.s), iki rükətdən artıq namaz qılmadı. Həmçinin Hz. Əbu Bəkrlə birlikdə səfərdə oldum, o da iki rükətdən artıq qılmadı. Hz. Ömər və Hz. Osmanla da bərabər səfərə çıxdım onlar da eyni şəkildə davrandılar (iki rükətdən artıq namaz qılmadılar)”.[340] Odur ki, səfərdə olan hər bir adam dörd rükətli zöhr, əsr və işa namazların fərzlərini iki rükət şəklində, sübh və məğrib namazlarını da olduğu kimi (iki və üç rükət) qılmalıdır.

---

337. Nisa, 4/101.
338. Əbu Davud, “Sünən”, 1199; İbn Macə, “Sünən”, 1065.
339. Allahın yerinə yetirilməsini əmr etdiyi, edilməsini qadağan etdiyi xüsuslara tam riayət edərək yerinə yetirməkdir.
340. Buxari, “Sünən”, 1102; Müslim, “Səhih”, 689; İbn Macə, “Sünən”, 1071.

Günümüzdə Qurani-Kərimdə səfər namazı olmadığına görə namazı qısaldaraq qılmağın yersiz olduğunu söyləyənlərə təsadüf edirik. Hədis kitablarında bu məsələnin cavabını tapmaq mümkündür. Belə ki, səhabədən Ümeyyə ibn Abdullah ibn Xalid Abdullah ibn Ömərə belə sual ünvanlayır: "Biz (normal vaxt) namazların və qorxu namazının hökmünü[341] Qurani-Kərimdə tapa bilirik. Ancaq səfər əsnasındakı namazla əlaqəli heç bir hökm tapa bilmirik. Bu necə olur?" Abdullah ibn Abbas ona belə cavab verir: "Biz heç nə bilmirdik və Allah bizə Hz. Muhammədi (s.ə.s) peyğəmbər kimi göndərdi. Odur ki, Hz. Muhamməd nəyi necə edirsə, biz də ondan gördüyümüz kimi edirik".[342] Beləliklə Abdullah ibn Abbas səfər namazını Hz. Peyğəmbərdən (s.ə.s) öyrəndiyini və ibadətlərdə onun tətbiqatına tabe olmağın mütləq olduğunu söyləmişdir.

---

341. Nisa, 4/101.
342. İbn Macə, "Sünən", 1066.

## 1. Səfərilikdə camaatla namaz

**HƏDİS:**

عَنْ عِمْرَانَ بْنِ حُصَيْنٍ, قَالَ: غَزَوْتُ مَعَ رَسُولِ اللهِ صلى الله عَلَيهِ وَسَلمَ, وَشَهِدْتُ مَعَهُ الْفَتْحَ, فَأَقَامَ بِمَكَّةَ ثَمَانِيَ عَشْرَةَ لَيْلَةً, لاَ يُصَلِّي إِلاَّ رَكْعَتَيْنِ, يَقُولُ: يَا أَهْلَ الْبَلَدِ, صَلُّوا أَرْبَعًا, فَإِنَّا قوم سَفْرٌ

İmran ibn Husayn belə deyir: "Mən Rəsulullahla (s.ə.s) bərabər çoxlu səfərlərdə (fətihlərdə) iştirak etmişəm. Həmçinin Məkənin fəthində də onunla bərabər olmuşam. Hz. Peyğəmbər (s.ə.s) Məkkədə on səkkiz gecə qaldı. O, namazlarını iki rükət qılardı. Özünə tabe olanlara (camaata) belə deyərdi: "Ey Məkkəlilər! Namazlarınızı dörd rükət (tam) qılın. Çünki biz (Mədinədən gələnlər) səfəriyik".[343]

**ŞƏRH:**

Namazların imamla, camaat halında qılınması fərdi şəkildə qılınmasından daha fəzilətlidir. Hz. Peyğəmbər (s.ə.s) hədislərində savabının çoxluğu iyirmi beş,[344] iyirmi yeddi[345] sayları ilə ifadə edilmişdir.

Səfər əsnasında da namazların imamla qılınması tövsiyə edilmşdir. Ancaq diqqət edilməli olan bir neçə xüsus vardır. Belə ki, hədisdə də qeyd edildiyi kimi, əgər imam səfəri isə, o, namazı qısaldaraq (dörd rükəti iki rükət şək-

343. Əbu Davud, "Sünən", 1229

344. *Camaatla qılınan namaz, tək başına qılınan namazdan iyirmi beş dərəcə daha fəzilətlidir*. ( Buxari, "Səhih", 477; Müslim, "Səhih", 649; Əhməd ibn Hənbə, "Müsnəd", 7185; İbn Əbu Şeybə, "Müsənnəf", 8391)

345. *Camaatla qılınan namaz, tək başına qılınan namazdan iyirmi yeddi dərəcə daha fəzilətlidir*. (Buxari, "Səhih", 645; Müslim, "Səhih", 650; Tirmizi, "Sünən", 1313;.)

lində) qılmalı, ona tabe olan camaat arasında müqim (yerli, səfəri olmayan) varsa namazı imam salam verdikdən sonra dörd rükətə tamamlamalıdır. Əgər imam müqim isə ona tabe olan camaat səfəri olsa da imam kimi namazı tam qılmalıdırlar. Əgər imam namazı tam qılar və ona tabe olan səfəri kimsə səfərdə olduğunu düşünərək iki rükətdən ayrılsa, namazı əskik sayılır və yenidən qılmalıdır. Musa ibn Sələmədən rəvayət edildiyinə görə o, Abdullah ibn Abbasa belə demişdir: "Biz səninlə bərabər olanda namazımızı dörd rükət qılırıq, ancaq qonaq qaldığımız yerdə isə iki rükət qılırıq". Abdullah ibn Abbas da ona "Bu Qasımın atasının (Hz. Muhamməddin) sünnəsidir", - demişdir.[346] Yəni fərdi şəkildə qılanda səfəri hökmü tətbiq edilməlidir.

### 2. Səfərdə sünnə namazları qılınmalıdır?

**HƏDİS:**

حَدَّثَنِي طَاوُسٌ، أَنَّهُ سَمِعَ ابْنَ عَبَّاسٍ، يَقُولُ: فَرَضَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ صَلَاةَ الْحَضَرِ وَصَلَاةَ السَّفَرِ، فَكُنَّا نُصَلِّي فِي الْحَضَرِ قَبْلَهَا وَبَعْدَهَا، وَكُنَّا نُصَلِّي فِي السَّفَرِ قَبْلَهَا وَبَعْدَهَا

Tavusun rəvayət etdiyinə görə o, Abdullah ibn Abbası belə deyərkən eşitmişdir: "Rəsulullah (s.ə.s) həm (beş) vaxt namazını, həm də səfər namazını fərz buyurmuşdur. Biz həm vaxt, həm də səfər namazlarından əvvəl və sonra (sünnə) namazı qılardıq".[347]

---

346. Əhməd ibn Hənbəl, "Müsnəd", 1862; Təbərani, "Möcəm əl-kəbir", 12895.
347. İbn Macə, "Sünən"1072.

**ŞƏRH:**

Məlum olduğu kimi sünnə namazları fərz namazlarından əvvəl və yaxud sonra qılınan və Hz. Peyğəmbər (s.ə.s) tərəfindən tövsiyə edilən namazlardır. Müəkkəd və qeyri-müəkkəd olaraq iki qismə ayrılır. Bu namazların qılınması Allahın xoşuna gələn əməllərdəndir. Sünnə namazlarını qılan eyni zamanda Hz. Peyğəmbərin (s.ə.s) sünnəsinə tabe olduğuna görə Allahın əmrini yerinə yetirmiş sayılır. Çünki Hz. Peyğəmbərə (s.ə.s) tabe olmaq Allahın müsəlmanlara əmridir. Həmçinin bu namazlara diqqət yetirənlər Hz. Peyğəmbərin (s.ə.s) şəfaətinə nail olacaqlar. Odur ki, hər fürsətdə sünnə və nafilə namazlarını qılmağı özünə vəzifə bilən bir müsəlman ciddi mane ilə üzləşmədikcə bu namazları qılmalıdır. Bu baxımdan səfərdə ikən sünnələrin qılınıb qılınması məsələsi bəzi dövrlərdə mübahisə məsələsinə çevrilmişdir. Qeyd etdiyimiz hədisi də nəzər aldıqda bu namazların qılınmasında hər hansı bir əngəl yoxdur. Alimlərimiz səfərdə fərzdən əvvəl və yaxud sonra qılınan namazların qılınmasını müstəhəb əməl olaraq dəyərləndirmişlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, səhabədən İbn Ömərin Hz. Peyğəmbəri (s.ə.s) səfərdə ikən sünnə namazlarını qılarkən görmədiyini söyləməsi[348] belə izah edilmişdir: Hz. Peyğəmbər (s.ə.s) sünnə namazların əksəriyyətini evində, səfərdə ikən öz çadırında qılardı. Məhz buna görə də İbn Ömərin Onu (s.ə.s) səfərdə sünnə namazlarını qılarkən görməmiş olması təbii bir haldır. Hərdən Hz. Peyğəmbər (s.ə.s) bu sünnələri qılmamışdır ki, insanlar onu vacib qəbul etməsin və məşəqqətlə üzləşdikdə tərk edə bilsinlər. İbn Ömərin bu namazların gündüz

348. Rəvayət üçün bax. İbn Macə, “Sünən” 1071.

qılınmayacağını deməklə yanaşı gecə miniyin üzərində qılına biləcəyini söyləməsi də düşündürücüdür.[349]

Eyni zamanda Hz. Peyğəmbərin (s.ə.s) səfər əsnasında[350] qəzaya qalan sübh namazının sünnəsini qəza etməsi hər nə qədər sübh namazına məxsus kimi görünsə də - səfərdə sünnə namazının qılındığını göstərən dəlillərdən biri kimi dəyərləndirmək mümkündür.

---

349. İbn Ömərin görüşü üçün bax. Hatipoğlu, e.a.ə, c. 3, s. 388.

350. Xeybər savaşından dönərkən ordunu sübh namazına qaldırma vəzifəsini könüllü şəkildə üzərinə götürən Hz. Bilal gecənin qaranlığını namazla keçirir. Ancaq getdikcə yorğunluğun ağırlığı çiyinlərini əzir. Bu zaman dəvəsinə söykənib bir az dincini almağa çalışır. Oturduğu yerdəcə yuxuya gedir. Rəsulullah (s.ə.s) oyananda günəşin şəfəqləri üzlərini isitməyə başlamışdı.

Hz. Peyğəmbər (s.ə.s)

– "*Bu nə işdir, sən bizə nə etdin, ey Bilal?!*" – deyə səslənir.

Bu arada səhabələr də oyanır, hər kəs üzüntü içində idi. Hamısı da növbə çəkməyə könüllü razılıq verən Hz. Bilalı qınayırdı.

Onlar üzüntü çəksə də, qədər öz hökmünü icra edir. Allah (c.c) Muhamməd ümmətinin namazı keçirməsinə də mərhəmətindən bir qapı açır və bundan sonra eyni vəziyyətdə necə davranmaqla bağlı Rəsulullahın şəxsində hər bir möminə yol göstərir. Öncə:

– "*Bura şeytanların oturduğu bir vadidir*", - buyuraraq hərəkət əmri verir və o bölgəni tərk edirlər. Ardınca yeni dayandıqları yerdə dəstəmaz alıb Hz. Bilalın azan oxuması əmrini verir. Səhabələr də dəstəmaz alıb namaza hazırlaşırlar. İlk öncə sübh namazının sünnəsini qılırlar. Beləliklə, camaat yığılır və Allah Rəsulu önlərində imam olaraq sübh namazını qılmağa başlayırlar. Namaz bitdikdən sonra üzünü əshabına tutan Rəsulullah (s.ə.s) buyurur:

*"Hamımızın ruhu Allahın qüdrət əlindədir. İstəsə, onu çəkib alar! Buna ən çox layiq olan da, şübhəsiz, Odur. Ona görə də siz namazı unutduğunuz zaman xatırlayan kimi dərhal qılın! Çünki Allah: "Məni anmaq üçün namaz qıl!" – deyə buyurur və bunu əmr edir"*. (Rəvayət üçün bax. Əbu Davud, "Sünən", 435.)

### 3. Səfərdə olan vitr namazını qılmalıdır?

**HƏDİS:**

عَنِ ابْنِ عَبَّاسٍ، وَابْنِ عُمَرَ قَالَا: «سَنَّ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ صَلَاةَ السَّفَرِ رَكْعَتَيْنِ، وَهُمَا تَمَامٌ غَيْرُ قَصْرٍ، وَالْوِتْرُ فِي السَّفَرِ سُنَّةٌ

Abdullah ibn Abbas və Abdullah ibn Ömər belə demişdir: "Hz. Peyğəmbər (s.ə.s) səfərdə ikən (dörd rükətli) namazları iki rükət qıldı. Bu iki rükət tamdır (ixtisar edilməmişdir). Səfərdə ikən vitr namazı da sünnədir".[351]

**ŞƏRH:**

Vacib hökmündə olan vitr namazı beş vaxt namazdan ayrı müstəqil bir namazdır. Məhz buna görə də, səfəri ikən də qılınması lazımdır. Rəvayətlərə nəzər yetirdikdə görürük ki, Hz. Peyğəmbər səfərdə olduğu halda təhəccüd namazını qılar vitri də tərgitməzdi.[352]

### 4. Səfər namazı qılmaq üçün məsafə və müddət nə qədər olmalıdır?

**HƏDİS:**

عَنِ ابْنِ عَبَّاسٍ , أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «يَا أَهْلَ مَكَّةَ لَا تَقْصُرُوا الصَّلَاةَ فِي أَدْنَى مِنْ أَرْبَعَةِ بُرُدٍ مِنْ مَكَّةَ إِلَى عَسْفَانَ

Abdullah ibn Abbasdan rəvayət edildiyinə görə Hz. Rəsulullah (s.ə.s) belə demişdir: "*Ey Məkkə əhli! Namazı-*

351. İbn Macə, "Sünən", 1194; Əhməd ibn Hənbəl, "Müsnəd", 2156
352. Rəvayət üçün bax. İbn Macə, "Sünən", 1193.

*nızı dörd "bərid"dən az məsafədə qısaltmayın. Bu məsafə Məkkədən Asfana*[353] *qədər olan məsafədir".*[354]

**ŞƏRH:**

Hədisin ravisi Abdullah ibn Abbas, həmçinin Abdullah ibn Ömər dörd "bərid"dən çox məsafə qət etdikdən sonra namazları qısaldaraq qılardılar.[355]

Bir şəxsin səfəri sayılması üçün dörd "bərid" məsafəni keçməlidir. Bir "bərid" dörd "fərsəx"dir. Yəni səfəri sayılmaq üçün 16 fərsəxlik[356] məsafədən uzaqda yerləşən yerlərə səfərə niyyətlənmək lazımdır. Bu da təxminən 90-94 kilometrlik məsafəyə bərabərdir.[357] Onu da qeyd edək ki, İslamın ilk dövrlərində istifadə edilən məsafə və vaxt ölçüləri təqribi hesablarla müəyyənləşdirilmişdir.

Bir şəxs yolçu sayılması üçün yaşadığı yerin sərhədlərini keçməlidir. Buna əsasən məskunlaşdığı yerin ətrafındakı qəbiristanlıq, tarla, sənaye müəssisələri və buna bənzər yerləri keçməyən şəxs adət-ənənədə yolçu sayılmır. İbn Ömər Mədinənin məhəllələrindən çıxıb yenidən oraya qayıdana qədər namazı qısaldaraq qılardı.[358] Yəni

---

353. Bu məsafə təqribən 88 km. dir. (Bax. Mehmet Erdoğan, "Fıkıh ve Hukuk Terimleri Sözlüğü", İstanbul 1998, s. 36.)
354. Darəqutni, "Sünən", 1447.
355. Beyhaqi, "Sünən", 5180.
356. Fars fərsəxi 6.23 kilometrdir. Ərəb fərsəxi 5.985 kilometrdir. (Halaçoğlu, Yusuf, "Fersah", DİA, c. 12, s. 412.)
357. Vaxt baxımından səfəriliyi hesablayan bəzi alimlərə görə bir nəfərin səfəri sayılması üçün üç günlük məsafəni qət etməsi lazımdır. Orta hesabla bir gündə bir adam altı saat piyada gedə bilər. Odur ki, üç gündə on səkkiz saat piyada gedə bilər. Bu da təqribən on səkkiz fərsəxə bərabərdir. Hənəfi məzhəbi bir fərsəxi üç mil qəbul edir. Hər bir mil də iyirmi dəqiqədə qət edilir. (Necati Şenel, Hüseyin Karapınar, "Süneni Ebu Davud Terceme ve Şerhi", c. 4, s. 378; Ömer Nasuhi Bilmen, "Büyük İslam İlmihali", s. 174)
358. Əbdürrəzzaq əs-Sənani, "Müsənnəf", 4323.

Mədinənin ətraf məhəllələrindən keçincə və oraya qayıdana qədər.

Səfərə çıxmadan öncə niyyət dəqiq olmalıdır. Yəni səfər məqsədi ilə yola çıxılmalıdır. Bir şeyi axtaran və ya ardına düşüb təqib edən şəxs yaşayış yerindən 90 km-dən çox uzaqlaşsa belə səfəri sayılmır.

Səfərilikdə əsas qəbul edilən **məsafə**dir. Piyada, minik və nəqliyyat vasitəsi ilə həmin məsafəni qət etmə hökmü dəyişdirmir. Bu məsafəni qət edən səfəri sayılır. Namazları qısa qılır və oruc tutma məsələsində də ixtiyar sahibidir.

Səfərilikdə müddət məsələsinə gəlincə Səid ibn Müsəyyəbdən rəvayət edildiyinə görə, o, belə demişdir: "(Getdiyin yerdə) On beş gün qalmağa niyyət etmisənsə, namazlarını dörd rükət qıl!"[359] Deməli gedilən yerdə on beş gündən az qalınacaqsa, həmin şəxs getdiyi yerdə səfəri sayılır. Ancaq on beş gündən çox qalacaqsa müqim sayılır (bir yerdə daimi yaşayanlara müqim deyilir) və namazlarını qısaltmadan dörd qılar. Əgər on beş gündən az qalmağa niyyət edər, ancaq hər hansı bir səbəbdən vaxt uzanarsa yenə də səfərilik hökmü davam edər.[360]

Səfəri ikən diqqət ediləcək məsələlərdən biri də məst məsələsidir. Səfərilikdə ayaqlara geyinən məstin müddəti üç gündür. Şüreyh ibn Hani Hz. Aişəyə (səfərdə ikən) məstlər üzərinə məst çəkmə məsələsini soruşur. Hz. Aişə ona belə deyir: "Bu məsələni Əbu Talibin oğlundan (Hz. Əlidən) soruş. Çünki Hz. Peyğəmbərlə (s.ə.s) səfərə çıxırdı". Biz də məsələni Hz. Əlidən soruşduq. Hz. Əli bildirdi ki, Rəsulullah (s.ə.s) məstlərin müddətini səfəri üçün üç

359. İbn Əbu Şeybə, "Müsənnəf", 8212.
360. İbn Əbu Şeybə, "Müsənnəf", 8220.

gün üç gecə, səfəri olmayanlar üçün isə bir gün bir gecə təyin etdi”.[361]

### E. Bayram namazı

### HƏDİS:

عَنْ أَنَسٍ, قَالَ: قَدِمَ رَسُولُ اللهِ صلى الله عَلَيهِ وَسَلمَ الْمَدِينَةَ, وَلَهُمْ يَوْمَانِ يَلْعَبُونَ فِيهِمَا, فَقَالَ: مَا هَذَانِ الْيَوْمَانِ؟ قَالُوا: كُنَّا نَلْعَبُ فِيهِمَا فِي الْجَاهِلِيَّةِ, فَقَالَ رَسُولُ اللهِ صلى الله عَلَيهِ وَسَلمَ: إِنَّ اللهَ قَدْ أَبْدَلَكُمْ بِهِمَا خَيْرًا مِنْهُمَا: يَوْمُ الأَضْحَى, وَيَوْمُ الْفِطْرِ

Ənəs ibn Malikdən rəvayət edildiyinə görə o belə demişdir: Rəsulullah (s.ə.s) Mədinəyə gəldikdə mədinəlilərin bayram etdiyi iki gün var idi. Rəsulullah (s.ə.s) bu iki günün xüsusiyyətini soruşduqda səhabələr: “Cahiliyyə dövründə biz bu iki gündə bayram edərdik”, – dedilər. Bunu eşidən Allahın Rəsulu (s.ə.s) belə buyurdu: “*Allah o iki günün əvəzinə sizə bundan daha xeyirlisini vermişdir. Bunlar Qurban bayramı və Ramazan bayramıdır”.*[362]

### ŞƏRH:

Müsəlmanların iki dini bayramı vardır. Bunlardan biri şəvval ayının 1-i keçirilən Ramazan, yəni fitr bayramı, digəri də zülhiccə ayının 10-u başlayan Qurban bayramıdır.

Bayram namazları ayə, hədis və icma ilə sabitdir. Qurani-Kərimdə: “Rəbbin üçün namaz qıl və qurban kəs”[363]

---

361. Müslim, “Səhih”, 276; Əbu Davud, “Sünən”, 157.
362. Əbu Davud, “Sünən”, 1134; Əhməd ibn Hənbəl, “Müsnəd”, 12006; Təhavi, “Şərhu məanil-asar”, 1488.
363. Kövsər, 108/ 2.

- buyurulmuşdur. Bu ayədəki namaz qurban bayramı namazıdır. Alimlər bu hədisə əsasən bayram namazının hər müsəlmanın üzərinə vacib olduğunu qeyd etmişlər.[364]

Rəsulullah (s.ə.s) hər iki bayram (Ramazan və Qurban) namazını da qıldırmışdır. Onun (s.ə.s) ilk qıldırdığı bayram namazı Ramazan bayramı namazı olmuşdur.

Əbu Səid əl-Xudri nəql edir: "Rəsulullah (s.ə.s) Ramazan və Qurban bayramı günlərində "müsəlla"ya (bayram namazları qılan xüsusi məkan) çıxardı. Əvvəlcə namaz qıldırardı. Namazdan sonra insanlara tərəf dönərək öyüd-nəsihət edər və "*Sədəqə verin!*" – deyərək xeyir işlərə təşviq edərdi. Ən çox qadınlar sədəqə verərdi".[365]

Bayram namazı cümə namazı kimi camaatla qılınmalıdır. Camaata çata bilməyən tək başına bayram namazını qıla bilməz.

Qurban bayram namazını tez, Ramazan bayram namazını isə bir az gec qılmaq müstəhəbdir. Bayram namazı qılındıqdan sonra xütbə oxunmalı və ən azı bir nəfər dinləməlidir.

### 1. Bayram namazı neçə təkbirlə və necə qılınır?

### HƏDİS:

عَنْ عَلْقَمَةَ وَالْأَسْوَدِ بْنِ يَزِيدَ قَالَ: كَانَ ابْنُ مَسْعُودٍ جَالِسًا وَعِنْدَهُ حُذَيْفَةُ وَأَبُو مُوسَى الْأَشْعَرِيُّ، فَسَأَلَهُمَا سَعِيدُ بْنُ الْعَاصِ عَنِ التَّكْبِيرِ فِي الصَّلَاةِ يَوْمَ الْفِطْرِ وَالْأَضْحَى فَجَعَلَ هَذَا يَقُولُ: سَلْ هَذَا، وَهَذَا يَقُولُ: سَلْ هَذَا، فَقَالَ لَهُ حُذَيْفَةُ:

364. Akyüz, e.a.ə. c. 2, s. 213.
365. Müslim, "Səhih", 889.

سَلْ هَذَا ـ لِعَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ـ فَسَأَلَهُ، فَقَالَ ابْنُ مَسْعُودٍ: «يُكَبِّرُ أَرْبَعًا ثُمَّ يَقْرَأُ، ثُمَّ يُكَبِّرُ فَيَرْكَعُ، ثُمَّ يَقُومُ فِي الثَّانِيَةِ فَيَقْرَأُ، ثُمَّ يُكَبِّرُ أَرْبَعًا بَعْدَ الْقِرَاءَةِ

Əlqamə və Əsvəd ibn Yezid bildirirlər ki, İbn Məsud oturmuşdu. Yanında da Hüzeyfə və Əbu Musa əl-Əşəri var idi. Səid ibn əl-As o ikisindən Ramazan və Qurban bayramlarında qılınan namazın təkbirləri haqqında soruşdu. Hüzeyfə: "Əbu Musadan", Əbu Musa da "Hüzeyfədən soruş" - deyərək bir-birinə yönləndirirdi. Sonunda Hüzeyfə "(Sən bu sualı) Abdullah ibn Məsuddan soruş," - dedi və o da soruşdu. Abdullah ibn Məsud belə cavab verdi: "(Hz. Peyğəmbər (s.ə.s)) dörd təkbir alır sonra qiraət edər və rükuya gedərdi. İkinci rükətə qalxdığı zamanda isə qiraət edər və sonra dörd təkbir gətirərək rükuya gedərdi".[366]

**ŞƏRH**:

Bayram namazı azan və iqamə oxunmadan[367] təkcə bayram günlərinə (Ramazan və Qurban) məxsus, imamla qılınan iki rükətli bir namazdır. Digər namazlardan fərqi bu namazda əlavə təkbirlərin olmasıdır. Bu təkbirlərə "zəvaid" təkbirləri deyilir. Əlavə təkbirlərin sayı altıdır. Hədisdə "dörd təkbir" qeyd olunmasını belə başa düşmək lazımdır ki, birinci rükətdə iftitah təkbiri və əlavə bayram namazının üç təkbiri, ikinci rükətdə isə bayram namazının üç təkbiri və rükuya getmək üçün intiqal təkbiri gətirilir. Ümumiyyətlə, bayram namazı belə qılınır:

---

366. Əbdürrəzzaq, "Müsənnəf", 5687.
367. Cabir ibn Səmurə belə demişdir: "Mən Rəsulullahla (s.ə.s) dəfələrlə azan və iqamə oxumadan bayram namazlarını qıldım". (Əbu Davud, "Sünən" 1148; Müslim, "Səhih" 887.)

Niyyət etdikdən sonra "Allahu əkbər" deyərək iftitah təkbiri alınır və əllər bağlanır. İmam və camaat birlikdə astadan "Sübhanəkə" duasını oxuyur, sonra imam ucadan, camaat astadan "Allahu Əkbər" deyərək üç dəfə təkbir gətirir. Hər təkbirdə əllər qulaqlara qədər qaldırılır sonra yanlara salınır. Üçüncü təkbirin arxasından yenə əllər bağlanır. İmam ucadan "Fatihə" və bir miqdar Quran oxuyur. Digər fərz namazlardakı kimi ucadan "Allahu Əkbər" deyərək rüku və səcdələr edilir. Sonra ikinci rükətə qalxılır. İmam Fatihə və Qurandan bir miqdar oxuyur. Rükuya getmədən əvvəl təkrar üç dəfə əllər qaldırılaraq ilk rükətdə olduğu kimi təkbir alınır. Yəni əllər qulaqlara qədər qaldırılır. Dördüncü rükətdə isə əllər qaldırılmadan təkbir gətirilir, rüku və səcdələr yerinə yetirilir. Təhiyyat, salli-barik və Rabbəna duaları oxunur və hər iki tərəfə salam verilərək namaz yekunlaşdırılır. Xülasə, bayram namazlarının hər rükətində əlavə üç təkbir alınır və bu təkbirləri söyləmək vacibdir.[368]

Bayram namazlarının birinci rükətinin rükusunda çatan şəxs bu rükuya yetişmək ümidi varsa, ayaq üstə ikən iftitah təkbiri ilə üç dəfə zəvaid təkbirləri alaraq rükuya getməlidir. Rükuya çatmayacağı qənaətinə gələrsə, iftitah təkbirindən dərhal sonra rüku etməlidir. Bayram təkbirləri vacib olduğu üçün rükuda olarkən əllərini qaldırmadan astadan oxumalıdır. İmam qalxdıqda təkbirləri bitirməsə də qalxmalıdır. Belə vəziyyətdə geridə qalan təkbirlər onun üzərindən düşür.

Bayram namazlarının ikinci rükətinə çatan şəxs birinci rükəti qəzaya qaldıqda Bismillah, "Fatihə" və əlavə surədən sonra astadan bayram təkbirlərini alar.[369]

---

368. Zeyləi, "Nəsb ər-Rayə", c. 2, s. 213; Akyüz, e.a.ə, c. 2, s. 215.
369. Akyüz, e.a.ə., c.2, s. 217.

**F. Cənazə namazı**

**HƏDİS:**

عَنْ أَبِى هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ صَلَّى اللّٰهُ عَلَيْهِ وَ سَلَّمْ
: "لِلْمُؤْمِنِ عَلَى الْمُؤْمِنِ سِتُّ خِصَالٍ: يَعُودُهُ إِذَا مَرِضَ،
وَيَشْهَدُهُ إِذَا مَاتَ، وَيُجِيبُهُ إِذَا دَعَاهُ، وَيُسَلِّمُ عَلَيْهِ إِذَا لَقِيَهُ،
وَيُشَمِّتُهُ إِذَا عَطَسَ، وَيَنْصَحُ لَهُ إِذَا غَابَ أَوْ شَهِدَ.

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Möminin mömin üzərində altı haqqı vardır:*

*1. Xəstələndikdə onu ziyarət etməli,*

*2. Vəfat etdikdə cənazəsində iştirak etməli,*

*3. Dəvət etdikdə dəvətinə icabət etməli,*

*4. Qarşılaşanda salam verməli,*

*5. Asqırdığı zaman "əlhəmdulillah" deyərsə "yərhamükəllah" deməli,*

*6. Yanında və yaxud qiyabında onun barəsində səmimi olmalıdır".*[370]

**ŞƏRH:**

Cənazə namazında iştirak etmək hər bir möminin mömin qardaşına qarşı olan vəzifələrindən biridir. Rəsulullah (s.ə.s) cənazə namazında iştirak edənlərə bir "qırat",[371] dəfn edilənə qədər iştirak edənlərə isə iki "qırat" miqdarı savab yazılacağını xəbər vermişdir.[372]

370. Tirmizi, "Sünən", 2737.
371. Rəvayətdə səhabələr "qırat"ın nə qədər olduğunu soruşduqda Hz. Peyğəmbər (s.ə.s) böyük bir dağ boyda olduğunu söyləyir.
372. Buxari, "Səhih", 1325; Müslim, "Səhih", 945.

Cənazə namazı fərzi-kifayədir. Təkcə bir nəfərin (qadın və ya kişi) belə olsa bu namazı qılması ilə fərz yerinə yetirilmiş olur. Rəsulullah (s.ə.s) bir müsəlman vəfat etdikdə səhabələrinə: "*Bir din qardaşınız vəfat etmişdir. Qalxın onun cənazə namazını qılın*!"[373] - buyurmuşdur. Bu namaz məkruh olan üç vaxt[374] istisna olmaqla hər zaman qılına bilər. Cənazə namazında rüku, səcdə yoxdur. Rüknləri iftitah təkbiri və qiyam ilə birlikdə dörd təkbirdir. Namazı bitirərkən salam vermək vacibdir.

Cənazə namazında izdihamlı bir camaatın olması şərt deyildir. Yalnız bir kişinin və ya bir qadının bu namazı qılması ilə fərz yerinə yetirilmiş olar.

### 1. Cənazə namazı neçə təkbirlə qılınır?

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ: أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ نَعَى النَّجَاشِيَّ فِي اليَوْمِ الَّذِي مَاتَ فِيهِ، وَخَرَجَ بِهِمْ إِلَى المُصَلَّى، فَصَفَّ بِهِمْ، وَكَبَّرَ عَلَيْهِ أَرْبَعَ تَكْبِيرَاتٍ

Əbu Hüreyrənin belə dediyi rəvayət edilmişdir: "Rəsulullah (s.ə.s) Nəcaşinin ölüm xəbərini vəfat etdiyi gün verdi. Əshabını namazgahda topladı və onlara səf tutdurdu. Sonra dörd təkbir gətirərək Nəcaşinin cənazə namazını qıldırdı."[375]

**ŞƏRH:**

Cənazə yuyulub və kəfənlənib namaz qılınacaq yerə gətirilməli və camaatın önünə qoyulmalıdır. İmam ölünün

---

373. Müslim, "Səhih", 952.
374. Müslim, "Səhih", 831.
375. Buxari, "Səhih", 1333; Müslim, "Səhih", 940; Əbu Davud,

sinəsi tərəfdə durmalıdır. Cənazədə iştirak edənlər də ayaq üstə və qibləyə doğru imamın arxasında dayanmalıdır. Cənazə namazı üçün niyyət etdikdən sonra imam ucadan, camaat isə astadan ilk təkbiri gətirir və əllər bağlanır. Hamı astadan “subhanəkə” duasını[376] oxuyur. Sonra imam ucadan camaat isə astadan ikinci təkbiri gətirir. Hamı “salli-barik” dualarını oxuyur. Sonra əllər qaldırılmadan üçüncü təkbir gətirilir və canazə namazı duası[377] oxunur. Bilməyənlər “Fatihə” surəsini oxuya bilər.[378] Dördüncü təkbirdən sonra da həm sağ, həm də sol tərəfə salam verərək namaz yekunlaşdırılır.

Cənazə namazında salam vermək vacib, dua və salavatları oxumaq isə sünnədir.

---

“Sünən”, 3155.
376. “va cəllə sənəuk”la birlikdə.
377. Peyğəmbərimiz (s.ə.s) cənazə namazında bu duanı edərdi:

اللَّهُمَّ اغْفِرْ لِحَيِّنَا وَمَيِّتِنَا وَشَاهِدِنَا وَغَائِبِنَا وَصَغِيرِنَا وَكَبِيرِنَا وَذَكَرِنَا وَأُنْثَانَا. اللَّهُمَّ مَنْ أَحْيَيْتَهُ مِنَّا ، فَأَحْيِهِ عَلَى الإِسْلامِ ، وَمَنْ تَوَفَّيْتَهُ مِنَّا فَتَوَفَّهُ عَلَى الإِيمَانِ. اللَّهُمَّ لَا تَحْرِمْنَا اجْرَهُ وَ لَا تَضِلَّنَا بَعْدَهُ.

OXUNUŞU:

“Allahummə-ğfir li hayyinə və meyyitinə və şahidinə və ğaibinə və sağirinə və kəbirinə və zəkərinə və unsanə! Allahummə mən əhyəytəhu minnə fə əhyihi alə-l-isləmi və mən təvaffəytəhu minnə fətəvaffəhu alə-l-imən. Allahummə lə təhrimna əcrahu və lə tədillənа bə`dəhu.

MƏNASI:

“Allahım! Dirilərimizi, ölülərimizi, burada olanlarımızı, olmayanlarımızı, kiçiklərimizi  böyüklərimizi, kişilərimizi və qadınlarımızı bağışla! Allahım! Bizlərdən yaşatdığını müsəlman kimi yaşat, öldürdüyünü də iman üzrə öldür!Allahım! Bizi onun savabından məhrum etmə. Ondan sonra biz həqq yoldan ayırma. (Tirmizi, “Sünən”, 1024)
378. Tirmizi, “Sünən”, 1026.

## 2. Cənazə namazında təkbirlər üçün əllər qalırılmalıdır?

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ؛ أَنَّ رَسُولَ اللهِ صلى الله عَليه وسَلم كَبَّرَ عَلَى جَنَازَةٍ, فَرَفَعَ يَدَيْهِ فِي أَوَّلِ تَكْبِيرَةٍ, وَوَضَعَ الْيُمْنَى عَلَى الْيُسْرَى

Əbu Hüreyrə belə demişdir: "Rəsulullah (s.ə.s) cənazə namazı üçün təkbir gətirdi və əllərini sadəcə ilk təkbirdə qaldırdı. Sonra sağ əlini sol əlinin üzərin qoydu".[379]

**ŞƏRH:**

Hz. Peyğəmbərin (s.ə.s) cənazə namazında əllərini sadəcə ilk təkbirdə qaldırdığına dair Abdullah ibn Abbasdan da rəvayət nəql edilmişdir. Rəvayətdə belə buyurulur: "Rəsulullah (s.ə.s) cənazə namazının ilk təkbirində əllərini qaldırar sonra isə qaldırmazdı".[380] Xülasə, ilk təkbirdə əllər qaldırılmalı, sonrakı təkbirlər üçün əllərin qaldırılmasına ehtiyac yoxdur. Ayrıca qiraət üçün bağlanan əllərin, sağa salam veriləndə sağ əli, sola salam verəndə sol əli açmaqla əlaqəli mötəbər dəlil tapılmamışdır.

379. Tirmizi, "Sünən", 1077.
380. Darəqutni, "Sünən", 1832.

## G. Əvvabin namazı

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: مَنْ صَلَّى بَعْدَ الْمَغْرِبِ سِتَّ رَكَعَاتٍ لَمْ يَتَكَلَّمْ فِيمَا بَيْنَهُنَّ بِسُوءٍ عُدِلْنَ لَهُ بِعِبَادَةِ ثِنْتَيْ عَشْرَةَ سَنَةً

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə demişdir: "Kim axşam namazından sonra nalayiq söz söyləmədən altı rükət namaz qılarsa, bu həmin şəxs üçün on iki illik (nafilə) ibadətə bərabər olar".[381]

**ŞƏRH:**

Əvvabin kəlməsi "günahlardan bağışlanmaq üçün tövbə edən, Allahı çox zikr edən, bütün işlərində Allaha itaət və təvəkkül edən, heç kəsin olmadığı yerdə gizlicə tövbə edən, çox mərhəmətli olan və çox namaz qılan"[382] mənasına gəlir. Əvvabin namazı tövbə edən və Allaha sığınanların namazı deməkdir.

İslam alimləri məğrib namazı ilə işa namazı arasında qılınan namaza əvvabin namazı demişlər. Bunu Amr ibn Asdan gələn rəvayətlə əsaslandırmışlar. Belə ki, o demişdir: "Axşam namazından sonra işa namazının vaxtına qədər olan müddət əvvabin namazının vaxtıdır".[383]

Bu namazın qılınması bağışlanma səbəblərindən biri kimi qəbul edilmişdir. Bir gün Əmmar ibn Yasir axşam namazından sonra altı rükət namaz qıldı. Yanındakılar

381. Tirmizi, "Sünən", 435; İbn Macə, "Sünən", 1168.
382. Yavuz, Yunus Vehbi, "Evvabin Namazı", DİA, İstanbul 1995, c. 11, s. 544.
383. Qurtubi, "əl-Cami li əhkamil-Quran", Qahirə 1964, c. 14, s. 101.

bu namazın nə olduğunu soruşdular. O belə cavab verdi: "Rəsulullahın (s.ə.s) axşam namazından sonra altı rükət namaz qıldığını gördüm. Namazdan sonra: "*Kim axşam namazından sonra altı rükət qılarsa dəniz köpüyü qədər günahları olsa da bağışlanar,*" – dediyini eşitdim.[384] Mən də buna görə bu namazı qılıram.

Hədisdə qeyd olunan altı rükətdən ikisi məğrib namazının iki rükət sünnə namazıdır. Digər dörd rükət isə əvvabin namazıdır. Əvvabin namazı iki və yaxud dörd rükət qılındığı kimi daha çox da qılına bilər. Hz. Aişədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) buyurmuşdur ki: "Kim axşam namazından sonra iyirmi rükət (nafilə) namaz qılarsa, Allah onun üçün cənnətdə bir köşk inşa edər".[385]

Nafilə ibadətlər şəxsin ixtiyarına buraxılmışdır. Yəni nafilə ibadətlə məşğul olmaq istəyən şəxs istədiyi və ya gücünün çatdığı qədər ibadət edə bilər. Bunu unutmayaq ki, nafilə namazlar üçün minimum hədd iki rükət olaraq qəbul edilmişdir. İstənilən nafilə namaz ən azı iki rükət qılınmalıdır ki, nafilə sayılsın. Əvvabin namazı üçün də bu qayda etibarlıdır. Xülasə, onu deyə bilərik ki, nafilə ibadətlərin ən fəzilətlilərindən sayılan əvvabin namazını ən az iki rükət və ya hədislərdə bildirildiyi kimi dörd rükət də qılmaq olar.

Əvvabin namazının qılınmasında hər hansı fərqlilik yoxdur. İki rükət qılınacaqsa, sübh namazının sünnəsi kimi, dörd rükət qılınacaqsa, bir salamla əsr namazının sünnəsi kimi qılınır.

---

384. Təbərani, "Möcəm əs-sağir", 900.
385. Tirmizi, "Sünən", 435.

# İKİNCİ FƏSİL
# NAMAZLA ƏLAQƏLİ BƏZİ MƏSƏLƏLƏR

## I. NAMAZLA ƏLAQƏLİ BƏZİ MƏSƏLƏLƏR

Bu bölmədə namazı qılma şəkli ilə əlaqəli yox, ümumiyyətlə namazın kamilliyinə səbəb təşkil edən bəzi məsələlərə təmas ediləcəkdir.

### A. İqamə cüt-cüt oxunur!

### HƏDİS:

عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى، قَالَ: حَدَّثَنَا أَصْحَابُ رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، « أَنَّ عَبْدَ اللَّهِ بْنَ زَيْدٍ الْأَنْصَارِيَّ جَاءَ إِلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ , فَقَالَ: يَا رَسُولَ اللَّهِ، رَأَيْتُ فِي الْمَنَامِ كَأَنَّ رَجُلًا قَامَ وَعَلَيْهِ بُرْدَانِ أَخْضَرَانِ عَلَى جِذْمَةِ حَائِطٍ، فَأَذَّنَ مَثْنَى، وَأَقَامَ مَثْنَى، وَقَعَدَ قَعْدَةً »، قَالَ: «فَسَمِعَ ذَلِكَ بِلَالٌ، فَقَامَ، فَأَذَّنَ مَثْنَى، وَأَقَامَ مَثْنَى، وَقَعَدَ قَعْدَةً»

Abdurrahman ibn Leyladan rəvayət edildiyinə görə Hz. Peyğəmbərin (s.ə.s) əshabı belə demişdir: "Abdullah ibn Zeyd əl-Ənsari Hz. Peyğəmbərin (s.ə.s) yanına gəldi və belə dedi: "Ey Allahın Rəsulu! Yuxumda üzərində iki yaşıl paltar olan adam gördüm. Divara çıxdı və sözlərini iki dəfə təkrarlayaraq azan, sonra da sözlərini iki dəfə təkrarlayaraq iqamə oxudu. Bunu eşidən Bilal da əzanı və iqaməni kəlmələrini iki dəfə təkrarlayaraq oxudu. Aralarında bir dəfə oturdu".[386]

386. İbn Əbu Şeybə, "Müsənnəf", 2118.

**ŞƏRH:**

Azan və iqamə fərz namazları üçün müəkkəd sünnədir. Hz. Peyğəmbər belə buyurmuşdur: "*Namaz vaxtı gəldiyi zaman içinizdən biriniz azan oxusun, ən böyük olanınız da imamlıq etsin*".[387]

Azan yavaş-yavaş, iqamə isə sürətli oxunmalıdır.[388] Bəzi alimlər azan və iqamənin ifadələrinin təkrar edilməsi barəsində fərqli fikirlər səsləndirmişlər. Ancaq qəbul edilən və tətbiq edilən görüşə əsasən azan ilə iqamə arasında heç bir fərq yoxdur. Ancaq iqamədə "hayyə aləl-fəlah" sözünüdən sonra iki dəfə "qad qamətis-saləh" cümləsi əlavə edilir. Yəni azan ilə iqamə arasında say və cümlələrin təkrarı baxımından fərq yoxdur.

Qəza namazları üçün də azan oxunub iqamə gətirilməlidir. İmran ibn Husayn belə demişdir: "Rəsulullah (s.ə.s) əshabı ilə bir səfərdə idi. O və əshabı sübh namazı vaxtında yuxulayıb qaldılar. Günəşin hərarəti onları oyandırdı. Günəş yüksələnə qədər yollarına davam etdilər. Sonra Rəsulullah (s.ə.s) müəzzinə göstəriş verdi, o da azan oxudu. Sübh namazının fərzindən əvvəl iki rükət sünnə namazı qıldı. Sonra yenə müəzzinə əmr verdi, o da iqamə oxudu. Sonra Rəsulullah (s.ə.s) əshabı ilə birlikdə (camaatla) sübh namazının fərzini (qəzasını) qıldılar.[389] Onu da qeyd edək ki, bir məkanda bir neçə namazın qəzası qılınacaqsa, bir azan kifayətdir. Ancaq hər bir namaz üçün ayrıca iqamə oxunmalıdır.

387. Buxari, "Səhih", 602
388. Tirmizi, "Sünən", 195.
389. Əbu Davud, "Sünən", 443.

### B. Səfləri sıxlaşdırmaq üçün dabanları birləşdirmək vacibdir?

**HƏDİS:**

عَنْ ابْنَ عُمَرَ، أَنَّ رَسُولَ اللهِ صلى الله عَلَيهِ وَسَلمَ قَالَ: أَقِيمُوا الصُّفُوفَ، وَحَاذُوا بَيْنَ الْمَنَاكِبِ، وَسُدُّوا الْخَلَلَ، وَلِينُوا بِأَيْدِي إِخْوَانِكُمْ, لَمْ يَقُلْ عِيسَى: بِأَيْدِي إِخْوَانِكُمْ، وَلاَ تَذَرُوا فُرُجَاتٍ لِلشَّيْطَانِ، وَمَنْ وَصَلَ صَفًّا وَصَلَهُ اللهُ, وَمَنْ قَطَعَ صَفًّا قَطَعَهُ اللهُ

İbn Ömərdən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Səflərinizi düz tutun. Çiyinlərinizi bərabər (düz xətt şəklində) tutun, boşluqları doldurun. Qardaşlarınızla yumşaq davranın. Aranızda şeytanın girə biləcəyi boşluqlar buraxmayın. Allah səflərini bitişik tutanların könüllərini xoş edər. Səflərini düz tutmayanları da Allah rəhmətindən uzaqlaşdırar*".[390]

**ŞƏRH:**

Camaatla qılınan namazlarda ən önəmli məsələlərdən biri də səflərin düz və sıx tutulmasıdır. Bu məsələ barəsində çox sayda hədis rəvayət edilmişdir. Rəvayətlərin ümumi məzmununa diqqət yetirdikdə Hz. Peyğəmbər (s.ə.s) əsasən səflərin düz xətt kimi düzgün olmasına diqqət yetirmiş, buna laqeyd yanaşanlara müəyyən xəbərdarlıqlar etmişdir. Səflərin düzgün olmasının namazın bir hissəsi olduğunu söyləmişdir.

Hədisdə qeyd olunan məsələlərdən biri də səfi düzəltmək üçün çiynindən tutub irəli-geri çəkən birinə mülayim davranmaqdır. Xoş niyyətlə səfi düzəltmək istəyənə

390. Əbu Davud, "Sünən", 666.

qəzəblənmək yerinə ona minnətdar olmaq lazımdır. Çünki səflərin düzgünlüyü namazın kamilliyi üçün mütləqdir. Həmçinin arxa səfdə tək qalan birinin ön səfdən birinin çiynindən tutaraq özünün yanına çəkməsi məsələsində də ona çətinlik yaratmamaq lazımdır. Çünki bir şəxsin (məcbur qalmadıqca) təkbaşına səf tutması xoşagəlməz sayılmışdır.

Müəyyən təmsili ifadələrlə izahlar verən Hz. Peyğəmbər (s.ə.s) yuxarıda qeyd olunan hədisində boşluqlara şeytanın girə biləcəyini söyləyərək, səflər arasındakı boşluqların namaz qılanlar arasında soyuqluq yaranmasına səbəb olacağına diqqət cəlb etmişdir. Möminlər arasındakı isti münasibəti və məhəbbəti pozmağa çalışan şeytan, səflər arasındakı boşluqları öz lehinə istifadə edə bilər. Məhz buna görə də bir rəvayətdə səflərdəki əyriliyin qəlblər arasında əyrilik, soyuqluq yarada biləcəyi ifadə edilmişdir.[391]

Səflərdə düzlənməklə əlaqəli günümüzdə müzakirə edilən məsələlərdən biri də dabanların yanındakının dabanı ilə birləşdirilməsi məsələsidir. Bəzi anlayışa görə (zahiri baxışa görə) səflərdə əsas olan düzgünlük və dabanların birləşdirilməsidir. Ancaq mövzu ilə əlaqəli bütün rəvayətlər nəzərdən keçirildikdə[392] Hz. Peyğəmbərin (s.ə.s) səfləri düzəltməklə yanaşı, çiyinlərin də bir-birinə birləşməsinə, yəni səflərin sıx tutulmasına əhəmiyyət verdiyi nəzərə çarpır. Odur ki, məsələnin məğzinin dabanların birləşdirilməsinə bağladıqda çiyinlərin birləşməsi mümkün görünmür.

Bu məsələdə dəlil kimi istifadə edilən rəvayət belədir: Ənəs ibn Malikdən rəvayət edildiyinə görə Rəsulul-

391. Müslim, "Səhih", 432; Əbu Davud, "Sünən", 662.
392. Hədis elmi tədris edən hər bir şəxs bilir ki, bir mövzu barəsində hədislər əsasında fikir bildirmək üçün mütləq o mövzu barəsindəki bütün rəvayətlər toplanmalı, ümumi rəvayətlər əsasında analiz aparılmalıdır. Əks təqdirdə qeyri-obyektiv yanaşma ortaya çıxar.

lah (s.ə.s): "*Səflərinizi düz tutun. Çünki mən sizi arxamda görürəm*", - dedi. Bunun müqabilində hər birimiz çiynini digərinin çiyninə, ayağını digərinin ayağına birləşdirdi.[393]

Əvvəla onu qeyd edək ki, rəvayətdə də gördüyümüz kimi Hz. Peyğəmbərin (s.ə.s) səfi düz tutmaqla əlaqəli xəbərdarlığından səhabələr sadəcə daban birləşdirməyi başa düşməmiş, çiyinlərin də birləşməsinə diqqət yetirmişlər. Həmçinin bu bir səhabə tətbiqatıdır.

Məsələ barəsində müasir alimlərdən Təhanəvinin fikrini ixtisarla qeyd etmək istərdik. O belə demişdir: "Dövrümüzdə bəzi kimsələr bu hədisin zahirinə baxaraq ayağını yanındakının ayağına birləşdirir. Bunlar namazın axırına kimi özlərini buna məcbur edirlər. Çiyinləri çiyinə, dizləri dizə, ayaqları da ayağa birləşdirirək durmaq, çox məşəqqətlidir. Xüsusilə, namazın sonuna qədər belə durmağın çox ciddi çətinlik olduğu göz qabağındadır. Dinin isə məşəqqətə yox, asandlaşdırmağa təşviq etdiyi məlum məsələdir. Həmçinin namaz qılanların boylarının fərqli olması sözün əsl mənasında qeyd olunan orqanları bir-birinə birləşdirməyi çətinləşdirir, hətta qeyri-mümkün edir. Odur ki, bu rəvayətdə qeyd edilən əsas məsələ orqanları eyni bərabər tutmaqdır.

Buxarinin "Səhih" adlı əsərini şərh edən görkəmli alimlərdən biri olan İbn Həcər də bu hədisdəki keçən "Ayaqların birləşdirilməsi" ifadəsini şərh edərkən əsas məqsədin səfləri düz tutub boşluqları doldurmaq olduğunu qeyd etmişdir.[394]

Səhabənin bu tətbiqatı sonrakı dövrlərdə tərk edilmişdir. Məmərin Hümeydidən rəvayət etdiyinə görə Ənəs ibn Malik belə demişdir: "Əgər bunu (dabanları birləşdirmək)

393. Buxari, "Səhih", 725.
394. İbn Həcər, "Fəth əl-bari", c. 2, 176.

bu gün etsəydim, yanımdakı adamlar şıltaq qatırlar kimi yanımdan qaçardılar. Odur ki, bu davranış, əgər namazın sünnələrindən bir sünnə olsaydı, səhabə onu tərk etməz və narahat olmazdılar".[395] Xülasə, bu məsələdə əsas diqqət yetirilməli məqam səfləri düzgün və sıx tutmaqdır.

Yeri gəlmişkən səflərlə əlaqəli bir məsələyə də təmas etmək istərdik. Belə ki, səfdə duran (camaatla və yaxud fərdi şəkildə) şəxs ayaqlarının nə qədər aralı saxlamalıdır? Əvvəla onu deyək ki, bu məsələ barəsində açıq bir dəlil yoxdur. Mövzu ətrafındakı rəvayətlər əsasında alimlər müəyyən fikirlər bildirmişlər. Əbu Hənifənin qəbul etdiyi görüşə görə qiyamda bir şəxsin ayaqları arasındakı məsafə təqribən dörd barmaq ölçüsündə olmalıdır.[396]

---

395. Təhanəvi, "İlaus-sünən", Karaçi/ Pakistan 1414, c.4. s. 359-360. (Türk dilinə tərcümə üçün bax. c. 3, s. 451)
396. Şurunbulali, "Məraq əl-fəlah", s. 98. Şafei məzhəbinə görə ayaqların arası bir qarış (Zəkəriyya əl-Ənsari, "Əsnə əl-mətalib", c.1, s. 162), Maliki və Hənbəli məzhəblərinə görə isə nə çox açılmalı, nə də birləşdirilməlidir. (Zühayli, "əl-Fiqh əl-əkbər", c. 1, s. 695)

### C. Namazdan sonra oxunan bəzi ayələr hansı rəvayətlərə əsaslanır?

Hz. Peyğəmbər (s.ə.s) bəzi namazlardan sonra müxtəlif surələr və yaxud surələrdən bir neçə ayə oxumuş və əshabı da bunları təkrar etmişdir. Bu surə və duaların oxunması sünnə olduğuna görə müsəlmanların onlara riayət etməsi və təkrarlaması tövsiyə edilən müstəhəb əməllərdəndir. Bu sünnə və ənənələrin davam etdirilməsi ibadətlərin xüşusunu artırdığı kimi, ibadətlərin kamilliyinə də töhfə verir.

#### 1. Ayətül-kürsi

**HƏDİS:**

حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ حَسَنِ بْنِ حَسَنٍ ، عَنْ أَبِيهِ ، عَنْ جَدِّهِ ، قَالَ : قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ : مَنْ قَرَأَ آيَةَ الْكُرْسِيِّ فِي دُبُرِ الصَّلاَةِ الْمَكْتُوبَةِ كَانَ فِي ذِمَّةِ اللهِ إِلَى الصَّلاَةِ الأُخْرَى

Abdullah ibn Həsən ibn Həsən atasından o da babasından rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s) belə demişdir: "*Kim fərz namazlardan sonra "ayətül-kürsi"ni oxuyarsa sonrakı namaza qədər Allahın himayəsində olar*".[397]

**ŞƏRH:**

"Bəqərə" surəsinin 255-ci ayəsi "ayətül-kürsi" adı ilə məşhur olmuşdur. İçində "kürsü" kəlməsi keçdiyi üçün bu ayəyə "Ayətül-kürsi" deyilmişdir. Bəzi rəvayətlərdə "Quranın əfəndisi"[398] olduğu qeyd edilmişdir. Burada sözügedən kürsü bildiyimiz kürsü və ya taxt mənasında deyil, Allahın şəninə layiq olan və mahiyyətini bilmədiyimiz bir şeydir. Bu ayənin məzmunu Allahın vəsfləri ilə əlaqəli

397. Təbərani, "Möcəm əl-kəbir", 2733.
398. Tirmizi, "Sünən", 2878.

əqidəvi mövzulardan ibarətdir.[399] Fəziləti barəsində yüzə yaxın hədis rəvayət edilmişdir.

Xüsusi ilə hər namazdan sonra oxunması tövsiyə edilmişdir. Əsasən də namazdan sonra edilən zikrlərdən əvvəl oxunur. Hz. Peyğəmbər (s.ə.s) namazdan sonra bu ayənin oxunmasının cənnətə giriş səbəbi olduğunu xəbər vermişdir. Belə ki, bir rəvayətdə O (s.ə.s) belə buyurmuşdur: "*Hər fərz namazlarından sonra ayətül-kürsini oxuyanın cənnətə girməsinə yeganə əngəl (hələ də) ölməmiş olmasıdır*".[400]

"Ayətül-kürsi"nin namaz xaricində də oxunması tövsiyə edilmişdir. Məsələn, yatağına girən kimsə "ayətül-kürsi" oxuyarsa Allah onu mühafizə edər və şeytanlar ona yaxınlaşmaz.[401] Abudullah ibn Übeyd ibn Ümeyr rəvayət edir: "Əbdürrəhman ibn Övf evinə girəndə evin künclərində ayətül-kürsi oxuyardı".[402]

---

399. Ayənin məalı belədir: **Allahdan başqa ilah yoxdur! O diridir, bütün məxluqatı idarə edir. O nə mürgüləyər, nə də yuxulayar. Göylərdə və yerdə nə varsa hamısı Onundur. İzni olmadan Onun yanında kim şəfaət edə bilər?! Önlərindəkini** (edəcəkləri əməlləri) **də, arxalarındakını** (etdikləri əməlləri) **də O bilir.** (Yaradılanlar) **Allahın elmindən, Onun dilədiyi qədərindən başqa heç nəyi qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları mühafizə etmək isə Ona çətin deyildir. Ən uca və ən böyük olan da Odur!**
400. Təbərani, "Möcəm əl-kəbir", 7532.
401. Buxari, "Səhih", 2311.
402. Heysəmi, "Məcməuz-zəvaid", 17076.

## 2. Həşr surəsi (Hüvallahul-ləzi)

**HƏDİS:**

عَنْ مَعْقِلِ بْنِ يَسَارٍ، عَنِ النَّبِيِّ صَلَّى اللّٰهُ عَلَيْهِ وَسَلَّمَ، قَالَ: مَنْ قَالَ حِينَ يُصْبِحُ ثَلاَثَ مَرَّاتٍ: أَعُوذُ بِاللّٰهِ السَّمِيعِ العَلِيمِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ وَقَرَأَ ثَلاثَ آيَاتٍ مِنْ آخِرِ سُورَةِ الحَشْرِ وَكَّلَ اللّٰهُ بِهِ سَبْعِينَ أَلْفَ مَلَكٍ يُصَلُّونَ عَلَيْهِ حَتَّى يُمْسِيَ، وَإِنْ مَاتَ فِي ذَلِكَ اليَوْمِ مَاتَ شَهِيدًا، وَمَنْ قَالَهَا حِينَ يُمْسِي كَانَ بِتِلْكَ الْمَنْزِلَةِ

Məqil ibn Yəsardan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Kim səhər "Əuzu billəhis-səmiil alimi minəş-şeytanir-racim" deyərək "Həşr" surəsinin son üç ayəsini oxuyarsa Allah onun üçün axşama qədər dua və istiğfar edəcək yetmiş min mələk vəzifələndirər. Əgər həmin gün vəfat edərsə, şəhid sayılar. Kim axşama girərkən də oxuyarsa eyni dərəcədə olar*".[403]

**ŞƏRH:**

Alimlər hədisdə qeyd olunan "səhər" və "axşam" ifadələrindən məqsədin sübh və məğrib namazı olduğunu qeyd etmişlər. Odur ki, sübh və məğrib namazlarından sonra "Həşr" surəsinin son üç ayəsini[404] oxu-

---

403. Tirmizi, "Sünən", 2922.

404.

هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ ۖ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ ۖ هُوَ الرَّحْمَٰنُ الرَّحِيمُ. هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ ۚ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ. هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ ۖ لَهُ الْأَسْمَاءُ الْحُسْنَىٰ ۚ يُسَبِّحُ لَهُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ ۖ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

**O, elə bir Allahdır ki, Özündən başqa heç bir ilah yoxdur! Gizlini də, aşkarı da O bilir. O, mərhəmətlidir, rəhmlidir. O,**

maq müstəhəb əməldir. Səhər və axşam oxuyanlar gün boyunca Allahın himayəsində sayılırlar. Bundan əlavə bəzi rəvayətlərdə son dörd ayənin oxunması da tövsiyə edilmişdir.

### 3. Bəqərə surəsi (Əmənər-Rasulü)

**HƏDİS:**

عَنْ أَبِي مَسْعُودٍ الْبَدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: الآيَتَانِ مِنْ آخِرِ سُورَةِ الْبَقَرَةِ، مَنْ قَرَأَهُمَا فِي لَيْلَةٍ كَفَتَاهُ

Əbu Məsud əl-Bədridən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Kim hər gecə "Bəqərə" surəsinin son iki ayəsini (əmənər-rəsulü) oxuyarsa, onun üçün kifayətdir"*.[405]

**ŞƏRH:**

"Bəqərə" surəsinin son iki ayəsi Uca Allah tərəfindən Hz. Peyğəmbərə (s.ə.s) Merac gecəsində hədiyyə edilmişdir. Bu ayələrə İslam ədəbiyyatında "Əmənər-rasulü"[406] adı verilmişdir.

---

**elə bir Allahdır ki, Özündən başqa heç bir ilah yoxdur! O, hökmrandır, müqəddəsdir, salamatlıq bəxş edəndir, əmin-amanlıq verəndir, müşahidə edəndir, qüdrətlidir, məcbur etməyə qadirdir, çox ucadır. Allah** (müşriklərin) **Ona şərik qoşduqlarından uzaqdır. O, yaradan, yoxdan var edən,** (yaratdıqlarına) **surət verən Allahdır. Ən gözəl adlar** (əsmayi-hüsna) **Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, hamısı Onu təsbeh edir. O, qüdrətlidir, hikmət sahibidir.** (Həşr surəsi 59/22-24.)

405. Buxari, "Səhih", 4008; Müslim, "Səhih", 807.

406. آمَنَ الرَّسُولُ بِمَا أُنْزِلَ إِلَيْهِ مِنْ رَبِّهِ وَالْمُؤْمِنُونَ ۚ كُلٌّ آمَنَ بِاللَّهِ وَمَلَائِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْ رُسُلِهِ ۚ وَقَالُوا سَمِعْنَا وَأَطَعْنَا ۖ غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ. لَا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا ۚ

Rəvayət edildiyinə görə, bu iki ayənin üç gün müntəzəm oxunduğu evə şeytan yaxınlaşa bilməz.[407] Başqa bir rəvayətdə Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "*Allah -Təala "Bəqərə" surəsini iki ayə ilə bitirmişdir. Bunlar mənə ərşin altındakı bir xəzinədən verilmişdir. Bunları öyrənin, xanım və övladlarınıza da öyrədin və əzbərlədin! Çünki bunlar (bu iki ayə) həm rəhmət, həm dua, həm də Qurandır*".[408]

Oxuyanlara cənnət mükafatlarının veriləcəyinin vəd olunduğu bu iki ayənin, yəni əmənər-rəsulünün işa namazından sonra oxunması yuxarıda qeyd olunan hədisə əsasən adət halına çevrilmişdir. Həm fərdi, həm də camaatla qılınan işa namazından sonra oxunması məqsədə müvafiqdir. Namazdan sonra namazı qıldıran imamın ucadan oxuması, bilməyənlərin öyrənmələri, bilənlərin xətalarını düzəltmələri baxımından məqsədə müvafiqdir.

---

لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ ۗ رَبَّنَا لَا تُؤَاخِذْنَا إِنْ نَسِينَا أَوْ أَخْطَأْنَا ۚ رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِنْ قَبْلِنَا ۚ رَبَّنَا وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِ ۖ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا ۚ أَنْتَ مَوْلَانَا فَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

**Peyğəmbər və möminlər, Rəbbindən ona nazil edilənə** (Qurana) **iman gətirmişlər. Onların hamısı Allaha, mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirmişlər. Biz Onun peyğəmbərlərindən heç biri arasında fərq qoymuruq. Onlar belə demişdilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz, bizi bağışla! Qayıdış Sənədir!" Allah heç kəsi gücü yetdiyindən artıq yükləməz. Hər kəsin qazandığı** (yaxşı əməli) **lehinə,** (pis əməli) **isə əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya yanılsaq, bizi cəzalandırma! Ey Rəbbimiz, bizə, bizdən əvvəlkilərə yüklədiyin kimi ağır bir yük yükləmə! Ey Rəbbimiz, gücümüzün çatmadığı bir şeyi bizə yükləmə! Bizi əfv et! Bizi bağışla! Bizə rəhm et! Sən himayədarımızsan. Kafirlər qövmünə qarşı bizə yardım et!"** (Bəqərə, 2/285-286)

407. Tirmizi, "Sünən" 2882.
408. Darimi, "Sünən", 3423.

### D. Namazdan sonra zikr və dualar

Namazlardan sonrakı təsbihat və dualar, namaza daxil olmasalar da məqbul ibadətlərdən sayılan müstəhəb bir əməldir. Allah Rəsulu özü də namazdan sonra dua və təsbihat etmiş və bunu ümmətinə tövsiyə etmişdir. Namaz qıldıqdan sonra dərhal məsciddən ayrılmaq bir növ Allahın hüzurundan qaçmaq kimi başa düşüldüyünə görə uyğun əməl kimi qəbul edilməmişdir. Hz. Peyğəmbər (s.ə.s) də namazdan dərhal sonra ayrılmamış, müəyyən bir müddət oturmuş, bəzi dua və zikrlər etdikdən sonra ayrılmışdır.

Hz. Peyğəmbər (s.ə.s) namaz qıldırdıqdan sonra sağ tərəfindən camaata tərəf yönələr onlara müxtəlif öyüd-nəsihətlər verər sonra dua edərdi. Namazlardan sonra təsbeh, zikr və duaların edilməsi məsələsi bölgə, adət-ənənə və məzhəb görüşlərinə görə müxtəlifdir.

#### 1. Namazdan sonra hansı zikrlər edilməlidir?

**HƏDİS:**

عَنْ أَبِي هُرَيْرَةَ، عَنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ مَنْ سَبَّحَ اللهَ فِي دُبُرِ كُلِّ صَلَاةٍ ثَلَاثًا وَثَلَاثِينَ، وَحَمِدَ اللهَ ثَلَاثًا وَثَلَاثِينَ، وَكَبَّرَ اللهَ ثَلَاثًا وَثَلَاثِينَ، فَتْلِكَ تِسْعَةٌ وَتِسْعُونَ، وَقَالَ: تَمَامَ الْمِائَةِ: لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ غُفِرَتْ خَطَايَاهُ وَإِنْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Kim hər namazın sonunda otuz üç dəfə "Sübhanəllah", otuz üç dəfə "Əlhəmdulillah", otuz üç dəfə də "Allahu əkbər" deyər və "Allahdan başqa heç bir*

*ilah yoxdur. Yalnız O vardır. Şəriki də yoxdur. Mülk Onundur; Həmd də ona məxsusdur; O hər şeyə qadirdir" duası ilə yüzə tamamlayarsa, günahları dənizin köpüyü qədər olsa belə bağışlanar".*[409]

**ŞƏRH:**

Hz. Aişənin rəvayət etdiyinə görə Hz. Peyğəmbər (s.ə.s) fərz namazını qıldıqdan sonra müəyyən bir müddət oturar və

اللَّهُمَّ أَنْتَ السَّلاَمُ وَمِنْكَ السَّلاَمُ تَبَارَكْتَ يا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ

(Allahummə əntəs-sələmu və minkəs-sələm təbəraktə yə zəl cələli vəl-ikram) "Allahım! Sənin əsmayi-hüsnandan biri də Salamdır. Sən nicat və əmin-amanlıq mənbəyisən. Ey Cəlal və Kərəm sahibi Rəbbim! Sən necə də Ucasan, necə Mütəalsan (Alisən)"[410] duasını oxuyardı. Başqa bir rəvayətdə isə üç dəfə istiğfar (əstəğfirullah deyər) edər və sonra qeyd olunan duanı (Allahummə əntəs-səlam...) oxuyardı.[411]

Namaz bitdikdən sonra 33 dəfə sübhənəllah, 33 dəfə Əlhəmdülillah və 33 dəfə Allahu əkbər deyilməsi bütün müsəlmanlar tərəfindən birmənalı qarşılanmış və tətbiq edilmişdir. Bu təsbehlər bitdikdən sonra bir dəfə də "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul mülkü və ləhül-həmdü və hüvə alə kulli şeyin qadir" deyilir və cəmi 99 olan say bu dua ilə 100 olur.

Namazlardan sonra oxunan təsbeh zikrləri ilə əlaqəli səhabələrdən Kab ibn Ucrə Rəsulullahın (s.ə.s) bu sözünü nəql etmişdir: "Bu üç şeyi hər kim namazlardan sonra

409. Müslim, "Səhih" 597.
410. Müslim, "Səhih", 592.
411. Müslim, "Səhih", 591.

edərsə o xüsrana uğramaz. Bu üç şey otuz üç dəfə “sübhanllah” otuz üç dəfə “əlhəmdülillah” və otuz üç dəfə də “Allahu əkbər” deməkdir.[412]

Namazın mənası Allah-Təalanı təsbeh, Ona təzim və şükür etməkdir. Yəni cəlalı qarşısında həm söz, həm də əməllə “Sübhənəllah” deyib Onu bütün nöqsanlardan tənzeh etmək (uzaq bilmək), kamalı qarşısında dil və əməllə “Allahu əkbər” deyib təzim etmək, cəmalı qarşısında qəlblə, dillə və vücudla “Əlhəmdulilləh” deyib şükür etməkdir.

İbadətlərə dəyər qatan əsas amil niyyət və səmimiyyətdir. İxlas və səmimiyyətdən məhrum qalan heç bir ibadət və davranışın dini baxımdan dəyəri yoxdur. Buna əsasən namazdan sonra oxunan bu təsbehlərdə tələsməmək lazımdır. Bəzən namazdan sonrakı zikrlər sürətlə oxunur, hətta zikr kəlmələri tam söyləmədən (sübhənəllah yerinə süb-süb, əlhəmdülillah yerinə ələm-ələm kimi) yarımçıq söylənir. Sürətlə oxunan dua və zikrlər anlaşılmaz olur. Buna görə də zikrləri tələsmədən, tək-tək oxumaq məsləhətdir. Unutmayaq ki, İslamda kəmiyyətdən (saydan) çox keyfiyyət əsasdır. Müsəlman hər hal və davranışında vüqarlı, sakit və səbirli olmalıdır.

Zikrlər çəkilərkən barmaq buğumlarından istifadə edildiyi kimi, müxtəlif vastitələrdən də istifadə etmək olar. Səhabələrlin həyatına nəzər yetirdikdə onlar zikrləri üçün xurma və yaxud zeytun çəyirdəklərindən, çınqıl daşlarından və ya düyünlənmiş iplərdən istifadə edirdilər. Müasir dövrümüzdə bu vasitələr təsbeh və yaxud elektronik vasitələrlə əvəz edilir. Təsbeh əsas məqsəd yox, vasitədir. Bu baxımdan istifadə edilməsi dini nöqteyi-nəzərdən qadağan edilməmişdir. Əlbəttə ki, əsas məsələ təsbehin

412. Müslim, “Səhih”, 596.

keyfiyyətli olması yox, zikrin keyfiyyətli (səmimi, ixlaslı) olmasıdır.

### 2. Namazdan sonrakı zikrlər tək başına çəkilməlidir, yoxsa camaatla?

**HƏDİS:**

عَنِ الْأَغَرِّ أَبِي مُسْلِمٍ، أَنَّهُ قَالَ: أَشْهَدُ عَلَى أَبِي هُرَيْرَةَ وَأَبِي سَعِيدٍ الْخُدْرِيِّ أَنَّهُمَا شَهِدَا عَلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَنَّهُ قَالَ: «لَا يَقْعُدُ قَوْمٌ يَذْكُرُونَ اللهَ عَزَّ وَجَلَّ إِلَّا حَفَّتْهُمُ الْمَلَائِكَةُ، وَغَشِيَتْهُمُ الرَّحْمَةُ، وَنَزَلَتْ عَلَيْهِمِ السَّكِينَةُ، وَذَكَرَهُمُ اللهُ فِيمَنْ عِنْدَهُ

Əbu Musa əl-Əğar belə demişdir: Mən şahidlik edirəm ki, Əbu Hüreyrə və Əbu Səid Rəsulullahın (s.ə.s) belə dediyinə şahidlik etmişlər: "*Bir topluluq oturub Allahı zikr etsələr mələklər onların ətrafını bürüyər. Allahın rəhməti onları əhatə edər və onlara səkinət (sakitlik) enər. Allah onları yanındakı mələklərlə birgə anar*".[413]

**ŞƏRH:**

İslam dini toplu və camaatla edilən ibadətlərə əhəmiyyət verir və daha çox savablı olduğunu, topluluqda rəhmət, ayrılıqda əzabın olduğunu ifadə edir. Beləliklə müsəlmanlar arasında qardaşlıq kimi duyğuları, birliyi təmin etməyə çalışır və eyni zamanda fərdiliyi, yəni eqoizmi qətiyyətlə pisləyir. Bu mənada ümumiyyətlə dua və zikr kimi ibadətlərin də toplu şəkildə edilməsini xoş qarşılayır. Hz. Peyğəmbər (s.ə.s) səhabənin cəm şəkildə ibadətlərinə təsadüf etmiş, onlara mane olmamış əksinə təqdir etmişdir.[414]

413. Müslim, "Səhih", 2700.
414. Müslim, "Səhih", 6938.

Məlum olduğu kimi İslam ənənəsində müəzzinlik anlayışı vardır. Müəzzinin əsas vəzifəsi azan və iqamə oxumaqdır. Bununla yanaşı müəzzinlər müəyyən dua və zikrlərin öyrədilməsi məqsədilə ucadan oxumuş və beləliklə namazda iştirak edən camaat onları öyrənmişdir.

Hz. Peyğəmbər (s.ə.s) dövründə namazın bitdiyinin nişanəsi kimi ucadan təkbir gətirilirdi. Hətta ibn Abbasın rəvayətinə görə, o, Hz. Peyğəmbərin (s.ə.s) namazını bitirməsini təkbir səslərini eşidəndə anlayırdı.[415]

İmam Şafei də daxil bəzi alimlər bu hədisə əsasən təlim və öyrətmə məqsədi ilə ucadan bəzi zikr və duaların oxuna biləcəyini söyləmişlər.[416] Odur ki, günümüzdə davam edən və kökü Osmanlı dövrünə təsadüf edən toplu (cəm) şəkildə zikrlərin və duanın edilməsi ənənəsi gözəl bir adət olması ilə yanaşı, həm də öyrədici xarakter daşıyır. Bu adət İslamın ümumi prinsiplərinə zidd olmadığı üçün mötəbər sayılmış və qəbul edilmişdir. Namazdan sonra davam edən bu tətbiqat həm insanda namazdan sonra zikr etmə vərdişini formalaşdırır, həm də insanın bəzi mənəvi duyğularının inkişaf etməsinə səbəb olur.

Namazın əslindən sayılmayan bu cür faydalı adətlərin özgələşdirmək yerinə faydasından istifadə etməyə cəhd göstərmək İslam alimlərinin də izlədiyi yoldur. Məsələn, Hz. Ömərin təraveh namazını imamla camaat şəklində qılınmasını təşkil etməsi hər kəs tərəfindən bəyənilmiş və davam etdirilmişdir. Bunun kimi namazdan sonra edilən zikrlərin təkbaşına edilə biləcəyi kimi, toplu şəkildə edilməsinə də tənqidi nəzərlə baxmamaq lazımdır. Haqqında qəti dəlil və sübut olmayan bu kimi məsələlərdə hər kəsin üslubuna hörmətlə yanaşmaq, ixtilaf çıxmasına zəmin hazırlamamaq da hər bir müsəlmanın vəzifəsi olmalıdır.

415. Buxari, “Səhih”, 842.
416. Əli əl-Qari, “Mirqat əl-məfatih”, c. 3, s. 34.

Məlum olduğu kimi, Hz. Peyğəmbər (s.ə.s) fərz namazlarından sonra qılınan sünnələri evində qılmış və əshabına da bunu tövsiyə etmişdir. Dövrün ictimai vəziyyəti nəzərə alındıqda və Hz. Peyğəmbərin (s.ə.s) də evinin məscidin həyətində yerləşdiyini xatırladıqda məsələ aydın olur. Yəni bu tətbiqata sonrakı dövrlərdə davam etmək qeyri-mümkün hala çevrilmişdir. Odur ki, namazların son rükətlərinin də məsciddə qılınması daha real göründü. Məhz buna görə də namazlardan sonra edilən zikr və duaların məsciddə edilməsi normal qarşılanmalıdır. Bunu əsas götürərək İslam alimləri bu dua və zikrlərin birlikdə və cəm halda edilməsinin daha uyğun olduğunu qəbul etmişdir. Qeyri-ərəb cəmiyyətləri də nəzərə alsaq namazdan sonra oxunan dua və zikrlərin ucadan oxunmasının nə qədər məqsədə müvafiq olduğunu görərik. Çünki ərəb dilində oxuyub yaza bilməyən, hətta öz ana dilində oxuyub yaza bilməyən insanlar fəziləti yuxarıda qeyd olunan duaların məsciddəki müəzzinlərin oxuması ilə öyrəndikləri bir həqiqətdir.

Faydası danılmaz olan bu davranışları davam etdirmək ən doğru davranışlardan biri kimi qəbul edilməlidir. Bu məsələyə toplu şəkildə edilən duaların da məqbul dualardan olduğunu əlavə etsək, məsələnin gözəl bir davranış olduğu ortaya çıxmış olar. Bununla yanaşı duaları bilən birinin buna tabe olması mütləq deyildir, ancaq camaat savabından məhrum olmamaq üçün iştirak etməsi tövsiyə olunandır. Onu da etiraf etmək lazımdır ki, namazın sonunda edilən zikr və duanı gözləməyən insanlar ya onu tələsik şəkildə yarımçıq edir və yaxud da heç etmir. Etsə də hərəkət halında məsciddəki feyz və bərəkəti əldən qaçırmış olur.

### 3. Namazdan sonra dua etmək və əlləri qaldırmaq olar?

**HƏDİS:**

عَنْ أَبِي أُمَامَةَ، قَالَ: قِيلَ يَا رَسُولَ اللهِ: أَيُّ الدُّعَاءِ أَسْمَعُ؟ قَالَ: جَوْفَ اللَّيْلِ الآخِرِ، وَدُبُرَ الصَّلَوَاتِ الْمَكْتُوبَاتِ

Əbu Əmamədən rəvayət edildiyinə görə Rəsulullaha (s.ə.s) belə sual ünvanlanmışdır: "Ya Rəsuləllah! Hansı dua məqbuldur?" O da suala belə cavab vermişdir: "*Gecənin ortasında və fərz namazından sonra edilən dua*".[417]

**ŞƏRH:**

Duaların məqbul olması üçün səmimiyyət və ixlas əsas meyar olduğu kimi bəzi vaxtlar da duaların qəbul edilməsi üçün səbəb edilmişdir. Məsələn, cümə günündə edilən dua, qədr gecəsində edilən duaların qəbul edilən duaların arasında olma ehtimalı yüksəkdir. Əlbəttə ki, ağızucu ilə edilən dualar bundan istisnadır.

Hz. Peyğəmbərin (s.ə.s) xəbər verdiyi duaların qəbul edildiyi vaxtlardan biri də fərz namazlarından sonra edilən dualardır. Yəni namazlardan sonra rahatlıqla dua edilə bilər. Hədislərə nəzər yetirdikdə Hz. Peyğəmbər (s.ə.s) dəccal, qəbir əzabı, pis nəzər, nəfs kimi xüsuslardan Allaha pənah apardığı kimi, ümmətin əmin-əmanlığı üçün də dualar etmişdir. Məsələn, Hz. Aişə belə deyir: "Rəsulullahın elə bir namazını görmədim ki, arxasınca qəbir əzabından Allaha pənah aparmasın".[418]

Namazdan sonra edilən dualarda əllərin qaldırılıb qaldırılmaması məsələsində də yersiz ixtilaflar edilmişdir. Hz.

417. Tirmizi, "Sünən", 3499; Nəsai, "Sünən", 9936.
418. Buxari, "Səhih", 6366.

Peyğəmbərin (s.ə.s) dua edərkən əllərini qaldırdığı, hətta qoltuq altının ağlığı görüləcək səviyyədə əllərini açdığı[419] rəvayətlərdə qeyd edilmişdir. İmam Süyutinin dediyinə görə duada əllərinin qaldırılması ilə əlaqəli yüzə yaxın rəvayət nəql edilmişdir.[420] Odur ki, dua edərkən əllərin qaldırılması mənəvi təvatürlə bizə çatmışdır. Yəni bu məsələ barəsindəki hədislər mütəvatir hədis hökmündədir.[421]

Əllərin qaldırılması Allaha yönəlmənin və onun qarşısında acizliyin simvoludur. Bu rəvayət necə də gözəl bunu təsvir edir: Salman əl-Farisinin rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Həqiqətən Rəbbiniz utanan və səxavətlidir. Bəndəsi dua edərək əllərini Ona uzadarsa, O, əllərini boş qaytarmaqdan həya edər*".[422] Mövzu ilə bağlı hədisi-şəriflər və bu haqda fiqh alimlərinin fikirlərinə görə, ovuc içlərini açmaq, əlləri az da olsa aralı vəziyyətdə saxlamaq duanın ədəblərindən sayılır. Ancaq dua edərkən əlin birini digərinin üzərinə qoymaq olmaz. Dua edərkən əlləri sinə səviyyəsinə qədər qaldırmaq müstəhəbdir.[423] Qorxu hallarında, əzabdan qorunmaq üçün edilən dualarda əllərin üstü üz tərəfə tutula bilər.[424]

Dua edərkən açılan əllərə Allah tərəfindən endirilən bərəkəti üzə sürtmək Hz. Peyğəmbərin (s.ə.s) sünnəsidir. Ömər ibn Xəttabdan rəvayət edildiyinə görə o belə demişdir: "Peyğəmbər (s.ə.s) dua üçün əllərini qaldırdığı zaman

---

419.Əbu Musa əl-Əşəridən rəvayət olunur ki: "Hz. Peyğəmbər (ə.s.s) əllərini qaldıraraq dua etdi və mən onun qoltuqaltının bəyazlığını gördüm" Bu və bənzəri rəvayətlər üçün bax. Buxari, "Səhih", 1030; 6341; 7179; Müslim, "Səhih", 2498.
420. Suyuti, "Tədrib ər-ravi", II, 180
421. Bax. Şirniov, Rüfət, "Hədis Elmi, İpəkyolu nəşriyyat, 3-cü nəşr, Bakı 2021, s. 122
422. Tirmizi, "Sünən", 3556 İbn Macə, "Sünən", 3865.
423. Əbu Davud, "Sünən", 1489.
424. Əbu Davud, "Sünən", 1490.

**onları üzünə çəkmədikcə** endirməzdi.[425] Həmçinin Abdullah ibn Abbasın (r.a) rəvayət etdiyi hədisi-şərifdə də Allahın Rəsulu (s.ə.s) belə demişdir: "*Allaha dua edəndə ovuclarının içini açaraq dua et, əllərinin üstü ilə deyil. Duanı bitirəndən sonra da ovuclarını üzünə çək*".[426]

Qeyd olunan bu rəvayətlərdən başqa Hz. Peyğəmbərin (s.ə.s) yatağa girərkən və yaxud da xəstələndikdə müəyyən duaları oxuyub ovuclarına üfürərək bütün bədəninə məsh etdiyi ilə əlaqəli rəvayətlər də, duadan sonra əllərimizi üzümüzə və yaxud bədənimizə çəkmənin sünnəyə müvafiq olduğunu göstərir.

Həzrət Aişədən (r.a) rəvayət edildiyinə görə, Həzrət Peyğəmbər (s.ə.s) yatağına girdikdə müəvizəteyn ("Fələq" və "Nas" surələri) və "İxlas" surələrini oxuyar əllərinə üfürər və sonra da üzünə, bədəninə əlləri ilə məsh edərdi. Bunu üç dəfə təkrar edərdi. Xəstələnəndə də eyni şeyi etməyi məndən xahiş edərdi".[427] Xülasə, duadan sonra əlləri açmaq və sonunda üzə çəkmək müstəhəb əməldir. Duanın sonunda əlləri üzə çəkməyin məqsədi təbərrük (bərəkətli, uğurlu saymaq) üçündür. Yəni dua ilə əllərə enmiş rəhməti üzə çəkməklə, o rəhmət və nuru üzümüzə yaxmış oluruq.

Burada bir məsələyə də təmas etmək istərdik. Belə ki, hər duadan sonra "Fatihə" deyilməsi və ya oxunması şərtdir mi? "Fatihə" surəsi ən gözəl dua olmaqla yanaşı onu müxtəlif vaxtlarda oxumaq fəzilətli əməldir. Bu baxımdan namazlarda və yaxud digər vaxtlarda "Fatihə" surəsini oxuduqdan sonra "Amin" demək nə məna ifadə edirsə, duadan sonra da "Fatihə" demək həmin şeydir. Bütün müfəssirlərə görə "Amin" sözünün mənası "Dualarımızı qəbul et" deməkdir. Möhtəvası duadan ibarət olan yeddi ayənin

425. Tirmizi, "Sünən", 3386.
426. Əbu Davud, "Sünən", 1485; İbn Macə, "Sünən", 3865.
427. Buxari, "Səhih", 5748; 6319; İbn Macə "Sünən", 3875

("Fatihə" surəsinin) axırı "Amin"lə taclandığı kimi, bütün duaların axırının da "Fatihə" ilə taclanması sirli bir hikmətdir. Necə ki, Qurani-Kərimdə Uca Allah buyurur: "**Şübhəsiz, Biz sənə təkrarlanan yeddi (ayəni) və uca Quranı verdik".**[428] Məhz bu səbəblə "əl-Fatiha" nidası "Fatihə surəsinin hörmətinə qəbul et Ya Rəbb" deməkdir.[429]

### 4. Namazdan sonra edilən dua və zikrlər fərzdən sonra, yoxsa sünnədən sonra edilməlidir?

**HƏDİS:**

عَنْ عَائِشَةَ، قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا سَلَّمَ لَمْ يَقْعُدْ، إِلَّا مِقْدَارَ مَا يَقُولُ: اللَّهُمَّ أَنْتَ السَّلَامُ وَمِنْكَ السَّلَامُ، تَبَارَكْتَ يَا ذَا الْجَلَالِ وَالْإِكْرَامِ

Hz. Aişədən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s) namazı bitirib salam verdikdən sonra "Allahummə əntəs-sələm və minkəs-sələm. Təbəraktə yə zəl cəlali vəl-ikram" deyəcək qədər oturardı.[430]

**ŞƏRH:**

Yuxarıda qeyd olunan dua və zikrlər sübh və əsr namazlarında, fərz namazından sonra, zöhr, məğrib və işa namazlarında isə namaz yekunlaşdıqdan, yəni son sünnələr qılındıqdan sonra edilir. Çünki istiğfar namazın nöqsanlarından Allaha pənah aparmaq və bu nöqsanları tamamlamaq üçün edilir. Odur ki, namazdan sonra edilən dua və zikrlər namazların ən sonunda edilməsi məqsədə uyğundur.

428. Hicr, 15/87.
429. Bax. Niyazov, Əhməd, "Aktual Dini Məsələlər", Bakı, 2014, s. 149.
430. Müslim, "Səhih", 592; İbn Macə, "Sünən", 924; Tirmizi, "Sünən", 298; İbn Əbu Şeybə, "Müsənnəf", 3085.

Qeyd etdiyimiz hədisdə Hz. Aişə Hz. Peyğəmbərin (s.ə.s) fərz namazından sonra müəyyən bir müddət oturduğu, sonra qalxdığını söyləmişdir. Fərz namazından sonra qılınacaq sünnənin bu müddətdən çox gecikdirmək məkruhdur.[431]

Hədisə əsasən Hz. Peyğəmbərin (s.ə.s) namazdan sonra dua və zikrləri ən sona saxladığı görünür. Baxmayaraq ki, namazdan sonra zikr edildiyini ifadə edən hədislər var, bu zikrlərin sünnə namazından əvvəl edildiyini qeyd edən rəvayət yoxdur. Əksinə yuxarıda qeyd etdiyimiz rəvayət zikrlərin (təsbehlərin) son sünnədən əvvəl yox, sonra edildiyini göstərir.

Hərdən təsbehlərin sünnə namazlarından sonra edilməsinin Osmanlı dövlətinin əlavəsi olduğu, yəni Hənəfi məzhəbinə Osmanlı alimlərinin əlavə etdikləri fikri ilə üzləşirik. Bu fikir tarixi həqiqətlərə ziddiyyət təşkil edir. Belə ki, zikrlərin sünnədən sonra edilməsini qeyd edən İmam Movsili hicrətin 599-cu ilində doğulmuş hicrətin 683-cü ildə vəfat etmişdir. Osmanlı dövləti isə hicrətin 700 və yaxud 701-ci ildə qurulmuşdur. Odur ki, namazlardan sonra edilən zikrlər Osmanlı dövləti qurulmadan əvvəl də sünnə namazlarından sonra edilirdi.

Hədisdə diqqətimizi cəlb edən məsələlərdən biri də qeyd olunan zikrlərin oxunacaq miqdar qədər oturmağın sünnə olmasıdır. Yəni camaatla namaz qılanlar müəzzin “Allahummə əntəs-səlamu və minkəs-səlam. Təbaraktə yə zəl cələli vəl-ikram” deyənə qədər yerindən qalxmamaq lazımdır. Çünki Hz. Peyğəmbər (s.ə.s) bunun söyləndiyi miqdar qədər oturmuş yerindən tərpənməmişdir. Daha sonra ya üzü insanlara çevirərək oturmuş və yaxud son sünnəni qılmaq üçün evinə getmişdir.

431. Bax. İbn Abidin, “Rəd əl-muxtar alə əd-dürr əl-muxtar”, Beyrut 1992, c. 1, s. 530 ; Movsili, “əl-İxtiyar”, c. 1, s. 66.

## ƏDƏBİYYAT

Akyüz, Vecdi, "İbabetler İlmihali", İstanbul 1995.

Apaydın, H. Yunus, "Nasları anlamada yetki ve yönetim sorunu" Marife dərgisi 2002.

_________, "Bir Muhafazakar Reycilik Teorisyeni: Ebu Hanife", İslami Araştırmalar Dergisi, cilt: 15, sayı: 12, 2002, 143-1472017, 51

Aydınlı, Abdullah, "Ehl-i hadis" DİA, İstanbul 1994.

Əbdürrəzzaq, əs-Sənani, "əl-Müsənnəf", Beyrut 1403.

Bağdadi, Xətib, "Tarixu-Bağdad", Beyrut (tarixsiz)

Beyhəqi, Əbu Bəkr, "Sünən əl-kübra", Beyrut 2003.

----------- "Şuab əl-iman", Beyrut 1990.

Bəhləvi, "Ədillə əl-Hənəfiyyə", Dəməşq/Suriyə 2007.

Buxari, "əs-Səhih", Cağrı yayınları, İstanbul 1981.

Çakan, İsmail Lütfü, "Hadis-Sünnet Üzerine", İstanbul 2017.

Darəqutni, "Sünən əd-Darəqutni", Beyrut 2004.

Darimi, "Sünən əd-Darimi", Qahirə 2015.

Erdem, Sami, "Vitr", Diyanet Vakfi İslam Ansiklopedisi, c. 43,

Erdoğan, Mehmet, "Fıkıh ve Hukuk Terimleri Sözlüğü", İstanbul 2005.

__________, Batıni İnkıta", Marmara Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı: 4, İstanbul 1986

Erul, Bünyamin "Sahabenin Sünnet Anlayışı" Ankara TDV yayınları 1999.

Əbu Bəkir Sifil, "İdrak ve Tasdik", İstanbul 2014.

Əbu Davud Təyalisi, "Müsnədu Əbi Davud", Beyrut 1985.

Əbu Davud, “Sünən”, Cağrı yayınları, İstanbul 1981.

Əbu Hənifə, “el-Alim vel-mütealim” (İmam Azamın beş eseri, türk dilinə tərcümə Mustafa Öz, İstanbul 1981.

____________, “ər-Risalə ila Osman el-Bətti”, (türk dilinə tərcümənin içində, tərcümə edən Mustafa Öz), İstanbul 1981.

Əbu Nueym, İsfahani, “Hilyə əl-övliya”, Beyrut 1387.

Əbu Yala, əl-Mövsuli, “Müsnədu - Əbi Yala”, Dəməşq 1984.

Əbu Yusif, “Kitab əl-Əsar”, Beyrut tarixsiz,

Əhməd ibn Hənbəl, “Müsnəd”, Cağrı yayınları, İstanbul 1981.

Əli əl-Qari, “Fəthu bab əl-inayə bi şərhi ən-niqayə”, Beyrut 1997.

_________, “Mirqat əl-məfatih”, Beyrut 2007

Güler, Zekeriya “İmam Ebu Hanifenin Hadis İlminde Zayıf Olduğu İddiasının Tahlili” İmam Azam Ebu Hanife ve Düşünce Sistemi Simpozyumu, KURAV Yayınları Bursa 2005,

Hakim Neysaburi, “əl-Müstədrək”, Beyrut tarixsiz.

Halaçoğlu, Yusuf, “Fersah”, DİA, c. 12

Hatipoğlu, Haydar, “Süneni İbn Mace Tercemesi ve Şerhi”, İstanbul 2012.

Heysəmi, “Məcməüz-zəvaid”, Beyrut 1994.

İbn Abidin, “Rəd əl-muxtar alə əd-durr əl-muxtar”, Beyrut 1992,

İbn Adi, “əl-Kamil fi zuafa ər-rical”, Beyrut 1985.

İbn Əbdülbər,” Camiu bəyan əl-İlm və fadlihi”, Mədinə 1986.

__________, "əl-İntiqa fi Fəzail əl-əimmətis-səlasətil Füqaha", Beyrut 1998.

İbn Əbu Şeybə, Əbu Bəkr, "Kitab əl-müsənnəf fi əl-əhadis və əl-asar", ər-Riyad 1409.

İbn Həcər, əl-Əsqəlani, "Təhzib ət-təhzib", Beyrut 1991.

İbn Həzm, Əbu Muhəmməd Əli əl-Əndülüsi, "əl-İhkam fi usulil-əhkam", Misir 1404.

İbn Hibban, "Səhih", Beyrut 1988.

İbn Xəldun, "Müqəddimə", Beyrut 1988.

İbn Qudamə, "əl-Müğni", Beyrut 1972

İbn Ruşt, "Bidayə əl-müctəhid", Beyrut 1997.

İbn Səd, "ət-Təbəqat", Qahirə 2001.

Kasani, "Bədai əs-sənai", Beyrut 1986.

Kövsəri, Muhamməd Zahid, "Tənibu əl-Xətib", (türk dilinə tərcümə Süleyman Tekin) Tahkik Yayınları, İstanbul 2020.

Qasimi, "Qəvaid ət-təhdis", Beyrut 1993,

Qazı İyaz, "Tərtib əl-mədarik və Təqrib əl-məsalik", Beyrut 1965.

Qurtubi, Şəmsəddin, "əl-Cami li əhkamil-Quran", Qahirə 1964,

Ləknəvi, Muhamməd, "əl-Fəvaid əl-bəhiyyə fi təracim əl-Hənəfiyyə", Beyrut, 1998.

Məhəmməd Vail əl-Hənbəli, "Ərbaun əl-Hənəfiyyə", Suriyə 2011.

Movsili, "əl-İxtiyar", İstanbul 1987.

Müslim, "əs-Səhih", Cağrı yayınları, İstanbul 1981.

Necati Yeniel, Hüseyin Kayapınar, "Süneni Ebu Davud şerhi ve Tercümesi", Şamil yayınları, İstanbul 1988.

Nəsai, "Kitab əd-duafa vəl-mətrukin", (thk, Mahmud İbrahim Zayəd), Beyrut, 1986.

Nəvəvi, "əl-Minhac fi şərhi Səhih Müslim ibn Həccac", Müəssisə əl-Qurtuba 1994.

Niyazov, Əhməd, "Aktual Dini Məsələlər", İpəkyolu Nəşriyyat, Bakı, 2014

Öğüt, Salim, "Ehl-i hadis" DİA, İstanbul 1994.

Sərəxsi, "əl-Məbsut", İstanbul 1983.

Süyuti, "Təbəqat əl-huffaz", Beyrut 1983.

______, "Tədrib ər-Ravi", Mədinə 2016.

______, Camius-səğir, Beyrut 1996.

Şirniov, Rüfət, "Hədis Elmi, İpəkyolu nəşriyyat, Bakı 2021

Şövqani, Neyl əl-əvtar, Qahirə 1971.

Təhavi, Əbu Cəfər, "Şərhu məanil-asar", Misir 1994.

Tirmizi, "əs-Sünən", Cağrı yayınları, İstanbul 1981.

Topbaş, Osman, Nuri, "Quran və Sünnə işığında İslam, İman, İbadət", Bakı 2006.

Uğur, Müctəba, "Hadis Terimleri Sözlüğü", Ankara 1992

Uyar Ahmet, "Hadisleri/sünnetleri anlamada farklı yaklaşımlar", Bilimname məcmuəsi, 2004/2.

Yaşar Kandemir, "Hübeyb b. Adi", Diyanet İslam Ansiklopedisi, c. 18.

Yavuz, Yunus Vehbi, "Evvabin Namazı", DİA, İstanbul 1995,

Yeşil, Mahmut, "Vaz Edebiyatinda Hadis", Ankara 2001.

Zəfər Təhanəvi, "İlaus-sünən", Pakistan 1415

Zəhəbi, "Təzkira əl-hüffaz", Beyrut 1956.

## MÜNDƏRİCAT

**TƏQDİMAT / 5**

**ÖN SÖZ / 9**

GİRİŞ
ƏSAS MƏLUMATLAR / 13

**GİRİŞ / 15**

I. HƏDİS ELMİ İLƏ ƏLAQƏLİ BƏZİ MƏLUMATLAR ........ 17

**A. Hədis üsulunda niyə fərqli anlayışlar var?..17**

**B. Səhih hədis və hökmü ........ 19**

**C. Zəif hədis və hökmü ........ 20**

*a. Qətiyyən əməl etmək olmaz. ........ 21*

*b. Əməl etmək olar........ 21*

*c. Bəzi şərtlər əsasında əməl etmək olar........ 22*

**D. Bir hədisin səhih sayılması üçün əsər adı kifayətdir?........ 23**

**E. Şərhsiz hədis oxumaq olar? ........ 24**

II. MÖVZU İLƏ ƏLAQƏLİ ƏSAS MƏLUMATLAR ........ 25

**A. "Əhli-hədis" və "Əhli-rəy" məktəbləri...... 25**

1. Kimlərə "Əhli-hədis" deyilir? ........ 27

2. Kimlərə "Əhli-rəy" deyilir? ........ 29

**B. Əbu Hənifənin hədis sahəsi üzrə biliyi...... 33**

1. Əbu Hənifəyə ünvanlanan tənqidlərin ümumi məzmunu ........ 33

2. Əbu Hənifənin hədis bilmədiyinə dair iddialar...35
3. Əbu Hənifənin hədis bildiyinə dair məlumatlar . 40
4. Həqiqətən Əbu Hənifə qiyas etmək üçün hədisləri tərk edib? ..................................... 43
5. Məsələni necə başa düşməliyik?.................... 44

**BİRİNCİ FƏSİL**
**NAMAZIN QILINIŞI / 55**

I. NAMAZIN FƏZİLƏTİ ......................................... 57

**A. Namazın fəziləti ilə əlaqəli ayələr............ 57**
**B. Namazın fəziləti ilə əlaqəli hədislər......... 60**
**C. Alimlərin namaz sevgisi.......................... 64**

II. NAMAZIN QILINIŞI.......................................... 68

**A. Niyyət.................................................... 68**
**B. İftitah təkbiri .......................................... 71**
1. İftitah təkbirində əllər hara kimi qaldırılmalıdır?...72
2. Namaz qılarkən hara baxmaq lazımdır? ......... 74
**C. Qiyam ................................................... 76**
1. Əllər harada və necə bağlanmalıdır? ............. 76
2. İfititah təkbirindən sonra hansı dua oxunur? .. 78
**D. Qiraət ................................................... 80**
1. Qiraətdə "bəsmələ" oxunmalıdır? ................. 80
2. Qiraətdə nə oxunmalıdır? ........................... 83
3. İmamla namaz qılanın qiraəti necə olmalıdır?... 86
4. "Amin" necə deyilməlidir? ........................... 88
**E. İntiqal təkbirlərində əllər qaldırılmalıdır? 91**
**F. Rüku və səcdə ........................................ 93**

1. Rüku ilə əlaqəli məsələlər............................ 93
2. Səcdə necə edilməlidir? .............................. 95
**G. Tədili-ərkan ............................................. 98**
**H. Namazda oturuş ................................. 102**
1. Oturuş necə olmalıdır? ............................ 102
2. Oturuşda hansı dualar oxunmalıdır?........... 103
3. Namazda salam necə verilir?..................... 106

III. BEŞ VAXT NAMAZIN NAFİLƏLƏRİ .............. 108

**A. Sübh namazının sünnəsi....................... 110**
**B. Zöhr namazının sünnələri ..................... 111**
1. Zöhr namazının ilk sünnəsi neçə rükətdir? ... 111
2. Zöhr namazının son sünnəsi.................... 112
**C. Əsr namazının sünnəsi ......................... 114**
**D. Axşam namazının sünnəsi .................... 116**
**E. İşa namazının sünnələri ....................... 118**
1. İşa namazının ilk sünnəsi......................... 118
2. İşa namazının son sünnəsi....................... 119

IV. DİGƏR NAMAZLAR.................................... 121

**A. Təraveh namazı ................................... 121**
1. Təraveh namazı neçə rükətdir?................ 122
2. Təraveh namazını təkbaşına qılmaq olar?......124
**B. Vitr namazı ......................................... 126**
1. Vitr nə vaxt qılınmalıdır? ......................... 126
2. Vitr namazının hökmü nədir? ................... 128
3. Vitr namazı neçə rükətdir? ...................... 129
4. Vitr namazında hansı dua oxunmalıdır? ..... 131
5. Qunut duaları nə vaxt oxunmalıdır?........... 133

6. Vitr namazında dua oxuyarkən əllər qaldırılmalıdır mı? ............................ 134

**C. Cümə namazı ........................................ 135**

1. Cümə namazının fərzindən əvvəl namaz var mı?................................................137

2. Cümə namazının son sünnəsi neçə rükətdir?...139

3. Cümə namazının bir rükətinə yetişən nə etməlidir? ................................. 142

**D. Səfər namazı ........................................ 144**

1. Səfərilikdə camaatla namaz....................... 147

2. Səfərdə sünnə namazları qılınmalıdır? ......... 148

3. Səfərdə olan vitr namazını qılmalıdır?.......... 151

4. Səfər namazı qılmaq üçün məsafə və müddət nə qədər olmalıdır? ................... 151

**E. Bayram namazı....................................... 154**

1. Bayram namazı neçə təkbirlə və necə qılınır?....155

**F. Cənazə namazı ...................................... 158**

1. Cənazə namazı neçə təkbirlə qılınır? ........... 159

2. Cənazə namazında təkbirlər üçün əllər qaldırılmalıdır?.................................... 161

**G. Əvvabin namazı ..................................... 162**

**İKİNCİ FƏSİL**
**NAMAZLA ƏLAQƏLİ BƏZİ**
**MƏSƏLƏLƏR / 165**

I. NAMAZLA ƏLAQƏLİ BƏZİ MƏSƏLƏLƏR ...... 167

**A. İqamə cüt-cüt oxunur! ............................ 167**

**B. Səfləri sıxlaşdırmaq üçün dabanları birləşdirmək vacibdir?............ 169**

**C. Namazdan sonra oxunan bəzi ayələr hansı rəvayətlərə əsaslanır?.................... 173**

1. Ayətül-kürsi........................................... 173
2. Həşr surəsi (Hüvallahul-ləzi)...................... 175
3. Bəqərə surəsi (Əmənər-Rasulü)................. 176

**D. Namazdan sonra zikr və dualar ............. 178**

1. Namazdan sonra hansı zikrlər edilməlidir? ........................................... 178
2. Namazdan sonrakı zikrlər tək başına çəkilməlidir, yoxsa camaatla? .................. 181
3. Namazdan sonra dua etmək və əlləri qaldırmaq olar? ............................. 184
4. Namazdan sonra edilən dua və zikrlər fərzdən sonra, yoxsa sünnədən sonra edilməlidir?.... 187

**Ədəbiyyat ................................................. 189**

# Qeydlər